# Azərbaycan Respublikası Təhsil Nazirliyi
# Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN I – IX SİNİFLƏRİ ÜÇÜN**
**TƏSVİRİ İNCƏSƏNƏT FƏNNI ÜZRƏ TƏHSİL PROQRAMI**
**(KURİKULUMU)**

**Bakı - 2013**

Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı tərkibdə yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır:

Sədr: Vidadi Xəlilov - ARTPİ-nin şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru, professor, Üzvlər: Xuraman Səlimova – layihənin koordinatoru, ARTPİ-nin böyük elmi işçisi, Məhsəti Məmmədova - AMİ-nin baş müəllimi, Fərahim Zeynalov - ADPU-nun kafedra müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Telman İbrahimov – Azərbaycan Rəssamlıq Akademiyasının dosenti, sənətşünaslıq üzrə fəlssəfə doktoru, Bənövşə Mirzəyeva - Bakı şəhəri “Avropa Azərbaycan məktəbi”nin müəllimi, Nailə Mustafayeva - Bakı şəhəri 212 №-li tam orta məktəbin müəllimi, Humanitar Məlahət Abdullayeva - Bakı şəhəri Təmayüllü məktəb-liseyin müəllimi, Səhər Cəfərova - Bakı şəhəri 204 №-li tam orta məktəbin müəllimi, Adil Bəkirov, Rüstəm Əhmədov və Üzülfət Umayeva - Bakı şəhəri 20 №-li tam orta məktəbin müəllimləri, Nəzakət Əliyeva - Bakı şəhəri 157 №-li tam orta məktəbin müəllimi, Kəmalə Cəfərzadə - Bakı Avropa liseyinin məllimi, Sevda Hətəmova - Bakı şəhəri 96 №-li tam orta məktəbin müəllimi.

**Təhsil proqramının (kurikulumun) internet üçün hazırlanmasına məsul olanlar:**

**Bibixanım İbadova,** ARTPİ-nin ibtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Akif Əliyev,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Natiq Axundov,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Məhsəti Məmmədova,** AMİ-nin ibtidai və məktəbəqədər təhsilin metodikası kafedrasının baş müəllimi

**Mündəricat**

**Giriş**

**I. Təsviri incəsənət təliminin məzmunu**

1.1. Ümumi təlim nəticələri

1.2. Məzmun xətləri

1.3. Məzmun xətləri üzrə təlim nəticələri

1.4. Fəaliyyət xətləri

1.5. Məzmun standartları

I Sinif

II Sinif

III Sinif

IV Sinif

V Sinif

VI Sinif

VII Sinif

VIII Sinif

IX Sinif

1.6. Fəndaxili və fənlərarasi inteqrasiya

**II. Təlim strategiyaları**

2.1. Təsviri incəsənət təliminin təşkilinə verilən əsas tələblər

2.2. Təsviri incəsənət təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

2.4. Təsviri incəsənət fənninin məzmun standartlarının şərhi
**III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi**
**Resurslar**
**Tezaurus**
**İstifadə olunmuş ədəbiyyat**

## Giriş

**Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.** Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) bu fənnin təlimi qarşısında qoyulan məqsəd və vəzifələri müəyyənləşdirən, müvafiq təlim standartlarının reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəd müasir dövrün tələblərini, şagirdlərin təlim imkanlarını, maraqlarını və meyillərini nəzərə alaraq, fənnin tədrisinin məzmununu, təlim strategiyasını müəyyən edir. Sənəddə fənn üzrə ümumi təlim nəticələri, məzmun standartları, müəllim və şagird fəaliyyətinə aid texnologiyalar, qiymətləndirmə prinsipləri əhatə olunmuşdur.

Burada fənn üzrə ümumi təlim nəticələri, təlimin məzmunu (məzmun standartları), şaquli və üfüqi inteqrasiya, müəllim və şagird fəaliyyətlərinə aid texnologiyalar, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələləri əhatə edilir. Sənəd ümumi təlim nəticələrinə nail olmaq istiqamətində bütün fəaliyyətlərin - dərslik və tədris vəsaitlərinin hazırlanması, tədris materiallarının planlaşdırılması, təlimin forma və metodlarının müəyyənləşdirilməsi üçün əsas mənbədir. Kurikulum hazırlanarkən təhsil alanın, ailənin, cəmiyyətin ehtiyac, tələb və maraqları əsas götürülmüşdür. Kurikulumda fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyən olunmuşdur. Burada əsas diqqət nəticəyəyönümlülüyə - təkcə biliklərin qazanılmasına deyil, daha çox biliklər əsasında bacarıq və vərdişlərə yiyələnməyə yönəldilmişdir.

Təsviri incəsənət təliminin məzmunu nəticəyönümlü standartlardan ibarət olub, hər bir təhsil pilləsinin və sinfin sonunda əldə olunan konkret nəticələri əks etdirir. Nəticələrin əvvəlcədən standartlar şəklində müəyyən olunması eyni zamanda onların reallaşmasına doğru yönəldiləcək tədris fəaliyyətinin inkişafını izləmək və istiqamətləndirmək üçün obyektiv qiymətləndirmə aparılmasına imkan yaradır.

Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) şagirdlərin hissiyyat imkanlarını, idraki, informativ-kom-munikativ fəaliyyətlərinin əhatə olunmasını, hissetmə, emosional və psixomotor bacarıqlarının inkişafına zəmin yaradır.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Təsviri incəsənət fənni şagirdlərin estetik dünyagörüşünü və hissiyyat aləmini inkişaf etdirmək, hadisələri bədii təsvir vasitələri ilə ifadə etmək bacarıqlarının mənimsədilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ətraf aləmdə baş verən hadisələrin şagirdlərə bədii təsvirlər (görüntülər, obrazlar) vasitəsi ilə əyani şəkildə çatdırılması onlarda gerçəkliyi daha dərindən dərk etməyə şərait yaradır.

Təsviri sənət əsərləri cəmiyyətin mənzərəsini şagirdlərə daha dolğun və obyektiv çatdırmaq imkanına malikdir. Təsviri incəsənətdə obyektiv və subyektiv amillər şagirdə fərd-cəmiyyət münasibətlərini dərk edib qiymətləndirməyə kömək

edir. Vizual özünüifadə insanın mənəvi tələblərinin ödənilməsini, şəxsiyyətin təbiətə və cəmiyyətə inteqrasiyasını təmin edir.

Təsviri fəaliyyət şagirdləri həm əqli, həm də estetik cəhətdən inkişaf etdirir, onları ətraf mühiti dərk etməyə yönəldir, təbiətin və əşyaların formasını, rəngini və materialını, onların vəhdətini, gözəlliyini hiss etməyə və bu hissiyyatı təsvirlərdə əks etdirməyə imkan yaradır.

Şagird tərəfindən yaradılan təsviri görüntülər (obrazlar) həyat gerçəkliyinin daha dolğun və obyektiv şəkildə dərk olunmasını, onun şəxsi ideyalar, hisslər və təxəyyül prizmasından keçirilməsini təmin edir.

Təsvir etmək insanın görmə yaddaşını, mühit və məkan duyumunu, obrazlı təsəvvür qabiliyyətini inkişaf etdirir. Təsviri fəaliyyət şagirdləri məkan və forma ölçülərini hiss etməyə, obrazlı və məntiqi düşünməyə, bu düşüncələri vizual obrazlarda əks etdirməyə istiqamətləndirir.

Təsviri incəsənət fənni şagirdlərdə Azərbaycan və dünya incəsənətinin klassik nümayəndələri və nadir sənət nümunələri haqqında təsəvvür yaratmaqla uşaqların məlumat dairəsini genişləndirir, onların mənəvi aləmini daha da zənginləşdirir. Bu fənn vasitəsilə formalaşdırılan və inkişaf etdirilən obrazlı təfəkkür bacarıqları digər fənlərin müvafiq mövzuların mükəmməl mənimsənilməsinə də zəmin yaradır.

Təsviri incəsənət fənninin məqsədi estetik dünyagörüşlü, zəngin mənəviyyata, bədii zövqə və yaradıcı təxəyyülə malik, milli və ümumbəşəri dəyərlərə hörmətlə yanaşan, incəsənət əsərlərini duyub qiymətləndirən, obrazlı və simvolik düşüncə tərzinə malik şəxsiyyət formalaşdırmaqdan ibarətdir.

"Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)" çərçivə sənədinə uyğun olaraq, ümumtəhsil məktəblərində təsviri incəsənət fənninin vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

**İbtidai təhsil səviyyəsində:**

- Şagirdləri təsviri sənət növlərinin forma, janr, üslub və ifadə vasitələri, incəsənət tarixi haqqında ümumi məlumatlarla tanış etmək, onların

yaradıcı-estetik fəaliyyətlə bağlı ən sadə və ilkin bacarıqlara yiyələnmələrini təmin etmək.

- Şagirdlərdə bədii zövq, estetik mədəniyyət, rəng, forma və məkan hissiyyatı, vizual yaddaş, milli təsviri və dekorativ sənət növlərinə məhəbbət, ümumbəşəri incəsənət nümunələrinə, habelə bədii yaradıcılığa meyil və maraq formalaşdırmaq.
- Şagirdlərdə mücərrəd və məntiqi təfəkkür, əməksevərlik bacarıqları formalaşdırmaq.

**Ümumi orta təhsil səviyyəsində:**

- Azərbaycanın, eləcə də dünya incəsənətinin görkəmli nümayəndələri və onların yaradıcılığı ilə şagirdlərin daha ətraflı tanış olmalarını təmin etmək.
- Həyati gerçəkliklərin və sənət əsərlərinin şagirdlər tərəfindən bədii-emosional qavranılmasını təmin etmək, onların estetik zövqünün inkişafına nail olmaq və təsviri sənət nümunələrinin timsalında ölçü, forma, simmetriya, harmoniya məfhumlarının mahiyyəti barədə şagirdlərin təsəvvürlərini dərinləşdirmək.
- Şagirdlərdə müqayisə, təhlil və təsvir qabiliyyətlərini təkmilləşdirmək, onlarda sadə tərtibat-dizayn bacarıqları formalaşdırmaq, təsviri sənət üzrə istedadlı uşaqların üzə çıxarılmasını təmin etmək.

## I. Təsviri incəsənət təliminin məzmunu

### 1.1.Ümumi təlim nəticələri

Təsviri incəsənət fənni üzrə təhsil proqramlarında (kurikulumlarında) ibtidai və əsas təhsil səviyyələri üçün aşağıdakı ümumi təlim nəticələri müəyyən edilmişdir:

**İbtidai təhsil səviyyəsi ( I-IV siniflər) üzrə şagird:**

- Əşyalar və hadisələri praktik yolla təsvir edir;

- Yaş səviyyəsinə uygun təsviri incəsənət nümunələrini izah edir və onları fərqləndirir;
- Əşyanın məzmunu və forması arasındakı əlaqəni şərh edir;
- Rəng çalarlarını ayırır, rəngləri emosional məna çalarlarına görə müqayisə edir;
- Sadə kompozisiyalar qurur və onların ayrı-ayrı hissələrini mütənasib qaydada yerləşdirir;
- Sadə tərtibat xarakterli işləri yerinə yetirir.

**Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:**

- Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətini izah edir.
- Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında məlumatları şərh və təqdim edir.
- Təsviri sənət növlərini, onları təşkil edən əsas janrları ayırır, xarakterik xüsusiyyətlərini izah edir.
- Həyati görüntüləri real, habelə abstrakt tərzdə təsvir edir.
- Bədii sənət əsərlərini milli-üslubi cəhətlərinə görə müqayisə və izah edir.
- Bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

## 1.2. Məzmun xətləri

Kurikulumda təsbit olunmuş məqsəd və vəzifələri aşağıdakı məzmun xətləri vasitəsilə həyata keçirmək nəzərdə tutulur :

- Cəmiyyət və təsviri incəsənət
- Təsviri və dekorativ yaradıcılıq
- Estetik reaksiya

### Cəmiyyət və təsviri incəsənət

Bu məzmun xətti cəmiyyətdə təsviri incəsənətin rolu, cəmiyyət və təsviri incəsənət arasındakı əlaqələri, təsviri incəsənətin cəmiyyətin aynası olması, baş verən tarixi hadisələrin mahiyyətinin dərk olunmasında təsviri incəsənət

nümunələrinin əhəmiyyəti, milli və dünya təsviri incəsənət tarixinin görkəmli nümayəndələri, onların məşhur əsərləri haqqında məlumatları əhatə edir.

Cəmiyyətdə baş verən müxtəlif hadisələri, xalqımızın, eləcə də dünya xalqlarının tarixi, mədəniyyəti, adət-ənənələri haqda məlumatların şagirdlərə mənimsədilməsində, təsviri sənət əsərlərinin informativ-kommunikativ imkanlarının dərk olunmasında bu fənn mühüm vasitə kimi çıxış edir.

Digər fənlər vasitəsilə mənimsədilən tarixi faktların, hadisələrin və şəxsiyyətlərin təsvirlərdə əks olunması şagirdlərdə bütün bunlar haqqında daha dolğun təsəvvürlər formalaşmasına əhəmiyyətli təsir göstərir.

Cəmiyyət və təsviri incəsənət əlaqələrini əks etdirən bu məzmun xətti üzrə müəyyən olunan bilik və bacarıqlar şagirdlərdə milli və beynəlmiləl dəyərlərə maraq və hörmət aşılayır, insan cəmiyyətinin mədəni, siyasi və iqtisadi həyatı haqqında geniş və dolğun təsəvvürlər yaradır, müxtəlif dövrlərdə mövcud olan cəmiyyətlər, onların tərkib hissələri və bunların özünəməxsus xüsusiyyətləri haqda geniş və rəngarəng məlumatlar verir.

**Təsviri və dekorativ yaradıcılıq**

Təsvir yaradarkən şagird hadisələri, obyektləri və predmetləri dərk etdiyi tərzdə vizuallaşdıraraq onların mahiyyətinə, qarşılıqlı əlaqələrinə və fərdi xüsusiyyətlərinə öz münasibətini bildirir.

Təsvir fəaliyyəti şagirdlərin əqli və estetik inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, onların görmə yaddaşının, mühit və məkan duyumunun, obrazlı təsəvvür qabiliyyətinin formalaşmasında mühüm rol oynayır.

Təsviri yaradıcılıq fəaliyyəti gerçəkliyi dərk etmək, obrazlı və məntiqi düşünmək, hiss və duyğuları vizual obrazlarda əks etdirmək bacarıqlarnın təmin edilməsində başlıca vasitə hesab olunur. Bu prosesdə şagird keçmişə və gələcəyə obrazlı münasibətini bildirmək imkanları əldə edir.

İnsan mənəviyyatının mühüm tərkib hissəsi olan gözəlliyə tələbatın ödənilməsində təsvir yaradıcılığı mühüm əhəmiyyət kəsb edir. Yaradıcılıq prosesi şəxsdə daxili aləmlə xarici aləm arasında əlaqələrin yaranmasını, müxtəlif təsvir

üsullarının mənimsənilməsini təmin edir, onun cəmiyyətə daha fəal inteqrasiyasına və özünütəsdiqinə geniş imkanlar yaradır.

Təsviri sənətin mühüm hissəsi olan, istər müstəvi səth üzərində (qrafika, rəngkarlıq), istərsə də üçölçülü plastik forma yaratmaq bacarığı (heykəltəraşlıq) şagirddə forma hissiyyatını təmin etməklə, onun forma gözəlliyindən və kamilliyindən zövq almaq qabiliyyətini inkişaf etdirir.

Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma, dizayn bacarıqları aşılayır.

Dekorativ yaradıcılıq şəxsin bəzəyə olan təbii tələbatını ödəyir və onun estetik aləmini zənginləşdirərək bədii zövqünün formalaşmasına, bu sahədə milli ənənələrin davam etdirilməsinə qüvvətli təsir göstərir.

Dekorativ kompozisiya və dizayn (tərtibat) işlərinin yerinə yetirilməsi şagirdin bədii düşüncə, zövq, ənənə daşıyıcısına çevrilməsinə imkanlar yaradır.

Dekorativ yaradıcılıq prosesi şagirdlərin abstrakt və estetik düşüncə qabiliyyətini inkişaf etdirərək rənglərin, formaların, ölçülərin vəhdət prinsiplərini və qanunauyğunluqlarını mənimsəməsini təmin edir.

**Estetik reaksiya**

Təsviri və dekorativ sənət növlərinə aid nümunələr təbiətin, ətraf aləmin insanın daxili aləminə, hislərinə, duyğularına təsirindən yaranır. Şəxsiyyətin mənəvi dünyasında gözəllik təsəvvürləri (meyarları) halında formalaşaraq incəsənət əsərlərində termin və anlayışlar, bədii ifadə vasitələri (rəsm, heykəl, dekor, kompozisiya) şəklində əks olunur. Şüurlu, mükəmməl mənimsəmə estetik-emosional hisslər yaradır.

Azərbaycan və dünya incəsənəti tarixini təşkil edən əsərlər zaman keçdikcə mədəni, bədii, mənəvi dəyərlərin ifadəsi kimi meydana gəlmiş və toplam halında milli və ümumbəşəri dəyərlərin maddiləşmiş daşıyıcılarına çevrilmişdir.

Təsviri incəsənət əsərləri ilə təmasda olmaq şagirdə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə bir növ mədəni mübadilə prosesini yaşadır. Təsviri və dekorativ incəsənət əsərlərinin şəxsiyyətə göstərdiyi təsir nəticəsində estetik-

emosional meyar və normalar, mənəvi zənginləşmə və mədəni tolerantlıq formalaşır, hissiyyat diapazonu daha da genişlənir.

Təsviri və dekorativ sənət əsərlərinin qavranılması estetik zövqün, emosional duyğuların kamilləşməsini və hissiyyat aləminin zənginləşməsini təmin edir. İncəsənət əsərlərinə, hadisələrinə və fenomenlərinə şagird tərəfindən verilən estetik reaksiya gözəlliyi duymaq və qiymətləndirmək (dəyərləndirmək) qabiliyyətlərinin göstəricisi kimi çıxış edir.

Təsviri incəsənət fənninin mənimsənilməsi nəticəsində formalaşdırılan və inkişaf etdirilən bədii həssaslıq və emosional qavrama bacarıqları şagirdlərin mənəvi dünyasını zənginləşdirir, onlarda milli və ümumbəşəri dəyərlərə hörmət, humanizm, şəfqət hislərini qüvvətləndirir.

## 1.3. Məzmun xətləri üzrə təlim nəticələri

**İbtidai təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri:**

**1. Cəmiyyət və təsviri incəsənət**

*Şagird:*

- təsviri incəsənətin cəmiyyətdə rolunu öz yaş səviyyəsinə uyğun sadə formada izah edir;
- Azərbaycanın tanınmış təsviri və dekorativ sənət nümayəndələri və onların yaradıcılığından nümunələr haqqında zəruri məlumatları şərh edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

*Şagird:*

- təsviri və dekorativ sənət növlərini tanıyır, onları xarakterik cəhətlərinə görə fərqləndirir;
- təsviretmə prosesində müvafiq iş ardıcıllığına əməl edir və sadə təsvir üsullarını mənimsədiyini nümayiş etdirir;
- özünün və digərlərinin yaradıcı işləri haqqında mülahizələrini bildirir;

- sadə kompozisiyalar qurur və onların ayrı-ayrı hissələrini mütənasib qaydada yerləşdirir;
- sadə tərtibat işləri yerinə yetirir.

**3. Estetik reaksiya**

*Şagird:*

- sadə təsviri sənət nümunələrinin məzmununu, onlarda ifadə olunan əsas fikri yaşına uyğun şəkildə şərh edir;
- təqdim olunan sənət əsərlərinin onda yaratdığı təəssüratı təsvir edir.

**Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri:**

**1. Cəmiyyət və təsviri incəsənət**

*Şagird:*

- Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətini şərh edir.
- Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərləri haqqında məlumatları şərh və təqdim edir.
- Təsviri sənət növlərini, onları təşkil edən əsas janrları ayırır, xarakterik xüsusiyyətlərini izah edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

*Şagird:*

- Həyati görüntüləri real, abstrakt tərzdə təsvir edir.
- Bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3. Estetik reaksiya**

*Şagird:*

- Bədii sənət əsərlərini milli-üslubi cəhətlərinə, müxtəlif səpkili estetik-emosional hislərə görə müqayisə və izah edir.

- Təsviri sənətin növ və janrlarını xarakterik xüsusiyyətlərinə görə ayırır, estetik təsirini izah edir.

## 1.4. Fəaliyyət xətləri

Kurikulumda fənnin məzmunu bacarıqlar şəklində ifadə olunmuş standartların vasitəsilə verilir. Bacarıqlar isə şagirdin müxtəlif fəaliyyətləri nəticəsində əldə olunur və onların köməyi ilə nümayiş etdirilir. Buna görə Təsviri incəsənət fənni üzrə məzmun standartları müəyyənləşdirilərkən, aşağıdakı fəaliyyət xətləri ilə əlaqəlilik nəzərə alınmışdır:

- təsviretmə
- tətbiqetmə
- məlumat mənbələrindən istifadə;
- əlaqələndirmə
- müqayisə və təhliletmə
- sistemləşdirmə və təsnifetmə
- proqnozlaşdırma
- problemin həlli
- təqdimetmə
- dəyərləndirmə

## 1.5. Məzmun standartları

### I sinif

**I sinfin sonunda şagird:**

- təsviri və dekorativ sənətin əsas növlərini sadalayır;
- Azərbaycanın görkəmli təsviri incəsənət nümayəndələrini (Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov) ən məşhur əsərlərini sadalayır;
- sadə təsvir alətlərindən (karandaş, fırca, flamaster, kömür) və bədii ifadə vasitələrindən (xətt, cizgi, ton) istifadə edir;
- sadə həndəsi fiqurlar çəkir, kiçik kompozisiyalar qurur;

- verilmiş sadə formalı əşyaların xüsusiyyətlərini şərh edir, rəng çalarlarına ayırır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri və dekor sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.***

1.1.1. Təsviri sənətin əsas növlərini (qrafika, rəngkarlıq, heykəltəraşlıq) sadalayır.

1.1.2. Dekorativ – tətbiqi sənətin əsas növlərini (xalçaçılıq, misgərlik, milli geyim) sadalayır.

1.1.3. Azərbaycnın görkəmli təsviri sənət nümayəndələrini (Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini sadalayır.

**2.Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1.Təsviri sənət üzrə zəruri sadə təsvir alətlərindən istifadə bacarıqları nümayiş etdirir.***

2.1.1. Sadə təsvir alətlərindən (karandaş, qələm, fırça, flamaster, kömür) təyinatına görə istifadə edir.

2.1.2. Sadə bədii ifadə vasitələrindən (xətt, cizgi, ton) istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir.

2.1.3. Əsas rəngləri tanıyır, onları sadalayır.

2.1.4. Sadə və rəngli karandaşlarla səthi təsvir yaradır.

***2.2. Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2.2.1. Müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar cəkir, plastik materialdan sadə fiqurlar düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar qurur.

**3. Estetik reaksiya**

**Şagird:**

***3.1. Verilmiş sadə təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.***

3.1.1. Verilmiş sadə formalı təsvir və əşyaları şərh edir.

3.1.2. Verilmiş əsərlərdə rəng çalarlarını ayırır və adlandırır.

**II sinif**

**II sinfin sonunda şagird:**

- təsviri və dekorativ sənətin əsas növ və janrlarını fərqləndirir;
- Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrini (Mirzə Qədim İrəvani, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Cəlal Qaryağdı) ən məşhur əsərlərini sadalayır;
- sadə bədii təsvir (rəngli kağız, karton) və ifadə (forma, rəng, işıq-kölgə) vasitələrindən istifadə etməklə rəngli təsvirlər yaradır;
- sadə həndəsi fiqurlardan ritmik dekorativ kompozisiya qurur;
- verilmiş sadə əşyaları məzmun və formasına, rəsm əsərlərini rəng çalarlarına görə izah edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri və dekor sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.***

1.1.1. Təsviri sənət növ və əsas janrlarını (animalist, mənzərə, natürmort) sadalayır.

1.1.2. Dekorativ-tətbiqi sənətin əsas növlərini (tikmə, zərgərlik, dulusçuluq) nümunələrə görə fərqləndirir.

1.1.3. Azərbaycnın görkəmli təsviri sənət nümayəndələrini (Mirzə Qədim İrəvani, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Cəlal Qaryağdı) və onların ən məşhur əsərlərini tanıyır.

**2. Təsviri və dekorativ yaradıcılıq**

***2.1. Təsviri sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir.***

2.1.1. Təsvir alətləri (sadə və rəngli karandaşlar, flamasterlər) vasitəsilə sadə təsvirlər yaradır.

2.1.2. Sadə bədii ifadə vasitələrindən (rəng, işıq-kölgə, həcm) istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir.

2.1.3. Sadə əşyaları nisbi dəqiqliklə təsvir edir.

2.1.4. Əsas rənglərdən alınmış çalarları adlandırır.

***2.2. Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2..2.1. Sadə materiallardan (rəngli kağız, karton, parça, təbiət materialları) həndəsi fiqurlardan və təbiət formalarından ritmik, dekorativ kompozisiya tərtib edir.

**3. Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.***

3.1.1. Verilmiş sadə təsvirləri, əşyaları məzmun və forma baxımından şərh edir.

3.1.2. Verilmiş əsərdə rəng çalarlarını izah edir.

## III sinif

**III sinfin sonunda şagird:**

- təsviri və dekorativ sənətin növ və janrlarını nümunələrə görə fərqləndirir;
- Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (Qəzənfər Xalıqov, Ələkbər Rzaquliyev, Tokay Məmmədov, Lətif Kərimov, Toğrul Nərimanbəyov) və onların ən məşhur əsərlərini fərqləndirir;
- rənglərdən və bədii ifadə vasitələrindən istifadə edərək sadə təsviri və dekorativ kompozisiyalar qurur;
- sadə dekorativ kompozisiyaları məişət predmetlərinə tətbiq edir;
- verilmiş sadə və mürəkkəb əşyaları, məzmun və formasına, rəsm əsərlərində rəngləri emosional məna çalarlarına görə şərh edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri və dekor sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.***

1.1.1. Təsviri incəsənətin növ və janrlarını (portret, məişət) nümunələr əsasında fərqləndirir

1.1.2. Dekorativ-tətbiqi sənətin əsas növlərini (ağac üzərində oyma, keramika, metal üzərində döymə) nümunələrə görə fərqləndirir.

1.1.3.Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (Qəzənfər Xalıqov, Ələkbər Rzaquliyev, Tokay Məmmədov, Lətif Kərimov, Toğrul Nərimanbəyov) və onların ən məşhur əsərlərini fərqləndirir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1.Təsviri sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir.***

2.1.1. Təsvir alətləri (rəngli karandaşlar, flomaster və sulu boyalar) vasitəsilə sadə təsvirlər yaradır.

2.1.2. Təsviri və dekorativ kompozisiyalarda bədii ifadə vasitələrindən (kolorit, ton, siluet) istifadə bacarıqları nümayiş etdirir.

2.1.3. Sadə üçölçülü əşyaları naturadan nisbi dəqiqliklə təsvir edir.

2.1.4. Rənglərdən istifadə edərək sadə kompozisiyalar qurur.

***2.2. Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2.2.1. Sadə dekor (bəzək) kompozisiyaları məişət predmetlərinə tətbiq edir.

**3. Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.***

3.1.1. Verilmiş sadə və mürəkkəb əşyaları məzmun və forma baxımından şərh edir.
3.1.2. Verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə şərh edir.

## IV sinif

**IV sinfin sonunda şagird:**

- təsviri və dekorativ sənətin növ və janrlarına aid kiçik təqdimatlar edir;
- Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (Salam Salamzadə, Elbəy Rzaquliyev, Cəfər Müciri, Tahir Salahov, Ömər Eldarov) və onların ən məşhur əsərlərini fərqləndirir;
- əşya və hadisələri praktik yolla təsvir edir;
- əşyaların xarici səthində bəzək kompozisiyaları yaradır;
- real əşya və hadisələri mücərrəd formada təsvir edir;
- verilmiş əşyanın məzmun və forması arasındakı əlaqəni şərh edir, rəsm əsərindəki rəngləri emosional məna çalarlarına görə müqayisə edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri və dekorativ sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.***

1.1.1. Təsviri və dekorativ sənət növlərini əsas xüsusiyyətlərinə görə şərh edir.
1.1.2. Təsviri və dekorativ sənətin növ və janrları barədə kiçik təqdimatlar edir.
1.1.3. Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (Salam Salamzadə, Elbəy Rzaquliyev, Cəfər Müciri, Tahir Salahov, Ömər Eldarov) və onların ən məşhur əsərlərini fərqləndirir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1. Təsviri sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqları nümayiş etdirir.***

2.1.1. Fırçadan istifadə etməklə sulu boyalar (akvarel və quaş) vastəsilə sadə təsvirlər, dekorativ kompozisiyalar yaradır.

2.1.2. Bədii ifadə vasitələrindən istifadə etməklə sadə təsvirlər və dekorativ kompozisiyalar yaradır.

2.1.3. Sadə üçölçülü əşyaları naturadan və yaddaşdan nisbi dəqiqliklə təsvir edir.

2.1.4. Əşya və hadisələri praktik yolla təsvir edir.

***2.2. Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2.2.1. Müxtəlif əşyaların xarici səthində bəzək kompozisiyaları yaradır.

2.2.2. Real əşya və hadisələri mücərrəd formada təsvir edir.

**3. Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir***.

3.1.1. Verilmiş əsərlərdə və əşyalarda məzmun və forma arasındakı əlaqəni şərh edir.

3.1.2. Verilmiş əsərlərdə rəngləri emosional məna çalarlarına görə müqayisə edir.

## V SİNİF

**V sinfin sonunda şagird:**

- Təsviri incəsənətin həyat hadisələrini əks etdirdiyini izah edir.
- Təsviri və dekorativ sənətin növ və janrlarını (qrafika, rəngkarlıq, heykəltəraşlıq) xarakterik xüsusiyyətlərinə görə şərh edir.
- Azərbaycanın, dünya təsviri incəsənətinin görkəmli nümayəndələri (Məsud İbn Davud, Soltan Məhəmməd, Elmira Şahtaxtinskaya, İbrahim Zeynalov, Qriqori Qaqarin, Sandro Botiçelli, Donatello, Paolo Uccello) və onların əsərləri haqqında məlumatları şərh edir.
- Müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri təsviri sənətin növlərində (qrafika, rəngkarlıq, heykəltəraşlıq) real və abstrakt tərzdə təsvir edir.

- Sadə əşyalar üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.
- Təsviri sənət növlərini ayırır, milli-üslubi cəhətini nümunələr əsasında estetik-emosional hisslərə görə izah edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

1. **Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri incəsənətin cəmiyyətin həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

1.1.1. Təsviri incəsənətin həyat hadisələrini əks etdirdiyini izah edir.

***1.2. Təsviri və dekorativ sənətin növ və janrlarına aid bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1.Təsviri sənətin növlərinin (qrafika, rəngkarlıq, heykəltəraşlıq) xarakterik xüsusiyyətlərini şərh edir.

1.2.2. Dekorativ sənət növlərini (xalçaçılıq, bədii tikmə, ağac üzərində oyma) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

***1.3. Azərbaycanın, dünya təsviri incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələrinin (Məsud İbn Davud, Soltan Məhəmməd, Elmira Şahtaxtinskaya, İbrahim Zeynalov, Qriqori Qaqarin, Sandro Botiçelli, Donatello, Paolo Uccello) və onların əsərləri haqqında məlumatları şərh edir.

2. **Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1. Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.***

2.1.1. Həyati görüntüləri rəngkarlıq, qrafika, heykəltəraşlıq növlərində real və abstrakt tərzdə təsvir edir.

2.1.2. Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (kömür, sulu boya, plastilin və ya gil) istifadə edir.

***2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2.2.1. Sadə əşyaların üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3 . Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələri estetik-emosional münasibət bildirir.***

3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik imkanlarına görə izah edir.

3.1.2. Təsviri sənət növlərini ayıraraq emosional təsir xüsusiyyətlərini izah edir.

## VI SİNİF

**VI sinfin sonunda şagird:**

- təsviri incəsənətin cəmiyyət həyatındakı rolunu izah edir.
- təsviri və dekorativ sənətin növ və janrlarını (natürmort, mənzərə, portret) bədii xüsusiyyətlərinə görə şərh edir.
- Azərbaycanın, dünya təsviri incəsənətinin görkəmli nümayəndələri (Əcəmi Əbubəkir oğlu Naxçıvani, Sadiq bəy Əfşar, Vəcihə Səmədova, Lətif Kərimov, Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürer, Memar Sinan) və onların əsərləri haqqında məlumatları şərh edir.
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri təsviri sənətin janrlarında (natürmort, mənzərə, portret) real və abstrakt tərzdə təsvir edir.
- məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.
- təsviri sənətin janrlarını ayırır, milli-üslubi cəhətini estetik-emosional hislərə görə izah edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

1. **Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

**1.1.1.**Təsviri incəsənətin cəmiyyət həyatındakı rolunu şərh edir.

***1.2. Təsviri və dekorativ sənətin növ və janrlarına aid bilik və bacarıqlar nümayiş etdirir.***

**1.2.1.** Təsviri incəsənətin növ və janrlarını (natürmort, mənzərə, portret) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

**1.2.2.** Dekorativ sənət növlərini (metal üzərində döymə, keramika, zərgərlik) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

***1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

**1.3.1.** Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Əcəmi Əbubəkir oğlu Naxçıvani, Sadiq bəy Əfşar, Vəcihə Səmədova, Lətif Kərimov, Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürer, Memar Sinan) və onların əsərləri haqqında məlumatları şərh edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1. Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.***

**2.1.1.** Həyati görüntüləri natürmort, mənzərə, portret janrlarında real və abstrakt tərzdə təsvir edir.

**2.1.2.** Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (pastel tabaşirləri, sulu boya, plastilin və ya gil) istifadə edir.

***2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

**2.2.1.** Məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3 . Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.***

**3.1.1.** Bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir.

**3.1.2.** Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir.

## VII SİNİF

**VII sinfin sonunda şagird:**

- təsviri incəsənətin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir.
- təsviri və dekorativ sənətin növ və janrlarını (məişət və əsatir) xüsusiyyətlərinə görə şərh edir.
- Azərbaycanın və dünyanın təsviri incəsənətinin görkəmli nümayəndələri (Müzəffər Əli, Kamil Əliyev, Mirəli Mirqasımov, Rasim Babayev, İlya Repin, Rembrandt, Velaskes, Karavacco) və onların əsərləri haqqında məlumatları şərh edir.
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri incəsənətin müxtəlif növündə (dizayn, milli geyimlər, bədii hörmə) real və abstrakt tərzdə təsvir edir.
- müxtəlif texniki avadanlıqlar üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.
- təsviri sənətin növ və janrlarında milli-üslubi cəhətləri estetik-emosional hisslərə görə fərqləndirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

**1.1.1.** Təsviri incəsənətin cəmiyyətin həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir.

***1.2 Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

**1.2.1.** Təsviri sənətin növ və janrlarını (məişət və əsatir) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

**1.2.2.** Dekorativ sənət növlərini (milli geyimlər, bədii hörmə) xarakterik xüsusiy-yətlərinə görə şərh edir.

***1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsər-lərinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

**1.3.1.** Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Müzəffər Əli, Kamil Əliyev, Mirəli Mirqasımov, Rasim Babayev, İlya Repin, Rembrandt, Velaskes, Karavacco) və onların əsərləri haqqında məlumatları şərh edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1. Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.***

**2.1.1.** Həyati görüntüləri məişət, əsatir janrlarında real və abstrakt tərzdə təsvir edir.

**2.1.2.** Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (tuş, sulu boya və ya qarışıq texnika, plastilin və ya gil) istifadə edir.

***2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

**2.2.1.** Müxtəlif texniki avadanlıqlar üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3 . Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.***

**3.1.1.** Bədii sənət əsərlərində milli-üslubi cəhətləri (forma, ritm, rəng çalarları) estetik xüsusiyyətlərinə görə fərqləndirir.
**3.1.2.** Təsviri sənətin növ və janrlarını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir.

## VIII SİNİF

**VIII sinfin sonunda şagird:**

- Azərbaycan təsviri incəsənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi şərh edir.
- təsviri və dekorativ sənətin növ və janrlarını (tarixi, batal) xüsusiyyətlərinə görə şərh edir.
- Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, Eldar Mikayılov, Fuad Əbdürrəhmanov, Tokay Məmmədov, Sadıq Dadaşov, Jan Ogüst Dominik Enqr, Ejen Delakrua, Fransisko Qoyya, Van Qoq, Jak Lui David, Eduard Mane, Klod Mone, Ogüst Renuar, Pol Qogen, Anri Matis, Ogüst Roden) və onların əsərləri haqqında təqdimat edir.
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri incəsənətin müxtəlif növlərində (misgərlik, şəbəkə, qarışıq texnika) real və abstrakt tərzdə təsvir edir.
- geyim və nəqliyyat vasitələri üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.
- bədii sənət əsərlərinin milli-üslubi cəhətlərini estetik-emosional hisslərə görə müqayisə edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

1. **Cəmiyyət və təsviri incəsənət**

   **Şagird:**

***1.1. Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

1.1.1. Azərbaycan təsviri incəsənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir.

***1.2. Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1. Təsviri sənətin növ və janrlarını (tarixi, batal) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

1.2.2. Dekorativ sənət növlərini (misgərlik, şəbəkə, qarışıq texnika) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

***1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, Eldar Mikayılov, Fuad Əbdür-rəhmanov, Tokay Məmmədov, Sadıq Dadaşov, Jan Ogüst Dominik Enqr, Ejen Delakrua, Fransisko Qoyya, Van Qoq, Jak Lui David, Eduard Mane, Klod Mone, Ogüst Renuar, Pol Qogen, Anri Matis, Ogüst Roden) və onların əsərləri haqqında təqdimat edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1. Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.***

2.1.1. Həyati görüntüləri tarixi, batal janrlarda real və abstrakt tərzdə təsvir edir.

2.1.2. Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (tuş, sulu boya, qarışıq texnika və ya yağlı boya, plastilin, gil və ya gips) istifadə edir.

***2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2.2.1. Geyim əşyaları və nəqliyyat vasitələri üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3 . Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.***

3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqayisə edir.

3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir.

## IX SİNİF

**IX sinfin sonunda şagird:**

- müasir Azərbaycan və dünya təsviri incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.
- təsviri və dekorativ sənətin növ və janrlarını (karikatura, şarj, tematik) xüsusiyyətlərinə görə şərh edir.
- Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Tahir Salahov, Ömər Eldarov, Cavad Mircavadov, Mikayıl Hüseynov, Fərhad Xəlilov, Arif Hüseynov, Sakit Məmmədov, Fazil Nəcəfov, Pol Sezann, Pablo Pikasso, Salvador Dali, Vasili Kandinski, Naum Qabo, Paul Klee, Joan Miro, Henri Spenser Mur, Alberto Cakometti) və onların əsərləri haqqında təqdimat edir.
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri incəsənətin müxtəlif növlərində (kompüter qrafikası) real və abstrakt tərzdə təsvir edir.
- memarlıq və inşaat tikililəri üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.
- bədii sənət əsərlərinin milli-üslubi cəhətlərini estetik-emosional hislərə görə dəyərləndirir, təqdimatlar edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Cəmiyyət və təsviri incəsənət**

**Şagird:**

***1.1. Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

1.1.1. Müasir Azərbaycan və dünya incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.

***1.2. Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1. Təsviri sənətin növ və janrlarını (karikatura, şarj, tematik) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

1.2.2. Dekorativ sənət növlərini və kompüter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh edir.

***1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Tahir Salahov, Ömər Eldarov, Cavad Mircavadov, Mikayıl Hüseynov, Fərhad Xəlilov, Arif Hüseynov, Sakit Məmmədov, Fazil Nəcəfov, Pol Sezann, Pablo Pikasso, Salvador Dali, Vasili Kandinski, Naum Qabo, Paul Klee, Joan Miro, Henri Spenser Mur, Alberto Cakometti) və onların əsərləri haqqında təqdimatlar edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

**Şagird:**

***2.1. Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.***

2.1.1. Həyati görüntüləri karikatura, şarj, tematik janrlarda, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt tərzdə təsvir edir.

2.1.2. Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (tuş, kömür, sulu boya, qarışıq texnika və ya yağlı boya, plastilin, gil yaxud ağac), yaxud qrafik redaktordan istifadə edir.

***2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.***

2.2.1. Memarlıq və inşaat tikililəri üzərində bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3 . Estetik reaksiya**

**Şagird:**

***3.1. Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.***

3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir.

3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.

## 1.6. Fəndaxili və fənlərarasi inteqrasiya

"Ümumi təhsil pilləsində dövlət standartları və proqramları (kurikulumları)" sənədi və onun əsasında hazırlanmış təsviri incəsənət kurikulumu fəndaxili və fənlərarası əlaqələrin geniş tətbiqini nəzərdə tutur. Ümumi təhsilin pillələri və bu pillələrdə tədris olunan fənlər arasında əlaqələrin təmin edilməsi üçün təsviri incəsənət təlimində fənlərdaxili və fənlərarası inteqrasiyadan istifadə olunması zəruri bir vəzifə kimi qarşıya qoyulmuşdur.

**İnteqrasiya** - ***müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir.***

**Fəndaxili inteqrasiya** – müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi – fənn daxilindəki faktların sistemləşdirilməsidir. Belə səviyyədə inteqrasiyanı verilmiş materialın ayrı-ayrı tədris vahidlərində cəmləşdirilməsi də hesab etmək olar. Bu isə son nəticədə fənnin məzmununun, strukturunun dəyişdirilməsinə gətirib çıxarır. Bu mənada, inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, şagirdlərin daha əhatəli kateqoriyalarla düşünmə bacarıqları formalaşdırmalarına kömək edir. Ümumtəhsil pillələrindəki fənlərin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluş daha xarakterikdir.

Bu cür inteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə və yaxud ümumidən xüsusiyə doğru ola bilər. Beləliklə, məzmun get-gedə yeni məlumatlarla zənginləşir, mövzulararası bağlılıqlarla daha maraqlı hala gəlir. Bu formanın üstün xüsusiyyəti ondan ibarətdir ki, şagirdlər başlanğıc problemi diqqətdən qaçırmadan onunla bağlı olan bilik və bacarıqları daha da genişləndirir və dərinləşdirirlər.

Fəndaxili inteqrasiya həm üfüqi, həm də şaquli ola bilər.

**Fənlərarası inteqrasiya** – iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq və prinsiplərin sintezidir. Bu inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrədilməsində istifadəsini nəzərdə tutur.

Məzmunun bu modelə uyğun sistemləşdirilməsi şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının yaradılması ilə yanaşı, həm də ümumelmi anlayışlar, kateqoriyalar və yanaşmalarla xarakterizə olunan yeni tip biliklərin formalaşdırılmasına təkan verir. Müxtəlif fənlərə aid oxşar və bir-birini tamamlayan mövzular elə planlaşdırılır və tədris olunur ki, müəyyən bir çərçivə yaranır, yəni onlar eyni vaxtda tədris olunur.

Fəndaxili və fənlərarası inteqrasiya prinsipinə istinad olunması təsviri incəsənət fənni üzrə şagirdlərin dünyagörüşünü genişləndirir, bu sahədə əldə etdkləri zəruri bilik və bacarıqların müxtəlif sahələrdə tətbiqi yollarını asanlaşdırır, şagirdlərdə təsəvvürü, təxəyyülü, təfəkkürü inkişaf etdirərək həyati bilik və bacarıqların əldə olunmasına və təkmilləşdirilməsinə şərait yaradır. Həyatın rəngarəngliyi və çalarları təsviri incəsənət fənninin daxili imkanları hesabına və digər fənlərlə əlaqədə daha aydın dərk olunur.

Təsviri incəsənət kurikulumu bilik və bacarıqların fənlər vasitəsi ilə təşkil olunmuş konsepsiyasına əsaslanır. Bu yanaşmaya görə şagird məktəbdə tədris olunan fənlər vasitəsi ilə müxtəlif sahələr üzrə müəyyənləşdirilmiş məzmunu öyrənməli və tətbiq etməyi bacarmalıdır. Təsviri incəsənət fənni inteqrativ kurikulumu aşağıdakı səciyyəvi xüsusiyyətlərə malikdir:

-təlimin fəal, cəlbedici və əyləncəli olması;

- ayrı-ayrı hissələrə bölünməməsi;

-məzmununun sadə, əhatəli və anlaşıqlı olması;

-fənlərinin sayının çox olmaması (iki, üç və dörd fənn);

-eyni konsepsiyanın iki müxtəlif fəndə öyrənilməsi;

-təlimin müxtəlif mərhələlərinin əlaqələndirilməsi (şaquli inteqrasiya);

-təlimin milli və ümumbəşəri dəyərlərə əsaslanması;

-yüksək nailiyyət səviyyəsinin və intellektual bacarığın inkişafının situmullaşdırılması.

Belə bir cəhəti də unutmaq olmaz ki, təsviri incəsənət fənninin məzmunu inteqrativdir. Təsviri incəsənətin inkişafı ibtidai icma dövründən başlayaraq, olduqca zəngin inkişaf yolu keçmişdir. Müxtəlif dövrlərdə yaradılmış milli və ümumbəşəri dəyəri olan sənət nümunələrinin təsviri incəsənət tarixinin və sənətkarlığın müxtəlif fənlərdə öyrənilməsi fəndaxili və fənlərarası inteqrasiya prinsipinin gözlənilməsi üçün geniş imkanlar yaradır. Buna görə də təsviri incəsənət fənninin hər mərhələsində şaquli və üfiqi inteqrasiya gözlənilməlidir. Bu, şagirdlər tərəfindən fənnin məzmununun mənimsənilməsinin zəruri şərtlərindəın biridir. Təsviri incəsənət fənninin tədrisində iki tip inteqrasiya tətbiq etmək məqsədəuyğundur:

1) Fəndaxili (üfüqi, şaquli) inteqrasiya.
2) Fənlərarası inteqrasiya.

Təsviri incəsənət fənninin təlimində fəndaxili və fənlərarası inteqrasiya nəzərə alınarkən aşağıdaki fəaliyyətlər əsas götürülür:

- **yaradıcılıq** – şagirdlərdə potensial yaradıcılıq imkanlarının aşkarlanmasını təmin edən, təlim prosesində inteqrasiyanı nəzəri və praktik baxımdan reallaşdıran daha geniş yaradıcılığa yönəlmiş fəaliyyət;
- **əməkdaşlıq** – təsviri incəsənətdə sosial bilik və bacarıqların, mənəvi dəyərlərin formalaşdırılmasını təmin edən birgə fəaliyyət;
- **motivasiya** – təsviri incəsəsənət üzrə bilik və bacarıqların real həyati situasiyalarla bağlılığını nəzərə alan və həyatda tətbiqini təmin edən, ən başlıcası isə, şagirdlərin təlim marağına söykənən fəaliyyət;

- **əlaqələndirmə** – təsviri incəsənət və digər fənlər arasındakı əlaqələri, müvafiq mövzuları daha əhatəli dərk etməyə yönəlmiş fəaliyyət.

**Fənlərüstü (transfənn) inteqrasiya** – inteqrasiyanın ən yüksək səviyyəsi olmaqla özündə təlimin əhatə etdiyi əsas və əlavə məzmun komponentlərinin sintezini ehtiva edir. Yəni bu inteqrasiya ilə şagirdlərin məktəbdə öyrəndikləri biliklərlə məktəbdən kənar vaxtlarda aldıqları bilik sintez edilir.

İnteqrasiyanın belə səviyyəsi, şəbəkəsi getdikcə artmaqda olan məktəb-komplekslərilə yanaşı, həm də təhsil paradiqmalarının dəyişməsi və yeni nəslin icmalarda formalaşdırılması ideyasını tələb edir. Belə məktəblərdə dərs gününün məzmunu şagird üçün vahid təlim prosesi kimi qurulur.

a) Fəal təlim ***şagirdyönümlüdür*** – belə ki, ilk növbədə şagirdin maraq və ehtiyacları, onun potensial imkanları nəzərə alınır, təlim prosesi şagirdlərin maraq və tələbatlarına uyğunlaşdırılır. Dərsin məzmununda şagirdləri maraqlandıran, düşündürən nəzəri və praktik məlumatlar verilməklə şagird təhsil prosesində mərkəz mövqeyə gətirilir.

b) Fəal təlim ***tədqiqatyönümlüdür*** – şagirdlər özlərinə lazım olan məlumatları müxtəlif mənbələrdən, dərslik, kitabxana, praktik təcrübə, İKT-dən istifadə etməklə əldə edirlər və onları ümumiləşdirir, müqayisə edir, eləcə də yaşadığı mühitə dair məlumatlar əlavə edir.

c) Fəal təlim - ***inkişafyönümlüdür*** - şagirdin özünün müstəqil olaraq məlumatı əldə etməsinə, təcrübə qoymasına, təhlil aparmasına, ətraf aləmi müşahidə etməsinə, alınan məlumatları sərbəst şəkildə təqdim edə bilməsinə əsaslanır.

d) Fəal təlim üçün ***çeviklik – çəldlik*** prinsipi səciyyəvidir. Şagirdlər əldə etdikləri bilik və bacarıqları daha tez tətbiq etməklə, müxtəlif sahələrdə bədii yaradıcılıqla məşğul olmaq imkanı əldə edir, müxtəlif vasitələrlə təsvirlər yaradır və onu gündəlik həyata tətbiq edirlər.

e) Fəal təlim «müəllim–şagird» «şagird–şagird» ünsiyyətinə əsaslanır, onlar dərsin məzmununu zənginləşdirmək üçün «intervülər» götürmək, müşahidəçi olaraq sorğular keçirmək, milli və ümumbəşəri mədəni dəyərlər, ən məşhur sənətkarlıq nümunələri haqqında münasibət bildirmək qabiliyyətlərini inkişaf etdirməlidirlər.

f) Fəal təlim ***«birgə təlim»*** prinsipinə əsaslanır. Məsələlərin birgə həll edilməsi, böyük və kiçik qruplarda aparılan iş bölgüsü, problemlərin həllində birgə cavabdehlik ekskursiya və gəzintilərdə, eləcə də sinifdə müxtəlif məzmunlu tapşırıqların yerinə yetrilməsində şagirdlərin birgə iştirakı tələb olunur ki, bu da onların arasında əməkdaşlığı, ünsiyyət qurma qabiliyyətini inkişaf etdirir.

**Fəal təlimə əsaslanan dərsi təşkil etmək üçün tələb olunan vasitələr aşağıdakılardır:**

1. Sinifdə tədris olunan mövzunun öyrədilməsindən əvvəl mövzunun məqsədini, aktuallığını üzə çıxarmaq, problemin öyrənilməsi zərurətini mərkəz mövqeyə gətirmək və bunun üçün ***problemli vəziyyətin*** yaradılmasıdır. Problemli vəziyyətin gərginlik dərəcəsi müəllimin fantaziyasından, peşəkarlığından, şagirdlərlə ünsiyyət qurmaq bacarığından, vəziyyətdən çıxmaq üçün çevik manevr etmə cəhdlərindən, sərbəstliyindən, işgüzarlığından və s. şəxsi keyfiyyətlərindən asılıdır. Problemli vəziyyəti yaratmaqda müəllimin məqsədi şagirdlərin idrakı fəallığını artırmaq, tədris olunan fənnə və öyrəniləcək dərsin məzmununa maraq yaratmaq, şagirdin müstəqil tədqiqat və axtarış aparmaq üçün açılan imkanı qiymətləndirmək həvəsini oyatmaqdır.

Problemli vəziyyətin düzgün həyata keçilməsinin əhəmiyyəti şagirdi:

1. ***Təyinetmə*** – öyrəniləcək yeni mövzunun həyati əhəmiyyətinin müəyyən edilməsi; ***öyrənmə*** – problemin həll edilməsi üçün aparılacaq tədqiqatların təhlil edilməsi; ***düşünmə*** – öyrənilən mövzunun tətbiq etməsi, ümumiləşdirilməsi və müqayisə edilməsi qabiliyyətlərini müşahidə etməyə və qiymətləndirməyə istiqamətləndirir.

2. **Əməkdaşlıq** və **qarşılıqlı dialoqun** həyata keçirilməsi «problemin qoyulması» – «müzakirəsi» – «nəticənin cıxarılması» – «tətbiq edilməsi» mərhələlərini əhatə edir. Bu anlayış «öyrənən və öyrədən» arasında qarşılıqlı dialoqun zəruriliyini tələb edir. İndiyədək mövcud olmuş «monoloji» təlimdə şagirdlərin mövqeyi nəzərə alınmadığından, müzakirə edilən məsələyə dair onların fərziyyə və baxışları diqqətdən kənarda qalmışdır. «Dialoji təlim» isə problemin həlli

üçün optimal üsulların tapılmasını, dərs prosesində müəllim və şagirdin eyni səviyyədə fəallığını tələb edir.
3. Fəal təlimin əsas şərtlərindən biri **şagirdin – tədqiqatçı** (axtarış aparan), **müəllimin** isə – **istiqamətləndirici, fasilitator** mövqeyinə malik olmasıdır. Qarşılıqlı dialoqa əsaslanan dərs prosesi müəllimə şagirdi bərabərhüquqlu öyrənən subyekt kimi qəbul etməyə əsas verir. Bu prosesdə şagirdin abstrakt-məntiqi düşünmə qabiliyyəti (nəzəri bilikləri), konkret məntiqi fəaliyyətə münasibəti, yeni ideyaları qəbul etməsi (yaradıcı), başqa insanlarla ünsiyyət yaratmaq qabiliyyəti, biliklərin mənimsənilməsində əvvəlki nümunələrdən istifadə etmək bacarığı (reproduktiv), müstəqil qərar çıxarmaq bacarığı və s. fasiltator – müəllimin diqqətindən kənarda qalmamalıdır.

Başqa sözlə, bu prosesdə ***şagirdin mövqeyi*** «axtarış aparan» «tədqiqatçı» mövqeyidir. Belə ki, şagird qarşılaşdığı problemləri sərbəst və müstəqil şəkildə tədqiqat yolu ilə həll edir, verilən suallar əsasında araşdırılan problemin istiqamətini müəyyən edir, müqayisə edir, nəticə çıxarır, təsvir olunmuş əşya və hadisələrin xüsusiyyətlərini təhlil edir, onların təsviri üçün materialları, təsvir üsullarını və vasitələrini müəyyənləşdirir.

***Müəllimin mövqeyi*** isə istiqamət verən – bələdçi (fasilitator) rolundadır. Müəllim şagirdin tədqiqatı müstəqil aparması üçün optimal şərait yaradan, əslində, yeni ən müasir tipli lider rolunda çıxış edir. Əslində şagirdi müşahidə edərək onunla birgə fəaliyyət göstərir, avtoritar rejimdən uzaqlaşaraq özünü şagirddən yüksəkdə tutmur, diqtə etmir, əksinə, şagirdlə məqsədyönlü şəkildə əməkdaşlıq edir, biliklərin mənimsənilməsi üçün istiqamət verir, şagirdin axtarıcılıq fəaliyyətini düzgün istiqamətə yönəldir, biliklərin tətbiq edilməsi üçün şagirdə praktik olaraq kömək edir, bir sözlə şagirdə öyrənməyi öyrədir.

Beləliklə, **müəllimin** dərsin məzmununa dair bilik və bacarıqların qazanılması yolunda **bələdçi**, **şagirdin** isə bilikləri, bacarıqları əldə etmək üçün **tədqiqatçı** rolunda çıxış etməsi ***mexanizmi*** fəal təlim prosesində müəllim işinin mahiyyətinə ənənəvi təlimdən çox fərqli olan yeni istiqamət verir:
Fasilitator kimi müəllim:

1. Problem şəkilində suallar qoymaqla şagirdləri fəallaşdırır, diskussiya yaradır.
2. Biliklərin müəllim tərəfindən hazır şəkildə ötürülməsinə deyil, şagirdlər tərəfindən aşkar edilməsinə şərait yaradır.
3. Şagirdin problemə dair düşüncəsini lazımı məcraya yönəldir və inkişaf etdirir.
4. Şagird ehtiyaclarını öyrənir və onun potensial imkanlarının üzə çıxmasına nail olur.
5. Fəal təlim üçün tələb olunan şərtlərdən biri ***psixoloji dəstək mühitinin*** lazımı səviyyədə saxlanılmasıdır. Dərs prosesində müəllim və şagird arasında qarşılıqlı hörmət, bir-birinə etibar, inamın zəruriliyi vacib şərtlərdir. Bunun üçün müəllimdən hər bir şagirdi özünə yaxın dost, hörmətli şəxsiyyət kimi qəbul etmək, sinifdə mövcud olan mühiti həssaslıqla duymaq qabiliyyəti tələb olunur. Şagirdlər dərs prosesində müzakirə zamanı irəli sürdükləri fikirlərin hörmətlə qarşılanacağına, ciddi qəbul ediləcəyinə inanmalı, uğursuzluğun qorxusundan xilas olmalıdırlar. Müəllim sinifdə psixoloji mühiti elə yaratmalıdır ki, şagirdlər müstəqil şəkildə öz fikirlərini irəli sürsünlər, ideyalarını əsaslandırsınlar. Onların əhəmiyyətini, tətbiq edilməsi yollarını təyin etməkdə və eləcə də müxtəlif təsvirlər üzərində işləməkdə, fərdi qabiliyyətlərini, bacarıqlarını, layihələrini təqdim etməkdə sərbəst olsunlar.

Dünya təcrübəsi göstərir ki, fəal (interaktiv) təlim metodu dərsin keyfiyyətini artırmağın təsirli vasitəsi olmaqla şagirdlər üçün təlim prosesini daha maraqlı və cəlbedici edir. Fəal təlim həm məzmunun öyrənilməsini, həm də tətbiqin səmərəliliyini artırırmaqla şagirdlərin dərketmə qabiliyyətini daha çox fəallaşdırır.

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal təlim metodlarından istifadə edilməsi qaçılmazdır. Çünki fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur.

Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşma olmaqla, şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə zənginləşməsinə deyil,

həm də yaradıcı təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bilik, bacarıq, vərdiş, keyfiyyət və dəyərin əldə olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər.

Beləliklə, şagirdlər həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

Fəal/interaktiv təlim metodlarının xarakterik xüsusiyyətləri:

1. Diqqət ilk növbədə şagird şəxsiyyətinin formalaşdırılmasına yönəldilir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagird fəal tədqiqatçı olur.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.
5. Müəllim–şagird, şagird–şagird arasında əməkdaşlıq üçün şərait yaranır.
6. Dərsin inteqrativ təşkilinə üstünlük verilir.
7. Qeyri-standart dərslərin təşkilinə geniş yer verilir.

**Fəal–interaktiv dərsin ümumi quruluşu:**

**Dərsin I mərhələsi: Motivasiya, problemin qoyulması**

Hər bir tədqiqatı başlamaq üçün ilk növbədə problem müəyyənləşdirilməlidir. Problem şagirdlərin yaş səviyyəsinə uyğun, cəlbedici, maraqlı olmaqla yanaşı, onlarda çoxsaylı fərziyyələr, ehtimallar doğurmalı və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualını formalaşdırılmalıdır. Məhz tədqiqat sualı yeni biliklərin kəşfinə aparan, bələdçi rolunu oynayır.

Nəzərə almaq lazımdır ki, psixoloji amil kimi motivasiya hər hansı fəaliyyət mexanizmini işə salan sövqedici qüvvədir. Motivasiya qismində ortaya

gətirilmiş problem və onun həlli tələbatı fəal dərsdə təfəkkür prosesini izləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran amil kimi çıxış edir.

Motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərə əməl olunması tövsiyə edilir:

- motivasiya üçün seçilən material maraqlı olmalıdır;
- fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməlidir;
- müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələr irəli sürərkən onları həvəsləndirməlidir;
- tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirməli və dərsin məqsədinə yönəldilməlidir.

**Dərsin II mərhələsi: Tədqiqatın aparılması:**

Problemin həlli üzrə irəli sürülən fərziyyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualını cavab verməyə kömək edə biləcək faktları tapmaq zərurəti ortaya çıxır. İrəli sürülmüş problemin həllinə şagirdləri məqsədyönlü şəkildə aparan, özündə yeni informasiyanı və yeni sualları daşıyan müxtəlif çalışmalar buna kömək etməlidir. Məhz yeni faktların öyrənilməsi və bu suallara cavabların tapılması şagirdlərə düşünmək və yeni bilikləri kəşf etmək üçün münasib şərait yaradır.

Tədqiqat müxtəlif formalarda: bütün siniflə birgə, kiçik qruplarda, cütlük şəklində və fərdi aparıla bilər. Tədqiqatın nəticələri aşağıdakı təqdimat formasında ümumiləşdirilməlidir.

- esselər, sxemlər, cədvəllər, qrafiklər;
- illüstrasiyalar, rəsm işləri, eskizlər;
- fiqurlar, maketlər, modellər, rəmzlər;
- layihələr, referatlar, krossvordlar və s.

**Dərsin III mərhələsi: İnformasiya mübadiləsi**

Bu mərhələdə iştirakçılar tədqiqatın gedişində əldə etdikləri informasiyaların mübadiləsini aparırlar. Qoyulmuş suallara cavab tapmaq zərurəti tədqiqatın

bütün iştirakçılarını biri-birinin təqdimatını diqqətlə dinləməyə sövq edir. Məhz bu mərhələdə yeni bir tələbat – yeni bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır.

**Dərsin IV mərhələsi: İnformasiyaların müzakirəsi və təşkili**

Bu mərhələnin mürəkkəbliyi aparılmış tədqiqatların məqsədə doğru yönlənməsini təşkil etməklə bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərində (məntiqi, tənqidi, yaradıcı) müzakirəsini tələb edir. Fasilitator suallardan istifadə etməklə (yönəldici, köməkçi) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edir. İnformasiyaların təşkili bütün faktlar əsasında ardıcıllığın, əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə verilmiş tədqiqat sualına cavab tədricən  aydınlaşır. Məlumat rəsm işi, illüstrasiya, eskiz, model, maket, fiqur, esse, sxem, qrafik, cədvəl, təsnifat formasında təşkil oluna bilər.

**Dərsin V mərhələsi: Nəticə, ümumiləşdirmə**

Beləliklə, yeni biliyinin kəşfi yolunda son addımı atmaq: konkret nəticəyə gəlmək və ümumiləşdirməni aparmaq işi qalır. Bunun üçün şagird  əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə irəli sürülmüş fərziyyələlərlə müstəqil tutuşdurmalıdır. Bu çox mühüm məqamdır. Dərsin kuliminasiyası şagirdlərin bilgiləri özləri kəşf etdikləri üçün duyduqları sevinc və məmnuniyyət hissi təşkil edir.

**Dərsin VI mərhələsi: Yaradıcı tətbiqetmə**

Bilik və bacarıqların mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə bilik və bacarığı möhkəmləndirməklə, şagirdə onun praktiki əhəmiyyətini açıb göstərir.  Buna görə müəllim şagirdlərə təklif edə bilər ki, onlar müəyyən tapşırıqların həlli üçün, yaxud hansısa yeni suala cavab tapmaq üçün qazanılmış bilik və bacarıqları tətbiq etməyə çalışsınlar. Son nəticədə şagirdlərə, onların kəşf etdikləri bilik və bacarıqların yaradıcı surətdə tətbiqinə dair çalışmaların verilməsi, həmin bilik və bacarıqların şagirdlərdə vərdişə, dəyərə, keyfiyyətə çevrilməsi ilə həmişəlik onların şüuruna

həkk edə bilər. Bu mərhələ vaxt etibarı ilə yalnız bir akademik dərs saatı ilə məhdudlaşdırılmaya da bilər, onun həyata keçirilməsi evdə yaxud, sonrakı dərslərdə də mümkündür.

**Dərsin VII mərhələsi: Qiymətləndirmə və ya refleksiya**

Qiymətləndirmə istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir prosesdir. Şagirdlərin təlim fəaliyyətini qiymətləndirmə və refleksiya prosesləri onların öz qüsurlarını və öz nailiyyətlərini aşkar etməyə, uğur qazanmalarına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirməyə xidmət etməlidir.

Buna görə, dərs başa çatdıqdan sonra yerinə yetirilmiş prosedurlardan birini qiymətləndirmək və refleksiyanı həyata keçirmək məqsədəuyğun olardı. Bəzən qiymətləndirmə və refleksiyanı dərsin müxtəlif mərhələlərinə daxil etmək olar, bunun özü də təlim prosesinin daha uğurla keçməsinə kömək edər.

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət və həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formada həyata keçirilir. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi rolunu oynamalıdır.

Fəal təlim üsulları ilə işləmək üçün müəllimin şəxsi keyfiyyətləri – təşkilatçılıq qabiliyyəti, fənnin xüsusiyyətlərindən irəli gələn nəzəri-praktik bilik və bacarıqlarının (bu zaman həm də digər fənlərə dair biliklər də nəzərdə tutulur) səviyyəsi və s. əsas şərtlərdəndir. Çünki fəal dərs qarşılıqlı əlaqədə olan müxtəlif amillər sisteminin birliyidir. Fəal təlim üsullarının uğurlu alınmasının başlıca amillərindən biri də üsulun hər bir dərsin məzmununa və mərhələsinə uyğun seçilməsidir.

Fəal təlim üsullarının aşağıda təqdim olunan nümunələrini dərs prosesinə tətbiq etmək üçün müəllimdən ustalıq, vəziyyətdən asılı olaraq lazım gəldikdə çeviklik nümayiş etdirməklə yeni əlavələr və ya ixtisarlar etmək, bütün bunları mövzunun daha asan mənimsənilməsinə istiqamətləndirməklə mövzuya uyğunlaşdırmaq və s. tələb olunur.

Təsviri incəsənət fənni üzrə təlimi şagirdlərin fəallığı şəraitində qurmaq üçün interaktiv metodlara müraciət olunur. Müəllim–şagird münasibətlərini müasir tələblər əsasında qurmaq, şagirdin ümumi inkişafını təmin etmək üçün müzakirələrin (əyani vasitələrdən istifadə etməklə), baxış sərgilərin keçirilməsi kimi üsullardan, eləcə də Beyin həmləsi, BİBÖ, Venn diaqramı, Şaxələndirmə (klaster), Diskussiya, Debat və s. bi kimi interaktiv metodlardan istifadə olunur.

«**Müzakirələr**» (diskussiyalar**)**

Müzakirə – seçilmiş mövzu və ya məsələ ətrafında müxtəlif ideyaların, məlumatların, təəssüratların, fərqli və oxşar cəhətlərin müqayisə edilməsi, termin, anlayış və ideyaların aydınlaşdırılması, problemin həlli yollarına dair alternativ fikirlərin əsaslandırılması, tənqid, təklif və ya tətbiq edilməsi imkanlarının araşdırılmasının mübadiləsidir.

Dərs prosesində müzakirə və ya diskussiyaların şagirdlərə əhəmiyyəti aşağıdakılardan ibarətdir;

a) bir-biri və müəllim ilə qarşılıqlı ünsiyyətə yardım göstərir;
b) informasiyanın təhlili üçün lazımi mühit yaradır;
c) məsələnin öyrənilməsində alternativ fikirlər söyləməyə təkan verir;
d) informasiyaların görünməyən tərəfləri barədə düşünməyə məcbur edir;
e) şagirdlərin hüquq bərabərliyini təmin edərək, demokratik mühit yaradır;
ə) şagirdləri passiv dinləyicilərdən fəal iştirakçıya çevirir;

Müzakirəni tətbiq etməyə hazırlaşan müəllim əvvəlcə şagirdlərlə birlikdə müzakirə qaydalarını hazırlamalı və yeri gəldikdə şagirdlərə xatırlatmalıdır.

Şagirdlər diskussiya mədəniyyətinin vacib və geniş bir məsələ olduğunu dərk etməli, başqalarının fikirlərinə dözümlü yanaşmanın demokratik ənənələrin əsas sütunu olmasını başa düşməlidirlər.

**«Əqli hücum»**

Bu üsul "Beyin həmləsi" də adlandırılır. Şagirdlərin fəallığını artırmaq üçün tətbiq olunan ən optimal metodlardan biridir. Şagirdlərin hər hansı konkret

problemin həllində və ya suala cavab tapmaqda yaradıcı təfəkkürünü üzə çıxarmağa təkan verir, onların müxtəlif vəziyyətlərdən çıxış yolu tapmaq, qərar qəbul etmək qabiliyyətini və eləcə də fikirlərini konkret ifadələrlə söyləmək bacarığını üzə çıxarır.

Təsviri incəsənət dərslərində problem situasiya, fikir müxtəlifliyi yarandıqda əqli hücum metodundan istifadə olunması faydalı hesab edilir. Belə şəraitdə şagird bir anlıq düşünməli olur, yoldaşlarının fikirləri barədə öz mövqeyini bildirir. Bəzən bu fikir dəqiq olmur, lakin o şagirdlərin fəallığı baxımından didaktik əhəmiyyət daşıyır.

«Əqli hücum»un şagirdlər arasındakı ünsiyyətin yaranmasında da rolu böyükdür.

**«BİBÖ»** ( Biz nəyi bilirik, nəyi bilmək istəyirik, nəyi öyrənməliyik).

Hər hansı mövzunun tədris edilməsində bu keyfiyyətlərlə yanaşı şagirdlərin həmin mövzuya aid sərbəst biliklərinin səviyyəsini müəyyən etmək çox əhəmiyyətlidir. Bu müəllimə şagirdlərdə keçmiş və yeni biliklər arasında əlaqə yaratmağa imkan verir. BİBÖ metodu şagirdlərin dərs boyu fəallığını təmin edir, birgə öyrənmənin yüksək mərhələsini yaradır. Metodun birinci "Bilirəm" mərhələsində şagirdlərin dünyagörüşü, onların müstəqil öyrənmə qabiliyyəti, mövzuları əlaqələndirmə imkanları və hafizəsi təyin olunur. İkinci "İstəyirəm biləm" mərhələsində isə artıq şagirdlərin təfəkkür tərzi, onların düşüncə səviyyəsi, elmi fantaziyaları, əqli qabiliyyəti, arzu və istəklərinin əhatə dairəsi üzə çıxır. Müəllim şagird ehtiyaclarını nəzərə almaqla onları passiv dinləyicidən fəal iştirakçıya, sadəcə öyrənən obyektdən öyrənmək istəyən subyektə çevirir. Şagirdlərin öyrənmək istədikləri müəllim və şagirdlərin iştrakı ilə tədqiqat nəticəsində birgə öyrənilir. Bu metodun sonuncu, daha vacib "Öyrəndim" mərhələsinin həyata keçirilməsinə imkan yaradır. Biliklərin möhkəmləndirilməsi, qoyulmuş sualların cavablandırılması, yeni biliklərin üzə çıxması mövzunun öyrənilməsində nəzərdə tutulmuş məqsədə xidmət edir.

BİBÖ-nun tətbiq edilməsi aşağıdakı mərhələləri həyata keçirməyi tələb edir:

Əvvəlcə müxtəlif iş formalarından istifadə etməklə şagirdlərin tədris olunan mövzuya dair bilikləri siyahılaşdırılır.

Müəllim lövhədə və ya vatman kağızında üç sütundan ibarət cədvəl çəkir və şagirdlərin problemlə əlaqədar bildiklərini cədvəlin sol sütununda yazır (təkrar olanları çıxmaq şərtilə).

**Bilirəm** **İstəyirəm bilim** **Öyrəndim**

| | | |
|---|---|---|
| | | |
| | | |

Sonra müəllim şagirdlərin yeni mövzuya dair nələri bilmək istədiklərini müzakirə edir və ortadakı sütunda yazır.

Daha sonra mövzuya aid mətn (dərslikdə və ya əvvəlcədən hazırlanmış) hissə-hissə oxunur, birgə müzakirə edilir, qoyulmuş sualların cavablarına xüsusi diqqət yetirilir.

Şagirdlərin mövzu ilə bağlı suallara cavabları və eləcə də digər yeni biliklər cədvəlin üçüncü sütununda əvvəlki qaydada müəllim tərəfindən qeyd olunur.

Sonra şagirdlər mövzuya dair əvvəlki bilikləri ilə yeni öyrəndiklərini müqayisə edir və ümumiləşdirirlər.

Bu prosesdə şagirdlərin ikinci sütunda verdikləri sualların bəziləri cavabsız qala bilər, yəni onların cavabları mətndə olmaya bilər, bu şagirdlərdə «hələ nələri öyrənmək» lazımdır sualını yaradır, onların şəxsi tədqiqat aparması üçün stimul verir.

BİBÖ metodu vasitəsilə əşya, hadisə, yaxud təsvir obyekti haqqında uşaqların nələri bildiklərini müəyyən etmək mümkündür. Şagirdlər lazım gəldikdə müəllimin köməyi və istiqamət olmadan cədvəldə nələri öyrənmək istədiklərini də qeyd edə bilərlər. Bu üsuldan istifadə etməklə əşya və ya hadisələr, rəssamlar, təsviri incəsənətin növ və janrları haqqında öyrəndiklərini yazırlar.

BİBÖ fəal təlim metodu kimi müasir dövrün tələblərinə cavab verir, «şagird–şagird», «müəllim–şagird» ünsiyyətinin möhkəmlənməsinə xidmət edir.

**«Kublaşdırma»**

Şagirdlərin hər hansı problemə inteqrativ və mürəkkəb yanaşma bacarıqlarını inkişaf etdirmək məqsədinə xidmət edən kub metodu, əslində B.Blüm taksanomomiyasına əsaslanır. Bu metoddan tədqiqat xarakterli mövzuların tədris edilməsində istifadə etmək məqsədəuyğundur. Kub metodu aşağıdakı mərhələləri özündə birləşdirir:

1. Kartondan kubun həndəsi formasına uyğun maketi yaradılır.

2. Kubun tərəfləri üzərində şagirdlərin fəaliyyətini istiqamətləndirmək üçün "təsvir et, müqayisə et, təhlil et, assosiasiya yarat, tətbiq et, muşahidə et" sözləri yazılır.

3. Dərs prosesində müzakirə olunacaq mövzunun adı bu və ya digər şəkildə elan edilir (konkret şəkildə və ya hər hansı metod vasitəsilə) .

4. Sinif altı qrupa ayrılır. Qrupların liderləri (püsk atmaq yolu ilə) arasında kubun hansı tərəfini seçməklə (rəqəmlər və ya müxtəlif rənglərə əsasən) qeyd olunan tapşırığı alır.

5. Mövzunun və ya situasiyanın qruplarda təhlili onlara düşən tapşırıq əsasında aparılmalıdır.

a) ***təsvir et*** – mövzunun ölçüləri, forması yerləşməsinə dair məlumat verir.

b) ***müşahidə et*** – mövzuya dair ətraf aləmdə müşahidə edilən, əşya və ya hadisələri öyrənir.

c) ***müqayisə et*** – problemin oxşar və fərqli cəhətləri üzə çıxarılır, təhlil edilir.

d) **assosiasiya yarat** (*əlaqələndir*) – hansı əşyalar, mövzular və s. ilə əlaqəlidir və ya bu təsvir sizi nə haqda düşünməyə sövq edir.

e) ***təhlil et*** – verilmiş təsvirin qurulma qaydalarını, onun kompozisiya həllinin mahiyyətini izah etmək tələb olunur.

k) ***tətbiq et (yaradıcı tətbiqetmə)*** – mövzuya uyğun təsvir yaratmaq (kompozisiya tərtib etmək) və ya dekorativ-tətbiqi sənət nümunələrinin həyati əhəmiyyətini müəyyənləşdirmək, ondan harada və nə məqsədlə istifadə etməyin mümkünlüyünü müəyyən etmək tələb olunur.

6. Şagirdlərin problem ətrafında işlərinin yekunu plakat şəklində və ya hazırlanmış iri «kubun» üzərində yazıla, sinifdə (eləcə də məktəbdə) nümayiş etdirilə bilər.

Şagirdlərin yuxarı yaş həddində kublaşdırma metodu daha yüksək səviyyədə təşkil olunur. Burada əsas məqsəd şagirdlərin bilik səviyyəsinin aşağı səviyyədən yuxarıya doğru yüksəlişini təmin etməkdir. Bu məqsədlə çoxcəhətli sorğu, müqayisə, əlaqələndirmə və təhlil tətbiq edilir.

**«Venn diaqramı»**



Bu diaqram kəsişən iki dairə əsasında qurulur. Ondan istifadə etməklə iki anlayışın, iki təsviri incəsənət növ və ya janrının, rəssamların yaradıcılığının, sənət əsərlərinin və ya təsvir obyektinin fərqlərini, habelə oxşar ortaq cəhətlərini tapmaq mümkündür. Burada müqayisə metodunun köməyindən istifadə edilir.

Venn diaqramı üzrə müqayisə və təhlillərin aparılması şagirdlərin fikri fəallığına təkan verir, təfəkkürünün məntiqi, tənqidi və ya yaradıcı inkişafına şərait yaradır.

***Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır.***

1. Müqayisə olunacaq təsvir, fiqur, əşya, obraz, hadisə və s. müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır).
3. I və III dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.

4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir: (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

**«Şaxələndirmə»**

Hər hansı bir mövzuya dair şagirdləri açıq və müstəqil düşüncəyə istiqamətləndirən metoddur. Beyin həmləsinin qeyri-səlis xətt üzrə işləmə vəziyyətidir. Şaxələndirmə əsasən fərdi, cütlər və kiçik qruplar formasında aparılır. Mövzunun öyrənilməsindən əvvəl şagird təfəkkürünə təkan vermək onu düşünməyə cəlb etmək, mövzuya dair maraq yaratmaq, digər fənlər və ya şagirdin dünyagörüşünün hüdudlarını üzə çıxarmaq, biliklər arasında əlaqə yaratmaq və s. fəaliyyətlərə xidmət edir. Şaxələndirmə metodunun köməyilə şagird təfəkkürünü məqsədyönlü şəkildə inkişaf etdirmək mümkündür.

Şaxələndirmə metodunu tətbiq etmək üçün ilk növbədə aşağıdakılar tələb olunur:

* şaxələndirmə üçün uyğun gələn münasib mövzu seçilməldir;
* şagirdlərə şaxələndirmə prosesi aydın şəkildə təsvir edilməldir;
* mövzunu açan ikinci dərəcəli mövzuların qrup daxilində fərdlərə paylanması təmin edilməlidir.

Şaxələndirmə prosesinin mərhələləri sadə və asan yadda qalır.

1. Mövzunun adı mərkəzdə (yazı lövhəsinin ortasında ) yazılır.



2. Mövzu ilə əlaqəli bütün sözlər mərkəz sözün ətrafında yazılır.

3. Bir-birilə əlaqəli olan fikirlər arasında xətt çəkilərək birləşdirilir.

4. Bütün fikirlərin yazıya köçürülməsi və ideyalar axını üçün vaxt qoyulur. (5–10 dəqiqə).

5. Şagirdlər mümkün qədər çox fikir və əlaqəli ifadələr yazmağa həvəsləndirilir (bu onların dünyagörüşünü, mövzuya dair biliklərinin səviyyəsini göstərən meyardır).

Bu üsuldan istifadə olunması təsviri və dekorativ sənətin növ və janrlarına dair anlayışlar barədə təsəvvürlərin yaranmasına, öyrənilmiş biliklərin sistemləşdirilməsinə, əldə olunmuş yeni anlayışlar hesabına vizual yaddaş ehtiyatlarının zənginləşdirilməsinə imkan yaradır. Bir-birilə əlaqəsi olan anlayışların mənimsənilməsi şagirdlərə nəzəri bilikləri daha yaxşı öyrənməyə və onların ümumi inkişafına təkan verir.

**«Diskussiya»**

"Təsviri incəsənət" təlimində diskussiyadan istifadə didaktik əhəmiyyət daşıyır. Diskussiya şagirdlərin kommunikativ bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır.

Diskussiyalarda iştirak edən şagirdlər sual və replikalarla müzakirələrə qoşulur, canlı və cansız əşyalardan, fakt və hadisələrdən istifadə etməklə məntiqi fikir yürütmək bacarıqlarını nümayiş etdirirlər. Təsviri sənət fənnindən aldıqları nəzəri bilikləri təcrübədə də tətbiq etmək imkanı qazanırlar.

**«İNSERT»**

Fəal təlim metodlarından biri kimi, təsviri incəsənət fənninin tədrisində «Səmərəli Mütaliə və Yazı üçün İnteraktiv Qeydetmə Sistemi»-ndən ( İNSERT) geniş istifadə imkanları vardır.

Bu metod dərslikdəki mətnin aktiv fəaliyyətlə, yəni şagirdin öz münasibətini bildirərək oxunmasıdır. Şagird mövzudakı fikirlərə münasibətini qəbul olunmuş işarələrlə «V» – bu məlumat mənə tanış idi, «–» bu informasiya

mənim əvvəllər bildiyimi rədd edir, «+» bu informasiya mənim üçün yenidir, «?» bu məsələyə dair əlavə məlumat almaq istərdim) bildirir. Dərslik mətni oxunduqdan sonra ümumiləşmələr aparılır və qeyd olunur.

| «V» | «-» | «+» | «?» |
|---|---|---|---|
| | | | |

İlk növbədə, məlum biliklər təsdiq edilir, yeni bilik və informasiyaları öyrənmək üçün gələcək fəaliyyət planlaşdırılır.

"Təsviri incəsənət" fənnindən nəzəri mövzuların (növ və janrların meydana gəlməsi və inkişafı, kompozisiya və perspektivin qanun, qayda, üsul və vasitələri və s.) tədrisində bu metoddan istifadə etmək məqsədəuyğundur.

**Rollar üzrə oyun**

"Təsviri incəsənət" fənninin tədrisində rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları, xarakterləri, geyim və dekorasiyaları, əvvəlcədən müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər şagirdlərdən kimin aparıcı, kimin müşahidəçi olacağını planlaşdırır. Hazırlaşmaq üçün şagirdlərə vaxt verir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir.

**«Yaradıcı əsərin yaradılması»**

Yaradıcı əsərin yaradılması şagirdlərdə yaradıcılıq fəallığının hərtərəfli inkişafında tətbiq olunan ən optimal metodlardan biridir. Bu metod şagirdlərin hər hansı problemin həllində yaradıcı təfəkkürünü üzə çıxarmağa imkan verir. Müxtəlif yaradıcılıq fəaliyyəti prosesində şagirdlərin yazdıqları inşaları, şeirləri,

hekayələri o cümlədən yaratdıqları maketləri, fiqurları, rəsmləri, layihələri və s. buraya aid etmək olar.

Bu metod vasitəsilə şagirdlərdə təfəkkür fəaliyyətinin çevikliyi və orijinallığı inkişaf etdirilir.

Müəllim şagirdlərə mövzu və ya müəyyən istiqamət verərək yaradıcılıq prosesinə maraq yaradır. Belə fəaliyyət zamanı şagirdlərdə nəzəri və praktik yaradıcılıq bacarıqları formalaşır. Bu metodun tətbiqi zamanı aşağıdakı təlimata əməl edilməlidir:

1. Müəllim şagirdlərin nəzərinə yerinə yetiriləcək tapşırığın mövzusunu və ya məzmununu çatdırır.
2. “Təsviri incəsənət” dərslərində çəkiləcək rəsm, yapılacaq fiqur, quraşdırılacaq model haqqında şagirdlərə lazımi təlimat və işin yerinə yetirilmə müddəti elan olunur.
3. Verilmiş vaxt bitdikdə ən uğurlu iş və ya işlər müəyyən olunur. (Şagirdlərin motivasiyasını artırmaq üçün lazım gəldikdə onlara, əl işlərini korreksiya etmək və tamamlamaq üçün ikinci dəfə vaxt verilə bilər).
4. Başa çatdırılmış (rəsm, yapma, model, maket, (şeir, hekayə, inşa) və s.) tapşırıq nümayiş etdirilərək müqayisə və təhlil olunur, dəyərləndirilə-rək alqışlanır.

Müəllim işin müxtəlif mərhələlərində şagirdlərin fəaliyyətini izləyərək qeydlər edir. Lazım gəldikdə əl işlərinin dəyərləndirilməsində onlara əsaslanır.

Bu metod zamanı verilən tapşırıqlar şagird təfəkkürünün və təxəyyülünün (fantaziyasının) genişliyinə, bilik və bacarıqların cəld nümayişinə, çevikliyinə yönəldilir.

**Layihələrin hazırlanması**

Layihələrin hazırlanması müxtəlıf mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat prosesində bilik və bacarıqlara

müstəqil yiyələnmə vərdişlərinin formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyətini qurmağa, habelə öz vaxtını və iş qrafikini planlaşdırmağa kömək edir. "Təsviri incəsənət" fənninin tədrisində bu üsul şagirdlərin bir-birilə, eləcə də məktəbdənkənarda müsabiqə və sərgilər üçün, müxtəlif adamlarla, yaradıcı şəxslərlə qarşılıqlı əlaqə qurmağa şərait yaradır, problemin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, müxtəlif resurslarda və əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir.

Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir.

Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq resursları (ədəbiyyatlar, internet ünvanlar, digər mənbələr, təsviri vasitələri və s.) bunları əldə etmək yollarını, iş formalarını (fərdi yoxsa, qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özü cavabdeh olurlar.

Tədqiqatın nəticəsi hesabat, maket, model, illüstrasiya, fotoşəkillər cədvəllər, qrafiklər, sxemlər , eskizlər və s. formasında ifadə oluna bilər.

**Sorğu vərəqləri və müsahibə**

Bu üsullar **a**raşdırılan problemlə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır.

Sorğu vərəqi "Təsviri incəsənət" fənninin tədrisində **a**raşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldurur.

Müsahibə isə **a**raşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə daha doğru olar:

1. Problemi müəyyən etmək;
2. İşi təşkil etmək (Sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq);
3. Məlumatları toplamaq ( Sualların cavablarını toplamaq);

4. Əldə edilmiş məlumatları təhlil etmək və ümumləşdirmək.

**“Qərarlar ağacı”**

“Təsviri incəsənət” fənninin tədrisində bu üsul təsvir metod, vasitə və materialların, bədii üslub və yaradıcılıq sahələrinin seçiminə dair problemlər ətrafında qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilır. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları “+”, və ya “-” işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.

Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

**Problemli vəziyyət**

Bu üsulun tətbiqi “Təsviri incəsənət” fənninin tədrisində şagirdlərdə tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir.

Müəllim əvvəlcədən “Təsviri incəsənət” fənninə aid problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət əks olunmuş iş vərəqləri uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

**«Təqdimat»**

Təsviri incəsənətin təlimi üzrə təqdimatların yazılı, şifahi və praktik (nailiyyətlərin, əl işlərinin nümayişi) formaları vardır. Müxtəlif mövzularda təqdimatların hazırlanmasında şagirdlər həm fərdi, həm də qrup halında iştirak edə bilərlər. Bu zaman müxtəlif vasitələrə – (rəsm, yapma, aplikasiya, model, fotoşəkil, slayd, sxem, film və s.) istinad etməklə qarşıya qoyulmuş problem

haqqında fikirlərin və təsir gücünü artırırlar. Təqdimatlar həm təlim prosesi zamanı, həm də müəyyən bir mərhələyə yekun vurmaq məqsədilə təşkil olunur.

**İnteqrativ dərslərin tədrisi metodikasına verilən tələblər**

1. İnteqrativ dərsin mövzusu tədris kurslarının ümumiləşdiricisi roluna malik olmalıdır.

2. İnteqrasiyanın əsas prinsipi dərsin tədris-tərbiyəvi tapşırığına əsasən formalaşdırılmalıdır.

3. İnteqrativ dərsin quruluşu fənlər arasında əlaqələndirici tapşırığa malik olmalıdır və aşağıdakı mərhələləri əks etdirməlidir:

a) dərsin mövzusunda fənlərarası əlaqənin mövcudluğu dərk edilməlidir;

b) bilik və bacarıqların ümumi fənlərə aid olduğu bilinməlidir;

c) müəyyən bilik və bacarıqdan digərinə keçidi qeyri-ənənəvi yollarla təmin edilməlidir;

d) inteqrasiya nəticəsində bilik və bacarıqlar sintez edilməli, ümumiləşdirilməlidir;

e) yeni inteqrativ biliklər möhkəmləndirilməlidir (yeni tapşırıqların həllinə əsasən);

4. İnteqrativ dərslərdə yeni fəal təlim metodlarını tətbiq etmək, bilikləri sistemləşdirmək və ümumiləşdirmək məqsədilə şagirdlərdə yaradıcılıq fəaliyyəti inkişaf etdirilməkidir;

5. İnteqrativ dərslər bir neçə tədris fənni üzrə didaktik vəsaitlərdən kompleks istifadə etməyin metodikasını təmin etməlidir;

6. İnteqrativ dərsləri qeyri-ənənəvi metodlarla tədris etmək məqsədəuyğundur. Məsələn, kompleks ekskursiya dərsi, konfrans, seminar, səyahət dərsi və s.;

7. İnteqrativ dərslərin aparılması üçün fənn müəllimləri əməkdaşlıq etməlidir;

8. İnteqrativ dərslərin nəticələrini yoxlamaq üçün xüsusi diaqnostik vasitələrin (mətn, yoxlama yazı, çalışma və s) köməyindən istifadə olunmalıdır.

Yerli şəraitə, zamana, məkana, təlim nəticələrinə. mövzuya və məqsədə görə "Təsviri incəsənət" fənninin tədrisində digər üsullardan da istifadə edilə bilər.

## 2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırmasına dair nümunələr

Müasir təhsilin əsas məqsədi öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratik prinsiplərə, insanların hüquq və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir.

Müstəqil respublikamızda bütün sahələrdə olduğu kimi təhsil sahəsində də həyata keçrilən geniş miqyaslı islahatlar təhsil sistemində şəxsiyyətyönümlü pedaqoji prosesin mərkəzində duran müəllim və şagirdlərin funksiyalarını dəyişir. Bu prosesdə təlim fəaliyyəti və təlim prosesinin təşkili əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulur. Müəllim kurikulumlara uyğun inteqrasiya olunmuş planlarla yanaşı yeni texnologiyalar hazırlayır, yaxud mövcud olanların içərisindən ən münasiblərini seçir. Bu texnologiyaların müəyyən olunmasında müəllim və şagird şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər «subyekt + subyekt» formasına uyğun üfüqi istiqamətdə qurulur. Bu zaman şagirdlər öz təfəkkürünün, düşüncəsinin yaradıcısına, müəllimlər isə şagirdin inkişafı üçün şəraitin təşkilatçısına çevrilir. Ənənəvi təlimdən fərqli olaraq müasir təlimdə müəllimlərin rəhbərlik funksiyası informasiya vermək sahəsindəki fəaliyyətini məhdudlaşdırır. O, daha çox sinif şəraitində təlim fəaliyyətini planlaşdıran, təşkil edən, əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi şagirdlərin müstəqil idrak fəaliyyətinin, fəal yaradıcılığının subyektinə çevrilir. Pedaqoji prosesin düzgün qurulmasında ən mühüm əhəmiyyətli problemlərdən biri də planlaşdırmadır.

**Perspektiv planlaşdırma.** Bildiyimiz kimi, tədris prosesində uğurlu və nəticəyönümlü təlim əvvəlcədən mükəmməl hazırlanmış planlaşdırmadan asılıdır.

Perspektiv planlaşdırma hazırlamaq üçün müəllimdə bir neçə bacarığın olması vacibdir. Tədris vahidi və mövzuların ardıcıllığının düzgün müəyyənləşdirilməsi mühüm bacarıqlardan biridir. Müəllim bu ardıcıllığı müəyyənləşdirərkən bir neçə prinsipial məsələləri nəzərə almalıdır: bunlardan ən mühümü məzmun ardıcıllığında sadədən mürəkkəbə, asandan çətinə doğru getməkdir. Əvvəlcə elə anlayışlar, bilik və bacarıqlar öyrədilməlidir ki, sonra öyrəniləcək məsələlərdə şagird onlardan istifadə edilə bilsin.

Hər hansı təlim nəticəsinin əldə edilməsində təlim nəticələrinin təqdim olunan ardıcıllığı tədris prosesi üçün mütləq deyil. Müəllim ayrılan vaxt ərzində, proqram materiallarının tədris edilməsindəki ardıcıllığa əməl etməkdə mövcud vəziyyət nəzərə alınmaqla sərbəst ola bilər.

Bu baxımdan müəllim tədris vahidlərini (dərslər bloku) və mövzuların ardıcıllığını planlaşdırarkən aşağıdakıları nəzərə almalıdır:

- fəndaxili inteqrasiyanı;
- fənlərarası inteqrasiyanı;
- ardıcıllığın qurulması prinsiplərini.

Bura daxildir:

1. məntiqi ardıcıllıq;
2. psixoloji ardıcıllıq (sadədən mürəkkəbə doğru, istiqamət, tətbiqetmə, yaxından uzağa prinsipi);
3. xronoloji ardıcıllıq (tarixi ardıcıllıq);
4. tematik ardıcıllıq (səbəb-nəticə əlaqələri).

- hər sinif üzrə tədris vahidlərinin (dərslər blokunun) ümumtəlim nəticələri əsasında tərtib edilməsi;
- Tədris və təlim prinsipləri:

1. şagirdyönümlülük;
2. inkişafyönümlülük;

3. aktiv, müstəqil və birgə təlim üçün imkanların yaradılması;

4. məqsədyönümlülük;

5. məktəbdənkənar və ictimaiyyətlə bağlı fəaliyyətlərlə əlaqəlilik.

- il ərzində keçiriləcək kiçik summativ qiymətləndirmələrin vaxtının müəyyənləşdirilməsi.

Planlaşdırma aparmaq üçün müəllimə lazım olan çox mühüm bacarıqlardan biri də mövzuların tədrisi zamanı inteqrasiya imkanlarını müəyyən etməkdir. Qeyd etmək lazımdır ki, təsviri incəsənət fənninin müxtəlif siniflərdə tədris olunan bir çox fənlərlə əlaqəsi, inteqrasiyası mümkündür. Təsviri incəsənət müəllimi illik planlaşdırma hazırlayarkən müxtəlif fənlər üzrə reallaşdırılan məzmun standartları və fənlər üzrə dərslikdə verilmiş mövzularla tanış olmalıdır, bütün bunlar fənlərarası inteqrasiyanı nəzərə almaqda ona yol göstərəcəkdir. Bu məqsədlə təsviri incəsənət müəllimi planlaşdırma apararkən tədris etdiyi mövzunun digər fənlərdəki bu və ya digər mövzu ilə inteqrasiya imkanlarını müəyyən etməlidir.

Perspektiv planlaşdırma aparmaq üçün müəllimə lazım olan bacarıqlardan biri də mövzuya uyğun resursların seçilməsidir. Təsviri incəsənət fənni şagirdləri heç bir zaman görmədikləri və bəlkə də gələcəkdə də görməyəcəkləri bir sıra sənət əsərləri, tarixi mədəniyyət nümunələri ilə tanış edir. Şagirdlərə görmədikləri təsviri sənət əsərlərini və ya hər hansı bir rəssamın bədii yaradıcılıq fəaliyyətini yalnız sözlərlə aydın və düzgün təsəvvür etdirmək olduqca çətindir. Təsviri incəsənət fənninin tədrisində ən mühüm resurslara; təsviri sənət nümunələrinə dair reproduksiyalar, molbert, planşet, natürmort üçün müxtəlif materiallardan olan sadə və mürəkkəb əşyalar, həndəsi cisimlər, təbii və süni meyvə və tərəvəzlər dekorativ sənət nümunələri, müxtəlif boyalarla (quaş, akvarel, yağlı boya və s.) mərhələlərlə işlənmiş plakatlar, proyektor, kompüter və digər əyani vəsaitləri aid etmək olar. Təsviri incəsənət fənnin tədrisin-də ən mühüm əyani vəsaitlər isə müxtəlif dövrlərdə görkəmli sənətkarlar tərəfindən yaradılmış müxtəlif məzmunlu təsviri sənət əsərlərinə dair

nümunələr, natürmort üçün müxtəlf əşyalar, fərqli üsullarla praktik işlərin mərhələlərini əks etdirən plakatlar, slaydlar və s.göstərmək olar.

Mühüm bacarıqlardan biri də mövzulara görə məqsədyönlü vaxt bölgüsü aparmaqdır. Müəllim, kursun ümumi təlim nəticələrinə məzmun etibarı ilə daha müvafiq olan mövzu və məsələlərə çox, əhəmiyyəti olmayan quru faktların, az əhəmiyyətli sənət üslublarının, terminlərin və ya adların öyrənilməsindən ibarət olan mövzulara isə təbii ki, az vaxt ayırmalıdır. Təhsil nazirliyi tərəfindən təsdiq olunmuş vaxtı artırıb-azaltmamaq şərti ilə müəllim mövzuların çətinlik dərəcəsinə görə onlara verilən vaxtı özü müəyyənləşdirmə bacarığına da malik olmalıdır.

| ***Mühüm hadisələr*** | ***Tədris vahidləri*** | ***Stan-dart*** | ***Mövzu*** | ***Məşğələ növü*** | ***Təlim nəticələri*** | ***İnteqra-siya*** | ***Resurslar*** | ***Qiymət-ləndir-mə*** | ***Saat*** | ***Tarix*** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 18 oktyabr Dövlət Müstəqilliyi günü | I.Təsviri incəsənət və həyat hadisələri | **1.1.1.; 3.1.1.** | **1. Təsviri incəsənət zamanın ay-nasıdır.** | *Təsviri incəsənət haqqında müsahibə* | 1.Təsviri incəsənət nümunələrində insanların həyat, məişət və mədəniyyətinin inkişafının əks olunduğunu anladığını sadə şəkildə izah edir (**1.1.1.**)<br>2. Təsviri sənət növlərini verilmiş nümunələr əsasında ayıraraq estetik münasibət bil-dirir **(3.1.1.)** | **Az-d. 1.2.4.; Az-t. 1.2.2.; 5.1.1.; İnf. 1.2.1.** | Dərslik, BİBÖ cədvəli, ən qədim dövrə aid təsvirlər, müxtəlif sənət növlərinə aid nümunələr, slaydlar, yaxud fotoşəkillər, proyektor, iş vərəqləri | **Formativ:** Şagirdlər tərəfindən: meyarlar cədvəli əsasında qiymətlən-dirmə | **1s** | |
| | | **1.1.1.; 1.3.1.; 3.1.1.** | **2. Rəsm əsərlərində təbiət təsvirləri**. | *Mövzu üzrə rəsm* | 1. Rəsm əsərlərində təbiət təsvirlərinin həyat hadisələrini əks etdirdiyini izah edir (**1.1.1.).**<br>2.Görkəmli sənətkarlarının təbiət təsvirləri mövzusunda əsərlərini | **Az-d. 1.2.4.; Ə. 1.2.4.; H-b. 3.2.2.; Mus. 2.2.1.** | Dərslik, payız yarpaqlarında n nümunələr, rəssamların mənzərə janrında əsərlərindən nümunələr (yaxud fotoşəkillər), mənzərənin mərhələlərlə təsvirinə dair | **Formativ:** Şagird tərəfindən meyarlar vasitəsi ilə qiymətlən-dirmə | **1s** | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | şərhedir(**1.3.1.**). 3. Rəsm əsərlərində təbiət təsvirlərini estetik imkanlarına görə izah edir (**3.1.1**.). | | əyani vəsait, yaxud slaydlar, iş vərəqləri. | | | |
| | | **1.1.1.; 1.3.1.; 2.1.2.** | **3. Payız nemətləri** | *Naturadan rəsm* | 1. Natürmort janrında çəkilmiş əsərlər əsasında həyat hadisələri haqqında məlumat verir **(1.1.1.)** 2.Rəssamların natürmort janrında əsərlərini müqayisə edir **(1.3.1.).** 3. Payız nemət-lərindən ibarət natürmortu sulu boya vasitəsi ilə çəkir **(2.1.2.).** | **Az-d. 1.1.2; 1.2.4.; H-b. 3.2.2.; İnf. 4.1.1. Mus. 2.2.1.** | Dərslik, rəssamların natürmort janrında əsərlərindən nümunələrin slaydları və ya fotoşəkil-lər, proyektor, payız meyvə-lərindən iba-rət natürmor-tun təsvirinin mərhələlərinə dair slaydlar, yaxud əyani vəsait, payız meyvələrindən ibarət natürmort üçün əşyalar. | **Formativ:** Şagird tərə-findən me-yarlar cəd-vəli vasitəsi ilə özünü-qiymətlən-dirmə | **1s** | |
| | | **1.1.1.; 1.3.1.; 2.1.2.** | **4. Kənd həyatı rəsm əsərlərində.** | *Mövzu üzrə rəsm* | 1.Təsvirlərdəki kənd həyatını əks etdirən hadisələr haqqında danışır **(1.1.1.).** 2. Kənd mövzusunu əks etdirən əsərlərin məzmununu fərqləndirir (**1.3.1**). 3. Kənd mövzusunda rəsm çəkir, yaxud nisbi dəqiqliklə köçürür (**2.1.2.**). | **Az-t. 1.2.4.; H-b. 3.2.2.; İnf. 4.1.1.; Az-t. 1.2.2.; 5.1.1.; Mus. 2.2.1.** | Dərslik, “Ögey ana” filmindən “Gözəl kəndimiz” mahnısının lent yazısı, rəssamların tematik janrda əsərlərindən nümunələr, kənd həyatına dair slaydlar, yaxud foto-şəkillər, proyektor,“Kəndimiz” mövzusunda mərhələlərlə işlənmiş əyani vəsait, iş vərəqləri. | **Formativ:** Müəllim tərəfindən meyarlar cədvəli vasitəsilə qiymətlən-dirmə | **1s** | |
| | | **1.1.1.; 1.3.1.; 2.1.2.** | **5. Təsviri incəsənətdə şəhər mövzusu** | *Mövzu üzrə rəsm* | 1. Şəhər mövzusunda çəkilmiş əsərlərdə həyat hadisələrini izah edir **(1.1.1.).** 2. Rəssamların şəhər | **Az.1.2.4.; H-b. 3.2.2.; İnf. 4.1.1.; Az-t. 1.2.2.; Mus. 2.2.1.** | Dərslik, BİBÖ cədvəli, rəssamların şəhər mövzu-sunda əsərlərindən nümunələr, müx-təlif şəhərlərin fo- | **Formativ:** Şagirdlər tərəfindən cütlərdə işin meyar-lar cədvəli vasitəsilə qiymətləndi rilməsi | **1s** | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | mövzusunda çəkilmiş əsərlərinə estetik münasibət bildirir **(1.3.1.).**<br>3. Şəhər mövzusunda rəsm çəkir **(2.1.2.).** | | toşəkilləri, yaxud slaydları, proyektor, şəhər mövzusunda rəsmin mərhələlərlə təsviri qaydalarına dair slaydlar, yaxud əyani vəsait | | | |
| | | | 6.Kişik summativ qiymətləndirmə | Ümumləşdirici dərs | | | | Test tapşırıqları | | |

Nümunəvi illik planlaşdırma əsasında müəllim fərdi olaraq gündəlik və ya həftəlik dərs planlaşdırması tərtib edir.

**Gündəlik planlaşdırma**

Müəllim gündəlik dərs planı hazırlayarkən dərsin mərhələlərinin ardıcıllığına diqqət yetirməlidir. Gündəlik dərs aşağıda göstərilən mərhələlərlə planlaşdırılmalıdır:

- Mövzu:
- Məqsəd:
- İş forması:
- İş üsulu
- Resurslar:
- Dərsin mərhələləri:
  - Motivasiya, problemin qoyuluşu
  - Tədqiqatın aparılması
  - Məlumat mübadiləsi
  - Məlumatların müzakirəsi
  - Nəticələrin çıxarılması
  - Ev tapşırığı
- Qiymətləndirmə

Öyrənilən mövzuya uyğun təlim nəticələri yazılarkən, məqsəd müəllimə deyil şagirdə yönəlməlidir. Əgər müəllim dərsin məqsədini təlim nəticələrinə

uyğun, şagirdin maraq və meyilləri üzərində qurarsa uğurlu və nəticəyönümlü təlim təşkil edə bilər.

Şagirdi təlimə cəlb etməyin bir yolu mövzuya və məqsədə uyğun fəal təlim forma və üsullarından yerində istifadə edilməsidir.

Müəllim dərsin birinci və ən mühüm mərhələsi olan motivasiyanı elə qurmalıdır ki, şagirdi təlimə cəlb edib maraqlandıra bilsin. Bu mərhələdə müəllim məsələdəki ziddiyyətləri qabartmaqla müxtəlif baxışların və variantların toqquşmasından yaranan problemli vəziyyət əsasında tədqiqat sualı qoyaraq şagirdləri düşünməyə yönəldir. Motivasiya sonrakı mərhələdə aparılacaq tədqiqat işi üçün ən mühüm məsələlərdən biridir. Onun uğurlu olması fəal dərsin 50% uğurlu alınması deməkdir. Motivasiya tədqiqat sualının qoyulması və fərziyyələrin alınması ilə yekunlaşır.

İkinci mərhələdə motivasiyadan çıxan fərziyyələr dəqiqləşdirilərək tədqiqat işinə başlanılır. Tədqiqat müxtəlif iş formalarında – bütün siniflə, kiçik qruplarda, cütlər şəklində və ya fərdi şəkildə aparıla bilər. İrəli sürülmüş problemin həlli üçün müxtəlif variantlardan, həm də özündə yeni suallar və yeni informasiyalar daşıyan iş vərəqlərindən istifadə olunur. İş vərəqlərində verilən tapşırıqlar birbaşa problemin həlli üçün "açar" rolunu oynayır.

Tədqiqat prosesində əldə olunmuş məlumatların mübadiləsi üçüncü mərhələdə aparılır. Qoyulmuş tədqiqat sualının cavabını tapmaq istiqamətində görülən işlər tədqiqat iştirakçılarını bir-birinin dəlillərini dinləmək zərurəti qarşısında qoyur.

Dərsin dördüncü mərhələsində məlumatın müzakirəsi prosesi başlayır. Bu, ən mürəkkəb mərhələdir. Belə ki, bu mərhələdə təfəkkürün müxtəlif növlərinin səfərbərliyə alınması baş verir. Müəllim bu mərhələdə fasilitasiya funksiyasını düzgün yerinə yetirdikdə əldə olunmuş faktlar sistemləşdirilir və əlaqələr aşkara çıxarılır.

Beşinci mərhələ nəticələrin çıxarılması mərhələsidir. Müəllim qazanılmış biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi məqsədilə suallar qoyur və bu suallar əsasında biliklər və informasiyalar sistemləşdirilir. Şagird əldə etdiyi

bilikləri, gəldiyi nəticəni, tədqiqat sualı zamanı irəli sürülmüş fərziyyələrlə tutuşdurur.

Dərsin altıncı mərhələsində qiymətləndirmə və ya refleksiya prosesi başlayır.

## Dərs planı nümunələri

### I sinif

**Mövzu:** **ƏLVAN QUAŞ**

**Standart:** 2.1.1.; 2.1.3.

**Məqsəd:** 1. Fırçadan və quaş boyalarından istifadə edərək səthi təsvir çəkir.

2. Əsas rəngləri tanıyır və sadə rəsmin çəkilməsində onlardan istifadə edir.

**İnteqrasiya:** **Az-d.**1.2.1.; **Riy.** 2.3.1.; 3.1.1.; 3.2.2.; **İnf.** 1.2.2.; **Tex. .** 4.1.1.

**İş forması:** kollektiv iş, cütlərlə iş

**İş üsulları:** Əqli hücum, suallar, müzakirə

**Resurslar:** İş dəftəri və ya rəsm albomu, quaş boyası, fırça, su bankası, salfet

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdlərə quaşın xüsusiyyətləri və işləmə qaydaları ilə tanış etmək üçün suallar verir:

– Şəkillərdə nə görürsünüz? *(boyalar).*

– Kim bilir: bu boyalar necə adlanır? *(fərziyyələr).*

– Rəssamların istifadə etdiyi bu boyalar "***quaş***" adlanır. Quaş qatı boyadır, iş zamanı boyadan çox, sudan az istifadə edilir. Bu boyaların şəffaflığı yoxdur, örtücü xüsusiyyətə malikdir.

– Şəkildə gördüyünüz 3 quaş qabında hansı rənglər var? *(qırmızı, sarı, göy)*

– Qırmızı, sarı, göy rənglərə ***əsas rənglər*** deyilir. Bu, rəssamın istifadə etdiyi əsas rənglərdir. Qırmızı, sarı, göy ona görə əsas rəng adlanır ki, bu rəngləri heç bir rənglərdən almaq mümkün deyil. Onların qarışığından isə istənilən rəng çalarları almaq olur.






*Quaş boyalar* *Fırçalar* *Əsas rənglər* *Su bankası*

**TƏDQİQAT SUALI: Quaşla necə işləmək olar? İş zamanı nəyi nəzərə almaq lazımdır?**

**Tədqiqatın aparılması.** Dərsdə ən sadə tapşırıq — quaşla tanış olmaqdır. Uşaqların çoxu, sadəcə, vərəqi rəngləməklə, bəziləri isə rəngbərəng zolaqlı xalça çəkməklə tapşırığı yerinə yetirə bilər. Xalçanı ağ vərəq yapışdırılmış, fırça və karandaşları yığmaq üçün qab üzərində də çəkmək olar (şagirdlər əvvəlcədən evdən gətirirlər). Onun üzərini quaşla boyayırlar.



Boyalarla iş zamanı vərəq və alətlər parta üzərində rahat yerləşdirilməlidir. Vərəqi – qarşıda, boya və su bankasını vərəqin yuxarı və sağ hissəsindən qoymaq lazımdır. Fırçaları istifadə etmədikdə isə su bankasında tükləri yuxarı istiqamətdə saxlamaq lazımdır ki, korlanmasın.

☺ Müəllim *sağlamlıq imkanları məhdud olan şagirdlər* üçün çətinlik dərəcəsi aşağı olan tapşırıqlar hazırlaya bilər. Şagird fırça ilə işləməyə hazır deyilsə, zolaqlı xalçaya aid rəngləmə təklif etmək olar.

 İnteraktiv tapşırıq kimi lövhədə müxtəlif rənglərdə olan əşya təsvirləri verilir, ortada isə üç rəngsiz ləkə — bu, əsas rənglər sayılacaq. Şagird öncə bunların hansı rənglər olduğunu müəllimin verdiyi suala cavab tapmaqla müəyyən edir. Sonra isə bu rənglərə uyğun gələn əşyalar taparaq stilus qələmi ilə ətrafına yığır (məsələn: qırmızı — nar, alma, pomidor və s.)

**Məlumat mübadiləsi.** Şagirdlər işlərini təqdim edirlər.

**Ümumiləşdirmə və nəticə.** Quaşdan istifadə edərkən hansı qaydalara əməl etdiniz?

– Əsas rənglər hansılardır? Onlara nə üçün əsas rənglər deyilir?

**Yaradıcı tətbiqetmə.** Ətrafda sarı, qırmızı, göy rənglərdə mövcud olanları təsvir etmək.

**Qiymətləndirmə.** Müəllim dərəcələr üzrə qiymətləndirmədən istifadə edir.

| Cütlər | Meyarlar | | | |
|---|---|---|---|---|
| | Əsas rəngləri tanıyırlar? | Quaşla təsviri düzgün yerinə yetiriblər? | Təsvir tapşırılan vaxt ərzində yerinə yetirilib? | Rəsm səliqəlidirmi? |
| 1-ci cüt | | | | |
| 2-ci cüt | | | | |

## II SİNİF

**Mövzu:** **NAĞILLARDA XEYIRXAHLIQ VƏ QƏDDARLIQ**

**Məşğələ növü:** Mövzu üzrə rəsm

**Standart:** 2.1.1; 2.2.2

**Dərsin məqsədi:**

* Azərbaycan şifahi xalq folkloruna maraq və məhəbbət hissi oyadır;

* Ölçünü, formanı, rəngi müəyyənləşdirmək bacarığını formalaşdırır;

* Nağıllarda olan obrazların mənfi və müsbət xüsusiyyətlərini-xeyirxah və qəddar obrazlar haqqında fikir söyləyir;

* Sadə, rəngli karandaş və ya flomasterlə nağıllara illüstrasiya çəkir.

**İnteqrasiya:** H-b.1.3.2., 2.3.2.; Az-d.1.2.1

**İş forması:** Qrup işi

**İş üsulu:** Müzakirə, açar sözlər, T- sxemi

**Resurslar**: Dərslik, iş dəftəri, MİMİO interaktiv qurğu, A3 formatlı rəsm vərəqi, pastel tabaşirlər, rəngli karandaş və flomasterlər.

**Tövsiyyə olunan musiqi müşayiəti:** “Tıq-tıq xanım” cizgi filmi.Musiqisi R. Mirişlinindir.

**Dərsin gedişi /Motivasiya (5 dəq).**

Müəllim əvvəlcədən stolun üzərinə qoyulmuş əşyaları şagirdlərə nümayiş etdirir:

- Papaq, odun bağlaması, çarıq  (Cırtdana aid);
- Səhəng, kiçik ayaqqabı, gözəl paltar (Göyçək Fatmaya aid);
- Fındıq qabıqları, noğul (Tıq-Tıq xanıma aid);
- Səbət, qırmızı rəngli papaq (Qırmızı papağa aid);
- Xəmir (kürə formasında)  (Qoğala aid).

-Bunlar nədir? (əşyalar)

Sonra müəllim (yuxarıda qeyd edilən) nağıllara aid bir rəngli illüstrasiyaları 4-5 hissəyə bölür və şagirdlərə paylayır. Onlar uyğun gələn hissələri birləşdirərək nağıla uyğun qruplarda əyləşirlər.

-Hissələri birləşdirəndən sonra nə aldınız? (nağıllar)

Şagirdlər bir-bir söylədikcə, müəllim də yazı taxtasından bütöv təsvirləri asır  və nağıllar olduğunu deyir.

-Onlar haqqında nə bilirsiniz?

MİMİO lövhəsində dərsin əvvəlində müəllimin əyani göstərdiyi  əşyalar və nağıl personajları qarışıq formada verilir.

- Gördüyünüz əşyalar hansı nağıl qəhramanına aiddir? (fərziyyələr)

Bu zaman  şagirdlər bir-bir  MİMİO lövhəsinə yaxınlaşır. Stilius-mausla onlar hər əşyanın hansı nağıl qəhramanına aid olduğunu göstərərək birləşdirirlər. Sonra müəllim hər şagirdə tapdıqları personaja aid olan əşyanı verir və  ya partanın üzərinə qoyur.(uşaqlarda emosionallıq yaratmaq məqsədi ilə)

-Kiçik yaşlı uşaqlar oxumağı bacarmırlar. Onlar nağıllarda nələr baş verdiyini nəyin vasitəsilə başa düşürlər? (kitablarda çəkilən şəkillərin)

-Onlara **illüstrasiya** deyilir.

Müəllim nağıl kitablarını və rəssamların çəkdiyi illüstrasiyaları nümayiş etdirərək diqqətlərinə çatdırır.

- Bu nağıllarda hansı qəhraman xeyirxah, hansı qəddar obrazı ilə yadda qalıb? (fərziyyələr)

***Tədqiqat sualı:*** **İllustrasiya çəkmək üçün nəyi nəzərə almaq lazımdır ?**

**Personajları bir-birindən nə ilə fərqləndirmək olar?**

Fərziyyələr dinlənilir.

-Siz qruplarda illüstrasiyalar çəkəcəksiniz. Rəsmin yaxşı alınması üçün nəyi nəzərə almalısınız? Çəkərək diqqətli olun ki, tədqiqat sualına cavab verə biləsiniz.

---

**Müəllim üçün əlavə məlumat: (5 dəq)**

Nağılar hələ qədim zamanlarda yaranmışdı. Nağıl-reallıq və fantaziyalarla dolu bir aləmdir, özündə insanların yaşayış tərzini, hisslərini, arzu və əməllərini əks etdirir. Burada heyvanlar insan xarakterinin bəzi cəhətlərini özlərində əks etdirirlər. Məsələn, tülkü-hiyləgərlik, boz qurd – axmaqlıq və acgözlük, qoyun-ağılsızlıq, maral isə alicənablığı ilə fərqlənir( rəmzidir). Nağıllarda qeyri-adi sehrli gücə malik olan qəribə varlıqlar –cinlər, cadugərlər, pərilər, divlər, ifritələr, cırtdan adamlar iştirak edir. Onların bəziləri xeyirxah, bəziləri isə qəddar və zalım olurlar. Nağıllar Xeyirin Şər üzərində qələbə çalmasına, nağıl qəhrəmanlarının zalımlardan can qurtarmasına, arzularına çatmağa kömək edir. Nəticədə hər kəs etdiyi yaxşı və pis əməlin cavabını alır.

Mətnlə yanaşı kitabın səhifələrində rəssamların çəkdiyi təsvirləri də görmək olar. Belə rəsmlər kitabın nədən bəhs etdiyini bildirir və onlara **illüstrassiyalar** deyilir. İllustrasiyalarda kitab qəhrəmanlarını, hadisələrin harada baş verdiyini görmək olar.

(“İllustratio” (lat.) - işıqlandırmaq, əyani təsvir deməkdir.)

---

**Tədqiqatın aparılması**

Dərslikdə olan materiallar şagirdlərə mənimsənilir.

Müəllim şagirdlərə (Göyçək Fatma, Cırtdan, Tıq-Tıq xanım, Qoğal, Qırmızı papaq ) öz nağıl qəhrəmanları haqqında məlumat verməyi və nağıldakı xeyirxah, qəddar obrazları fərqləndirməyi tapşırır. Hər qrup nümayəndələri öz aralarında müzakirə etdikləri nağılın “+” və “-”qəhramanlarını **cədvəl** vasitəsilə tərtib edərək cavablandırırlar.

| | "+" qəhramanlar | "-" qəhramanlar |
|---|---|---|
| Cırtdan | | |
| Göyçək Fatma | | |
| Tıq-Tıq xanım | | |
| Qırmızı papaq | | |
| Qoğal | | |

Müəllim onların yaşıdlarının nağıllara çəkdikləri illüstrasiyaları da nümayiş etdirir.

Qruplar öz aralarında müzakirə edərək nağıldan hansı sujeti çəkəcəklərini fikirləşib tapırlar.

I qrup "Cırtdan"

II qrup "Göyçək Fatma"

III qrup "Tıq-Tıq xanım"

IV qrup "Qırmızı papaq"

V qrup "Qoğal" nağılına illüstrasiya çəkirlər.

Kompozisiya qaydalarına əməl etməklə rəsmi yerinə yetirirlər. Nəzərə alırlar ki, rəsmdə boşluq olmasın və personajlar arasında əlaqə olsun. İlüstrasiyalarda nağıl qəhramanlarının xarakterini, görünüşlərini, nə etdiklərini, harada olduqlarını, seçilmiş epizodu nəzərə alırlar.

Müəllim də onlara müəyyən istiqamətlər verir və iş zamanı bütün uşaqların iştirakının vacib olduğunu xüsusi vurğulayır. Sadə karandaşla rəsmi qurduqdan sonra təsviri rəngləyirlər.(iş dəftəri də ola bilər)

Bu zaman (inklyuziv) xüsusi qayğıya ehtiyac olan uşaqları da nəzərə alaraq nağıllara aid rəngləmələr verir.

Müəllim dərsin sonunda şagirdlərin ***özünü meyarlar üzrə qiymətləndirəcəyini*** xatırladır və meyarları yazı taxtasından asır.

**Məlumatın müzakirəsi və təşkili**

Qruplar rəsmlərini təqdim edərək asırlar. Bu zaman digər qruplar iş haqqında fikirlərini bildirirlər. Müəllim soruşur:

- Daha hansı nağıllarla tanışsınız? (fərziyyələr)
- Dərslikdəki illüstrasiyalar haqqında nə deyə bilərsiniz?
- Nağıllar bizə nələri öyrədir?
- Nağıllarda qəddar, yoxsa xeyirxah obraz daha çox yadda qalır?
- İllüstrasiya nədir və onu çəkərkən biz nəyi nəzərə almalıyıq?

**Nəticə və ümumiləşdirmə**

Müəllim şagirdin diqqətini tədqiqat sualına yönəldir.

**Qiymətləndirmə**

*Dərəcələr üzrə qiymətləndirmə* aparılır.

-İllüstrasiya çəkən zaman nağıl qəhramanlarının xarakteri, görünüşləri, nə etdikləri, harada olduqları, seçilmiş süjet nəzərə alınmışdır.

Xeyirxah personajlarını rəngləri nəzərə alınmışdır (isti və açıq rənglər).

Qəddar obrazların rəngləri nəzərə alınmışdır (soyuq və tünd rənglər).

**QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ**

| Qruplar / Meyarlar | “CIRTDAN” | “GÖYÇƏK FATMA” | “TIQ-TIQ XANIM” | “QIRMIZI PAPAQ” | “QOĞAL" |
|---|---|---|---|---|---|
| Qəhrəmanların xüsusiyyətləri | | | | | |
| Rəsmin yerləşdirilməsi kompozisiya | | | | | |
| Varlıqların ölçüləri arasındakı fərqin nəzərə alınması | | | | | |
| Rəng seçimi uyğun və səliqəlidir | | | | | |
| Tapşırığın vaxtında yerinə yetirilməsi | | | | | |
| Nəticə | | | | | |

**V sinif**

**Mövzu: Təsviri incəsənət zamanın aynasıdır.**

**Standartlar:** 1.1.1.; 3.1.1.

**Məqsəd:** 1. Təsviri incəsənət nümunələrində insanların həyat, məişət və mədəniyyətinin əks olunduğunu sadə şəkildə izah edir.

2. Təsviri sənət növlərini verilmiş nümunələr əsasında ayıraraq münasibət bildirir.

**Inteqrasiya:** Az-d. 1.2.4.; Az-t. 1.2.2.; 5.1.1.; İnf. 1.2.1.

**İş forması:** kollektiv və qruplarla iş.

**İş üsulları:** Beyin həmləsi, BİBÖ, müzakirə, təqdimat

**Resurslar:** V sinif üçün dərslik, BİBÖ cədvəli, ən qədim dövrə aid təsvirlər, müxtəlif sənət növlərinə aid nümunələr, slaydlar, yaxud fotoşəkillər, proyektor, iş vərəqləri.

**Motivasiya**: Müəllim şagirdlərə sualla müraciət edir:

- Təsviri incəsənət nümunələrinin tarixi nə vaxtdan başlayır?
- Təsviri incəsənəti tarixlə necə əlaqələndirmək olar?

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

Şagirdlərin cavabları əsasında BİBÖ cədvəlinin; “Bilirəm” və” İstəyirəm biləm” qrafası doldurulur. Şagirdlərə problem suallarla, təsvirlərlə (slaydlarla) nümayiş edilir və onlar problem ətrafında tədqiqata yönləndirilir.

**Tədqiqat sualı: Təsviri sənət nümunələri nəyi əks etdirir?**

(Şagirdlərin fərziyyələri dinlənilərək yazı taxtasında BİBÖ cədvəlinin qrafalarında qeyd olunur).

**Tədqiqatın aparılması**: Şagirdlər 4 qrupa bölünür və onlara qədim dövrlərdə yaradılmış maddi mədəniyyət nümunələri və aşağıdakı suallar yazılmış iş vərəqləri verilir:

I qrup: Verilmiş qədim əşyalardan hansı məqsədlər üçün istsfadə olunmuşdur?

II qrup: Qədim sənətkarlıq nümunələri bizə hansı məlumatları verir?

III. qrup: Qədim əşyaların üzərəi hansı naxışlarla və nə üçün bəzədilirdi?

IV qrup: Müasir dövrdə evinizdə qədim məişət əşyalarına bənzəyən hansı əşyalardan istifadə edirsiniz? Onlar hansı materiallardan hazırlanır və nə üçün istifadə olunur?

**Məlumat mübadiləsi:** Qrup liderləri iş vərəqlərini təqdim edirlər. Qruplar əldə olunmuş məlumatları dinləyərək lazım gəldikdə əlavələr edirlər. Mübadilə əsasında şagirdlər yazdıqlarına düzəlişlər edir, bəzi dəqiqləşmələr aparılır.

**Məlumatların müzakirəsi:** Verilmiş suallar əsasında şagirdlər müzakirəyə başlayır.

**Nəticənin çıxarılması:** Müxtəlif dövrlərdə yaradılmış təsviri sənət nümunələri nəyi əks etdirir? Nəticədə şagirdlərin cavabları ümumləşdirilərək BİBÖ cədvəlinin; "Öyrəndim" qrafasında qeyd olunur.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

**Qiymətləndirmə:** Şagirdlər tərəfindən aşağıdakı meyarlar əsasında qiymətləndirilir.

1. Qədim və müasir sənət nümunələrini fərqləndirir.
2. Qədim sənət nümunələrindən hansı məqsədlər üçün istifadə olunduğunu nümunələr əsasında izah edir.
3. Nümayiş etdirilən sənətkarlıq nümunələrinə estetik münasibət bildirir.

## VI sinif

**Mövzu:** "Payız mənzərəsi".

**Məşğələnin növü:** Mövzu üzrə rəsm.

**Alt standartlar:**

**1.2.1.** Təsviri incəsənətin növ və janrlarını (natürmort, mənzərə, portret) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

**2.1.1.** Həyati görüntüləri natürmort, mənzərə, portret janrlarında real və abstrakt təsvir edir.

**2.1.2.** Həyati görüntülərin real və abstrakt təsvirində müxtəlif vasitələrdən (pastel tabaşirləri, sulu boyalar, plastilin və ya gil) istifadə edir.

**İstifadə olunan iş formaları**: kiçik qrup işi; fərdi iş.

**İstifadə olunan üsullar:** Anlayışın çıxarılması, dəyirmi masa (karusel), qrup müzakirəsi.

**Fənnlərarası inteqrasiya: Az-d. 1.1.2.; İnf. 3.3.2.; Az-t. 5.1.3.**

**Dərsin məqsədi :**

**a)** Həyati görüntüləri (payız fəslini) kompozisiya və perspektivin qanununa əsasən real tərzdə təsvir edir;

**b)** Həyati görüntülərin (payız fəslinin) real təsvirində akvarel və quaşdan (və ya rəngli karandaşlardan) istifadə edir;

**c)** Rəssamların mənzərə janrında və boyakarlıq növündə olan əsərlərində həyati görüntülərin təsvirini (payız fəslinin xüsusiyyətlərini) bədii-estetik baxımdan təhlil edir.

**Resurslar:**

**Müəllim üçün:** praktik işin mərhələlərinə dair əyani vəsait, rəssamlarının mənzərə janrında olan əsərlərindən foto nümunələr, iş vərəqləri, marker, dərslik və s.

**Şagird üçün:** rəsm albomu, akvarel, quaş, fırça, su qabı, sadə karandaş, pozan, rəngli karandaşlar, dərslik və s.

**Dərsin gedişi:**

***Motivasiya:***

Müəllim yazı lövhəsinin mərkəzində sual işarə yazılmış dairəvi vərəq bərkidir, ətrafına isə rəssam əsərlərinin f asır (və ya slayd vasitəsilə lövhədə nümayiş etdirir) və sinfə suallarla müraciət edir:

- Gördüyünüz əsərləri rəssamlar hansı janrda təsvir ediblər? *(mənzərə)*
- Bu mənzərələrin oxşarlığı nədədir? *(rənglərdə, payız fəslidir).*
- Rəssamlar payız fəslinin təsvirini təsviri incəsənətin hansı növündə işləyiblər? *(boyakarlıq).*



Müəllim sual işarəsi olan vərəqi açır və cavabların doğru olduğunu şagirdlərlə birgə müəyyən edirlər.

Şagirdlər əsərlərin müəllifi və adları ilə tanış olurlar.

- ***Bağır Maratlı "Mənzərə"*** ;
- ***Böyükağa Mirzəzadə "Payız";***
- ***İsaak Levitan "Payız mənzərəsi";***
- ***Səttar Bəhlulzadə "Mənzərə"***

***Qeyd:*** *Müəllim dərsin motivasiya mərhələsini* **Power Point** *proqramında əvvəlcədən hazırladığı slaydlar vasitəsilə nümayış etdirə bilər.*

***Tədqiqat sualı:*** **Payız mənzərəsini təsvir etmək üçün hansı qaydalara əməl etmək lazımdır? (nəyi bilmək lazımdır?)**

Səslənilən şagird fərziyyələri löhvədə qeyd olunur.

***Tədqiqatın aparılması:*** Müəllim sarı, narıncı, qırmız, qəhvəyi rəngli kağızdan kəsilmiş yarpaqlar vasitəsi ilə şagirdləri qruplara ayırır (rəssam əsərlərinin surəti ilə də qruplara ayırmaq olar). Sonra şagirdlərin payız fəsli, onun xüsusiyyətləri, təsvir zamanı hansı qaydalara əməl etmək lazım olduğu haqqında biliklərini yoxlamaq üçün qruplara mövzuya dair 4-5 açıq sual verir. Bunun üçün müəllim A2 formatlı vərəqlər tərtib edir və orada sualları müxtəlif rənglərdə olan flomasterlərlə yazır. Qrupların hər birinə suallara aid cavabı həmin rəngdə olan flomasterlə yazmağı tapşırır.




Qrup vərəqlərdəki yazıları nəzərdən keçirir və öz əlavələrini edir. Müəllim bir-birinə ötürmə prosesində gecikmələr olmaması üçün nəzarət edir. Bu proses qrupların hamısı hər bir iş vərəqini nəzərdən keçirib əlavələr edənədək davam edir.

Sonra bu vərəqlər ilkin qrupa qaytarılır, təqdimatlar olur və qısa müzakirə edilir.

***Qeyd:*** *Əgər dəyirmi masa (karusel) üsulu, fikrinizcə, çox vaxt aparsa, müzakirəni, sadəcə, sual və cavabla yerinə yetirmək olar.*

III QRUP
"QIRMIZI YARPAQ"

***1. İsaak Levitan "Payız mənzərəsi"***
əsərində üfüq xətti, perspektivin qanunu haqqında



II QRUP
NARINCI YARPAQ

1. ***Böyükağa Mirzəzadənin "Payız"*** əsərində hava perspektivinin sizdə yaratdığı təəssüratı şərh edin.

___________________________________

___________________________________

___________________________________



2. Payız fəslində bağlarda, bostanlarda yetişən meyvə və tərəvəzləri çəkərək göstərin.

3. Payız fəslinin əsas xüsusiyyətlərini əks etdirən rəsm çəkin. Əvvəlcə üfüq xəttini müəyyən edin, sonra isə hava perspektivini, günün hansi vaxti olduğunu boyalarla göstərməyi unutmayın.

Təqdimatdan sonra müəllim hər qrupa müxtəlif taşırıqlar qeyd olunmuş iş vərəqləri paylayır və qiymətləndirmə meyarları ilə onları tanış edir. Şagirdləri dərslikdə verilmiş mövzu ilə tanış olurlar.

## IV QRUP
## "YAŞIL YARPAQ"



1. ***Səttar Bəhlulzadənin "Mənzərə"*** əsərinin sizdə yaratdığı təəssüratı şərh edin.

______________________________________
______________________________________
______________________________________

2. Payız fəslində təbiətdə hansı dəyişikliklər baş verdiyini müəyyən məntiqi ardıcıllıqla sadalayın:

______________________________________
______________________________________
______________________________________
______________________________________

3. Mənzərənin istənilən növündə payız fəslini təsvir edin.

***<u>Məlumatın mübadiləsi, müzakirəsi və təşkili :</u>*** Qruplar işlərini təqdim edirlər. Digər qruplar fikirlərini bildirirlər. Hər bir qrupun fəaliyyəti meyarlar cədvəlinə uyğun təhlil olunaraq qiymətləndirilir.

***<u>Ümumləşdirmə və nəticə</u>***:

— "Payız mənzərəsi" mövzusunu necə və hansı vasitələrlə təsvir etmək olar? Bunun üçün hansı qaydalara əməl etdiniz?

— Mənzərə janrı təsviri incəsənətin digər janrlarından hansı xüsusiyyətlərinə görə fərqlənir?

— Payız fəslini digər fəsillərdən fərqləndirən xüsusiyyətlər hansılardır?

Şagirdlərin cavabları əvvəlki fərziyyələri ilə müqayisə olunur.

Müəllim şagirdlərə rəssamların payız mövzusunda yaratmış əsərlərindəki kompozisiya, rəng həllini sadə dildə estetik baxımdan şərh edir.

Daha sonra şagirdlərin yazı lövhəsində nümayiş etdirdikləri qrup işlərini şagirdlərlə birgə təhlil edərək qiymətləndirir.

***<u>Qiymətləndirmə</u>***

Qruplar müəllim əvvəlcədən meyarlar əsasında tərtib etmiş qrupun özünü-qiymətləndirmə cədvəlindən istifadə edirlər.

| *№* | *Qruplar* | *Meyarlar* | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Rəssam əsərlərini təhlil etdir | Payız fəslinin xüsusiyyətlərini göstərə bilir | Rəsmlərdə kompozisiya və rəng həllini tapır | Perspektivin qanunları nəzərə alır | Tapşırığı vaxtında və keyfiyyətli yerinə yetirir | Yaradıcı münasibət bildirir | Əməkdaşlıq edir |
| 1. | ***Sarı yarpaq*** | | | | | | | |
| 2. | ***Narıncı yarpaq*** | | | | | | | |
| 3. | ***Qırmızı yarpaq*** | | | | | | | |
| 4. | ***Yaşıl yarpaq*** | | | | | | | |

## 2.4. Təsviri incəsənət fənninin məzmun standartlarının şərhi[1]

| | STANDART | MƏZMUN | AÇAR SÖZLƏR |
|---|---|---|---|
| № | **I SİNİF** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1. | **Təsviri və dekorativ sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.** | | |
| 1.1.1. | Təsviri sənətin əsas növlərini (qrafika, rəngkarlıq, heykəltəraşlıq) sadalayır. | Təsviri sənətin qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərinə aid nümunələri tanıyır, haqqında biliklərə malik olduğunu verilmiş nümunələr əsasında izah edir. | Təsviri sənət, növlər, qrafika, rəngkarlıq, heykəltəraşlıq, rəssam, heykəltəraş, alətlər, materiallar üsullar, vasitələr. |
| 1.1.2. | Dekorativ-tətbiqi sənətin əsas növlərini (xalçaçılıq, misgərlik, milli geyim) sadalayır. | Azərbaycanda milli dekorativ sənətin xalçaçılıq, misgərlik, milli geyim növlərinə aid nümunələri seçərək tanıyır, haqqında məlumatları sadə formada izah edir | Xalq yaradıcılığı, dekorativ sənətlər, dekor, xalçaçılıq, misgərlik, milli geyim, həndəsi və nəbati naxışlar, alətlər, materiallar. |
| 1.1.3. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrini (Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini sadalayır. | Təsviri sənətinin qrafika, rəngkarlıq və heykəltəraşlıq növlərində sənət əsərləri yaradan Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarını (Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov) və onların ən məşhur əsərlərini tanıyır | Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə, Fuad Əbdürrəhmanov təsviri sənətin növləri, qrafika, rəngkarlıq, heykəltəraşlıq, bədii əsər, rəssam, heykəltəraş, illüstrasiya, bədii ifadə vasitələri. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Təsviri sənət üzrə zəruri sadə təsvir alətlərindən istifadə bacarıqları nümayiş etdirir.** | | |
| 2.1.1. | Sadə təsvir alətlərindən (karandaş, qələm, fırça, flamaster, kömür) təyinatına görə istifadə edir. | Sadə təsvir alətlərindən və materiallardan (sadə və rəngli karandaşlar, qələm, fırça, flamaster, kömür) təyinatına görə istifadə edərək, düz və əyri səthli, canlı və cansız əşyaların, sadə süjetli rəsmlərin, dekorativ | Sadə təsvir alətləri - karandaş, qələm, fırça, flamaster, kömü, rəsm, natura, natürmort, dekorativ, süjet, kompozisiya, perspektiv, düz və əyri səthli |

[1] Məzmun standartalrının şərhinə aid verilmiş izahlar və aşar sözlər ancaq tövsiyə xarakteri daşıyır. Siniflər üzrə şagirdlərin inkişaf səviyyəsinə və marağına uyğun olaraq müvafiq dəyişikliklər və əlavələr etməklə onlara yaradıcı yanaşmaq məqsədəuyğun hesab edilir.

| | | | |
|---|---|---|---|
| | | kompozisiyaların, sadə formalı əşyaların təsvirini (forma, sürət və vüsət baxımından) çəkir və yapır. | əşyalar, format, sürət, vüsət, həcm. |
| 2.1.2. | Sadə bədii ifadə vastələrindən (xətt, cizgi, ton) istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir. | Təsviri sənətin qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərinə aid bədii ifadə vasitələri haqqında bilir və sadə qrafik təsvirlərin çəkilməsində xətt, cizgi və tondan istifadə bacarıqlarını nümayiş etdirir. | Bədii ifadə vasitələri, forma, məzmun kompozisiya, perspektiv, xətt, cizgi, ton, ştrix. |
| 2.1.3. | Əsas rəngləri tanıyır, onları sadalayır. | Təsviri sənətin rəngkarlıq növünə aid nümunələri fərqləndirir, əsas və qarışıq, isti və soyuq rəngləri tanıyır, sadə təsvirlərin yaradılmasında onlardan istifadə edir. | Əsas və qarışıq, isti və soyuq rənglər, düz və əyri səthli əşyalar, akvarel və quaş boyaları, fırça. |
| 2.1.4. | Sadə və rəngli karandaşlarla səthi təsvir yaradır. | Təsviri sənətin rəngkarlıq növünə aid nümunələri tanıyır, əsas və qarışıq, isti və soyuq rəngləri seçir, sadə təsvir vasitələri ilə naturadan, yaddaşdan təsvirlər çəkir. | Bədii ifadə vasitələri, xətlər, ştrix, ton, tonallıq, format, forma, kompozisiya, perspektiv (məsafə anlayışı), düz və əyri səthlər. |
| **2.2.** | **Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.** | | |
| 2.2.1. | Müxtəlif növ xətlərdən sadə həndəsi fiqurlar çəkir, plastik materialdan sadə fiqurlar düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar qurur. | Sadə təsvir alətlərindən (sadə və rəngli karandaşlar, flamasterlər) və materiallardan (rəngli kağızlar, plastilin, təbiət materialları) istifadə etməklə sadə fiqurlar düzəldir, hazır fiqurlardan kiçik kompozisiyalar quraşdırır. | Dekor, format, forma, məzmun, düzsəthli və əyrisəthli əşyalar, konstruksiya, alətlər və materiallar, həndəsi və nəbati naxışlar, işıq-kölgə. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Verilmiş sadə təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.** | | |
| 3.1.1. | Verilmiş sadə formalı təsvir və əşyaları şərh edir. | Təsviri sənətin qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərinə aid verilmiş nümunələri tanıyır, münasibətini izah edir. | Təsviri və dekorativ sənət növləri, qrafika, rəngkarlıq, heykəltəraşlıq, rəssam, heykəltəraş, sənətkar, kompozisiya, illüstrasiya. |
| 3.1.2. | Verilmiş əsərlərdə rəng çalarlarını ayırır və adlandırır. | Təsviri sənətin qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərinə aid verilmiş nümunələıri tanıyır, əsas və qarışıq, isti və soyuq rəngləri fərqləndirərək izah | Rəngkarlıq, rəssam, bədii ifadə vasitələri, əsas və qarışıq rənglər, isti və |

| | | | |
|---|---|---|---|
| | | edir. | soyuq rənglər. |

| | STANDART | MƏZMUN | AÇAR SÖZLƏR |
|---|---|---|---|
| № | **II SİNİF** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1. | **Təsviri və dekorativ sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.** | | |
| 1.1.1. | Təsviri sənətin əsas növ və janrlarını (animalist, mənzərə, natürmort) sadalayır. | Təsviri sənətin əsas növlərini (qrafika, rəngkarlıq, heykəltəraşlıq) və janrlarını (animalist, mənzərə, natürmort) sadalayır, verilmiş nümunələri seçərək qruplaşdırır, haqqında məlumatları izah edir. | Növlər, janrlar, kompozisiya və perspektiv qanunları, xətti və hava perspektivi, üfüq xətti, forma, məzmun, animalist, mənzərə, natura, natürmort. |
| 1.1.2. | Dekorativ-tətlbiqi sənətin əsas növlərini (tikmə, zərgərlik, dulusçuluq) nümunələrə görə fərqləndirir. | Dekorativ-tətbiqi sənətin əsas növlərini - tikmə, zərgərlik, dulusçuluq tanıyır, haqqında sadə məlumatları izah edir, verilmiş sənət nümunələri əsasında istifadə olunan alətləri, materialları tanıyır, fərqləndirərək qruplaşdırır. | Sənətkarlıq, dekorativ-tətbiqi sənət, dekor, tikmə, zərgərlik, dulusçuluq, alətlər, materiallar. |
| 1.1.3. | Azərbaycanın görkəmli təsviri sənət nümayəndələrini (Mirzə Qədim İrəvani, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Cəlal Qaryağdı) və onların ən məşhur əsərlərini tanıyır. | Təsviri sənətinin növ və janrlarında sənət əsərləri yaradan Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarını (Mirzə Qədim İrəvani, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Cəlal Qaryağdı) tanıyır və onların ən məşhur əsərlərinin adlarını sadalayır, seçərək qruplaşdırır. | Mirzə Qədim İrəvani, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Cəlal Qaryağdı. təsviri sənətin növ və janrları, qrafika, rənkarlıq, heykəltəraşlıq, rəssam, heykəltəraş, forma, məzmun, bədii ifadə vasitələri |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Təsviri sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqlarını nümayiş etdirir.** | | |
| 2.1.1. | Təsvir alətləri (sadə və rəngli karandaşlar, flamasterlər) vasitəsilə təsvirlər yaradır. | Sadə və rəngli karandaşlar, rəngli kağızlar, flomasterlər və plastilindən istifadə etməklə sadə formalı canlı və cansız əşyaların təsvirini çəkir və yapır, 1-2 fiqurlu sadə | Format, forma, məzmun, natura, natürmort, kompozisiya, perspektiv, süjet, mənzərə. |

| | | | |
|---|---|---|---|
| | | natürmortları, mövzu üzrə və dekorativ kompozisiyaları təsvir edir, sadə tərtibat və dekorativ aplikasiya işləri yerinə yetirir. | |
| 2.1.2. | Sadə bədii ifadə vasitələrindən (rəng, işıq-kölgə, həcm) istifadə qaydalarını mənimsədiyini nümayiş etdirir. | Təsviri sənətin müxtəlif növ və janrlarına aid bədii ifadə vasitələrini seçir, sadə təsvirlərin yaradılmasında rəng, işıqkölgə, həcm və s. bu kimi bədii ifadə vasitələrindən istifadə bacarıqlarını nümayiş etdirir. | Bədii ifadə vasitələri, ştrix, forma, məzmun, kompozisiya, perspektiv, rəng, işıq-kölgə, həcm. |
| 2.1.3. | Sadə əşyaları nisbi dəqiqliklə təsvir edir. | Təsviri sənətin əsas növ və janrlarına aid nümunələri seçir, sadə formalı 1-2 fiqurlu natürmortları perspektiv qanunlara uyğun naturadan nisbi dəqiqliklə təsvir edir. | Format, forma, məzmun, tonallıq, kompozisiya, perspektiv, natura, natürmort, işıq-kölgə, material. |
| 2.1.4. | Əsas rənglərdən alınmış çalarları adlandırır. | Təsviri sənətin rəngkarlıq növünə və janrına aid nümunələri seçir, naturadan, yaddaşdan, təsəvvürdən, təxəyyüldən sadə təsvirlər çəkərkən əsas rənglərdən alınmış çalarlardan məqsədyönlü istifadə edir. | Əsas və qarışıq, isti və soyuq rənglər, akvarel və quaş boyaları, çalarlar, fırçalar, palitra, kompozisiya. |
| **2.2.** | Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir | | |
| 2.2.1. | Sadə materiallardan (rəngli kağız, karton, parça, təbiət materialları) həndəsi fiqurlardan və təbiət formalarından ritmik, dekorativ kompozisiya tərtib edir. | Sadə təsvir alətlərindən və materiallardan (rəngli kağız, karton, parça, plastilin, təbiət materialları) həndəsi fiqurlardan və təbiət formalarından müstəvi səthi və həcmli ritmik, dekorativ kompozisiyalar tərtib edir. | Dekorativ, forma, məzmun, kompozisiya, konstruksiya, alətlər, materiallar, üsullar, vasitələr, həndəsi və nəbati naxlar, işıq-kölgə. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.** | | |
| 3.1.1. | Verilmiş sadə təsvirləri, əşyaları məzmun və forma baxımından şərh edir. | Təsviri və dekorativ sənətin əsas növlərinə aid verilmiş nümunələri forma və məzmun, estetik təsir baxımından seçir, qruplaşdırır şərh edir. | Forma, məzmun, konstruksiya, kompozisiya, təsviri və dekorativ sənət, növ, janr, animalist, mənzərə, natürmort. |

| | | | |
|---|---|---|---|
| 3.1.2. | Verilmiş əsərdə rəng çalarlarını izah edir. | Təsviri sənətin əsas növ və janrlarına aid nümunələri seçir, forma, məzmun, kalorit, rəng çalarlarına görə estetik münasibət bildirir. | Növ və jarlar, freska, mozika, dəzgah boyakarlığı, forma, məzmun, kompozisiya, rəngkarlıq, əsas və qarışıq, isti və soyuq, xpomatik və axromatik rənglər, kalorit. |

| | STANDART | MƏZMUN | AÇAR SÖZLƏR |
|---|---|---|---|
| № | **III SİNİF** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1. | **Təsviri və dekorativ sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.** | | |
| 1.1.1. | Təsviri sənətin növ və janrlarını (portret məişət) nümunələr əsasında fərqləndirir. | Təsviri sənətin növ (qrafika, rəngkarlıq, heykəltəraşlıq) və janrlarına aid (portret, məişət, animalist, mənzərə, natürmort) nümunələri xarakterik xüsusiyyətlərinə görə fərqləndirir, qruplaşdırır, haqqında sadə məlumatları şərh edir | Növlər, janlar - portret, məişət, animalist, mənzərə, natürmort, kompozisiya və perspektiv qanunlar xətti, hava və əks perspektiv qaydaları, forma, məzmun, xarakter, xüsusiyyət |
| 1.1.2. | Dekorativ-tətbiqi sənətin əsas növlərini (ağac üzərində oyma, keramika, metal üzərində döymə) nümunələrə görə fərqləndirir. | Dekorativ-tətbiqi sənətin daş və ağac üzərində oyma, keramika, dulusçuluq, metal üzərində döymə və s. növlərinə aid nümunələri, istifadə olunan materialları, bədii xüsusiyyətlərinə görə fərqləndirir, müqayisə edir və qruplaşdırır. | Dekorativ-tətbiqi sənət, muzeylər, sərgi salonları, daş və ağac üzərində oyma, keramika, metal üzərində döymə, alətlər, materiallar. |
| 1.1.3. | Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (Qəzənfər Xalıqov, Ələkbər Rzaquliyev, Tokay Məmmədov, Lətif Kərimov, Toğrul Nərimanbəyov) və onların ən məşhur əsərlərini fərqləndirir. | Təsviri və dekorativ sənətinin növ və janrlarında sənət əsərləri yaradan Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarını (Qəzənfər Xalıqov, Ələkbər Rzaquliyev, Tokay Məmmədov, Lətif Kərimov,Toğrul Nərimanbəyov) tanıyır, ən məşhur əsərlərini seçərək fərqləndirir. | Qəzənfər Xalıqov, Ələkbər Rzaquliyev, Tokay Məmmədov, Lətif Kərimov, Toğrul Nərimanbəyov, təsviri sənətin növ və janlarır, qrafika, rəngkarlıq, heykəltəraşlıq, rəssam, heykəltəraş, forma, məzmun, mate- |

| | | | |
|---|---|---|---|
| | | | rial, bədii ifadə vasitələri. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Təsviri sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqlarını nümayiş etdirir.** | | |
| 2.1.1. | Təsvir alətləri (rəngli karandaşlar, flamaster və sulu boyalar) vasitəsiilə sadə təsvirlər yaradır. | Təsvir alətləri (rəngli karandaşlar, flamasterlər, sulu boyalar) və materiallar vasitəsilə təsviri sənətin növ və janrlarına uyğun sadə həyat və təbiət hadisələrinin, süjetli və dekorativ kompozisiyaların, tərtibat işlərinin, 2-3 fiqurlu sadə natürmortların, canlı və cansız əşyaları, müstəvi üzərində və həcmli təsvir edir. | Təsvir vasitələri - rəngli karandaşlar, flamaster və sulu boyalar, növ, janr, forma, məzmun, kompozisiya, perspektiv, işıq, kölgə, həcm, natürmort, mənzərə, portret, məişət. |
| 2.1.2. | Təsviri və dekorativ kompozisiyalarda bədii ifadə vasitələrindən (kolorit, ton, siluet) istifadə bacarıqlarını nümayiş etdirir. | Təsviri və dekorativ sənətin növ və janrlarına aid bədii ifadə vasitələrini fərqləndirir və təsvirlərin yaradılmasında, onlardan məqsədyönlü istifadə bacarıqlarını nümayiş etdirir | Bədii ifadə vasitələri, forma, məzmun, kompozisiya, perspektiv, bədii ifadə vasitələri, rəng, kalorit, işıq-kölgə, həcm, material. |
| 2.1.3. | Sadə üçölçülü əşyaları naturadan nisbi dəqiqliklə təsvir edir. | Təsviri sənətin növ və janrlarına aid nümunələri fərqləndirir sadə formalı 2-3 fiqurlu əşyaları naturadan perspektiv qaydalara uyğun nisbi dəqiqliklə, müstəvi səth üzərində və ya həcmli təsvir edir. | Format, forma, məzmun, həcm, ton, cisim, heykəltəraşlıq, ştrix, natura, natürmort, kompozisiya, perspektiv, bədii-ifadə vasitələri, palitra, materiallar. |
| 2.1.4. | Rənglərdən istifadə edərək sadə kompozisiyalar qurur. | Təsviri sənətin rəngkarlıq növünə və janrına aid nümunələri seçərək qruplaşdırır, naturadan, yaddaşdan, təsəvvürdən, təxəyyüldən sadə və dekorativ kompozisiyalar çəkərkən müxtəlif rənglərdən, çalarlardan məqsədyönlü istifadə edir. | Forma, məzmun, kompozisiya, perspektiv (hava perspektivi), sulu boyalar, kalorit,isti və soyuq, xromatik və axromatik rənglər, alətlər, materiallar. |
| **2.2.** | Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | | |
| 2.2.1. | Sadə dekor (bəzək) kompozisiyaları məişət predmetlərinə tətbiq edir. | Məişət əşyalarını fərqləndirir və hazırladığı sadə əşyalara bədii forma, məzmun dekorativ bəzək kompozisiyaları tətbiq etməklə tərtibat verir. | Forma, məzmun, kompozisiya, konstruksiya, alətlər və materiallar, dekorativ sənətlər, məişət əşyaları, dekrativ rəng həlli, milli naxışlar, üsullar, |

| | | | |
|---|---|---|---|
| | | | vasitələr. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.** | | |
| 3.1.1. | Verilmiş sadə və mürəkkəb əşyaları məzmun və forma baxımından şərh edir. | Təsviri və dekorativ sənətin növlərinə aid verilmiş nümunələri forma və məzmun baxımından fərqləndirir, qruplaşdıraraq, onlara estetik münasibət bildirir. | Forma, məzmun, konstruksiya, kompozisiya, növ, janr, animalist, mənzərə, natürmort, portret, məişət. |
| 3.1.2. | Verilmiş əsərlərdə rəngləri məna çalarlarına görə şərh edir. | Təsviri sənətin əsas növ və janrlarına aid nümunələri fərqləndirir, qruplaşdıraraq forma və məzmun, kalorit kompozisiya həllinə estetik münasibət bildirir. | Növ və janrlar, forma, məzmun, kompozisiya, perspekriv, rəngkarlıq, əsas və qarışıq, tünd və açıq, isti və soyuq, xromatik və axromatik rənglər, kalorit. |

| | **STANDART** | **MƏZMUN** | **AÇAR SÖZLƏR** |
|---|---|---|---|
| № | **IV SİNİF** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1. | **1.1. Təsviri və dekorativ sənətin əsas növlərini tanıdığını nümayiş etdirir.** | | |
| 1.1.1. | Təsviri və dekorativ sənət növlərini əsas xüsusiyyətlərinə görə şərh edir. | Təsviri (qrafika, rəngkarlıq, heykəltəraşlıq) və dekorativ sənət (xalçaçılıq, keramika, misgərlik, tikmə, zərgərlik, dulusçuluq, ağac üzərində oyma, metal üzərində döymə və s.) növlərinə aid nümunələri fərqləndirir haqqında kiçik təqdimatlar edir. | Növ və janrlar, qrafika, rəngkarlıq, heykəltəraşlıq, dekorativ-tətbiqi sənətlər, xalçaçılıq, keramika, misgərlik, tikmə, zərgərlik, dulusçuluq, xalq yaradıcılığı, sənətkarlıq, memarlıq, rəssamlıq, heykəltəralıq, illüstrasiya, monumental, monumental-dekorativ, dəzgah, miniatür. |
| 1.1.2. | Təsviri və dekorativ sənətin növ və janrları barədə | Təsviri və dekorativ sənətin əsas növ və janlatrına | Muzey, kolleksiya, təsviri və dekora- |

| | | | |
|---|---|---|---|
| | kiçik təqdimatlar edir. | aid nümunələri fərqləndirir, estetik xüsusiyyətlərinə, istifadə olunan materiallara görə müqayisə edir və haqqında kiçik təqdimatlar edir. | tiv sənətlər, növ və janrlar, milli adət-ənənələr, xalq yaradıcılığı, alətlər, avadanlıqlar, materiallar. |
| 1.1.3. | Azərbaycanın görkəmli təsviri və dekorativ sənət nümayəndələrini (Salam Salamzadə, Elbəy Rzaquliyev, Cəfər Müciri, Tahir Salahov, Ömər Eldarov) və onların ən məşhur əsərlərini fərqləndirir. | Təsviri və dekorativ sənətinin növ və janrlarında sənət əsərləri yaradan Azərbaycanın görkəmli rəssam və heykəltəraşlarını (Salam Salamzadə, Elbəy Rzaquliyev, Cəfər Müciri, Tahir Salahov, Ömər Eldarov) tanıyır, onların ən məşhur əsərlərini fərqləndirir, haqqında kiçik təqdimatlar edir | Salam Salamzadə, Elbəy Rzaquliyev, Cəfər Müciri, Tahir Salahov, Ömər Eldarov, təsviri və dekorativ sənətlər, növ və janrlar, xalq yaradıcılığı nümunələri, rəssam, xalçaçırəssam, bədii ifadə vasitələri heykəltəraş. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Təsviri sənət üzrə bədii ifadə vasitələrindən istifadə bacarıqlarını nümayiş etdirir.** | | |
| 2.1.1. | Fırçadan istifadə etməklə sulu boyalar (akvarel və quaş) vasitəsilə sadə təsvirlər, dekorativ kompozisiyalar yaradır. | Akvarel və quaş boyaları vasitəsilə təsviri sənətin rəngkarlıq növ və janrlarına (natürmort, mənzərə, məişət) uyğun sadə həyat və təbiət hadisələrinin, 2-3 fiqurlu natürmortların dekorativ kompozisiyaların, ornamentlər, rəngli dekorativ kompozisiyalar yaradır. | Növ, janr, forma, məzmun, kompozisiya, perspektiv, işıq, kölgə, həcm, natura, natürmort, yaddaş, təsəvvür, təxəyyül. |
| 2.1.2. | Bədii ifadə vasitələrindən istifadə etməklə sadə təsvirlər və dekorativ kompozisiyalar yaradır. | Təsviri və dekorativ sənətin növ və janrlarında verilən bədii ifadə vasitələrinə aid təqdimatlar edir və sadə təsirlərin yaradılmasında onlardan istifadə bacarıqlarını nümayiş etdirir. | Bədii ifadə vasitələri, rəng, kalorit, işıq-kölgə, həcm, material, forma, məzmun, kompozisiya, perspektiv, müşahidə, müqayisə, təhlil, tətbiq, təqdimat. |
| 2.1.3. | Sadə üçölçülü əşyaları naturadan və yaddaşdan nisbi dəqiqliklə təsvir edir. | Təsviri sənətin növ və janrlarına aid nümunələri fərqləndirir, sadə formalı 3-4 fiqurlu əşyaları naturadan və yaddaşdan perspektiv qaydalara uyğun nisbi dəqiqliklə, səth üzərində və ya həcmli təsvir edir. | Format, forma, məzmun, kompozisiya, perspektiv, natura, natürmort, bədii-ifadə vasitələri, palitra, materiallar, yaddaş, müşahidə, müqayisə, təhlil, tətbiq, təqdimat |
| 2.1.4. | Əşya və hadisələri praktik yolla təsvir edir. | Təsviri sənətin müxtəlif növlərinə və janrına aid nümunələri fərqləndirir, naturadan, yaddaşdan, | Forma, məzmun, kompozisiya, perspektiv, xətti və hava perspektivi, sulu |

| | | | |
|---|---|---|---|
| | | təsəvvürdən, təxəyyüldən sadə əşya və hadisələri, dekorativ kompozisiyaları təsvir alətlərindən və materiallarından istifadə etməklə təsvir edir. | boyalar, kalorit, bədii ifadə vasitələri, alətlər, materiallar, müşahidə, müqayisə, təhlil, tətbiq |
| **2.2.** | **Sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.** | | |
| 2.2.1. | Müxtəlif əşyaların xarici səthində bəzək kompozisiyaları yaradır. | Dekorativ sənət növlərinə aid müxtəlif nümunələri fərqləndirir, xarici səthində müxtəlif üsullarla dekorativ naxışlar, bəzək kompozisiyaları yaradaraq təqdimatlar edir. | Forma, məzmun, kompozisiya, dekorativ sənətlər, məişət və bəzək əşyaları, kontrast rənglər. |
| 2.2.2. | Real əşya və hadisələri mücərrəd formada təsvir edir. | Təsviri və dekorativ sənət növlərinə aid nümunələrdə real və mücərrəd (abstrakt) formaları, obraz və hadisələri fərqləndirir, onlara bənzər təsvirlər yaradır. | Forma, məzmun, kompozisiya və perspektiv qanunlar, qaydalar, üsullar, vasitələr, konstruksiya, real və mücərrəd (abstrakt) forma, obraz, xarakter, cəmiyyət və təbiət hadisələri. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə münasibət bildirir.** | | |
| 3.1.1. | Verilmiş əsərlərdə və əşyalarda məzmun və forma arasındakı əlaqəni şərh edir. | Təsviri və dekorativ sənətin müxtəlif növlərinə aid verilmiş nümunələri forma və məzmun baxımından əlaqələndirərək qruplaşdırır, bədii-estetik münasibət bildirərək şərh edir. | Təsviri və dekorativ sənətlər, növ, janr, forma, məzmun, material, konstruksiya, kompozisiya, estetik münasibət. |
| 3.1.2. | Verilmiş əsərlərdə rəngləri emosional məna çalarlarına görə müqayisə edir. | Təsviri sənətin növ və janrlarına aid nümunələri fərqləndirir, forma və məzmun, kolorit, kompozisiya həllinə estetik münsibət bildirərək kiçik təqdimatlar edir. | Növ və janrlar, forma, məzmun, kompozisiya, perspekriv, rəngkarlıq, əsas və qarışıq, isti və soyuq, xromatik və axromatik rənglər, tonallıq, kalorit. |

| | STANDART | MƏZMUN | AÇAR SÖZLƏR |
|---|---|---|---|
| № | **V SİNİF** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |

| | | | |
|---|---|---|---|
| 1.1. | **Təsviri incəsənətin cəmiyyətin həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir** | | |
| 1.1.1. | Təsviri incəsənətin həyat hadisələrini əks etdirdiyini izah edir. | Ən qədim dövrlərdə yaradılmış təsviri və dekorativ sənət nümunələri (qayaüstü yazı və təsvirlər, ov və əmək alətləri, geyim nümunələri, məişət və bəzək əşyaları, memarlıq abidələri və s.), monumental, monumental-dekorativ sənət əsərləri əsasında insanların gündəlik həyat və məişətini, cəmiyyətin inkişafını izah edir. | Ən qədim dövr incəsənəti, qayaüstü yazı və təsvirlər, ov və əmək alətləri, materiallar, məişət və bəzək əşyaları, geyimlər, monumental, monumental-dekorativ sənət əsərləri, məbədlər, memarlıq abidələri, dekorativ sənətlər. |
| 1.2. | **Təsviri və dekorativ sənətin növ və janrlarına aid bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.2.1. | Təsviri sənətin növlərinin (qrafika, rəngkarlıq, heykəltəraşlıq) xarakterik xüsusiyyətlərini şərh edir. | Təsviri incəsənətin - rəngkarlıq, heykəltəraşlıq, qrafika növlərində yaradılmış əsərləri, bədii ifadə və təsvir vasitələrini, istifadə olunan materialları fərqləndirir və şərh edir. | Qrafika, rəngkarlıq, heykəltəraşlıq, növ və janrlar, monumental, dəzgah, dekorativ sənət nümunələri, bədii ifadə vasitələri, materiallar, xüsusiyyətlər. |
| 1.2.2. | Dekorativ sənət növlərini (xalçaçılıq, bədii tikmə, ağac üzərində oyma) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Dekoratv sənətin - xalçaçılıq, bədii tikmə, ağac üzərində oyma növlərində yaradılmış sənətkarlıq nümunələrini, istifadə olunan alətləri və materialları, sadə formalı milli naxış növlərini, dekorativ kompozisiyanı fərqləndirir və şərh edir. | Dekorativ sənətlər, xalçaçılıq, bədii tikmə, ağac üzərində oyma, alətlər, materiallar, milli naxış növləri, forma, məzmun, dekorativ kompozisiya. |
| 1.3. | **Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.3.1. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Məsud İbn Davud, Soltan Məhəmməd, Elmira Şahtaxtinskaya, İbrahim Zeynalov, Qriqori Qaqarin, Sandro Botiçelli, Donatello, Paolo Uccello) və onların əsərləri haqqında məlumatları şərh edir. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələrindən memar Məsud İbn Davud, miniatürçü-rəssam Soltan Məhəmməd, rəssam Elmira Şahtaxtinskaya, heykəltəraş İbrahim Zeynalov, rəssam və səyyah Qriqori Qaqarin, Sandro Botiçelli, Donatello, Paolo Uccellonun əsərlərini tanıyır, haqqında məlumatları şərh edir. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələrinin sənət əsərlərindən nümunələr, Məsud İbn Davud, Soltan Məhəmməd, Elmira Şahtaxtinskaya, heykəltəraş İbrahim Zeynalov, Qriqori Qaqarin, Sandro Botiçelli, Donatello, Paolo Uccellonun növlər, janrlar, qədim |

| | | | |
|---|---|---|---|
| | | | memarlıq abidələri, miniatür, Təbriz miniatür məktəbi, rəngkarlıq, heykəltəraşlıq, qrafika, memar, rəssam, heykəltəraş. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.** | | |
| 2.1.1. | Həyati görüntüləri rəngkarlıq, qrafika, heykəltəraşlıq növlərində real və abstrakt tərzdə təsvir edir. | Gündəlik həyat və təbət hadisələrini, müxtəlif canlı və cansız əşyaları qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərində real və abstrakt kompozisiyalarla təsvir edir. | Qrafika, rəngkarlıq, heykəltəraşlıq, növ və janrlar, real, abstrakt, forma, məzmun, kompozisiya, perspektiv, natura, natürmort. |
| 2.1.2. | Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (kömür, sulu boya, plastilin və ya gil) istifadə edir. | Ətraf aləmdəki gündəlik həyat və təbiət hadisələrini, müxtəlif formalı canlı və cansız əşyaları kömür, sulu boya, gil və ya plastilin vasitəsi ilə real və abstrakt təsvir edir. | Natura, natürmort, məişət əşyaları, real, abstrakt, kompozisiya, perspektiv, forma, məzmun, alətlər, materiallar, təsvir üsul və vasitələri: kömür, sulu boya, gil, plastilin. |
| **2.2.** | **Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.** | | |
| 2.2.1. | Sadə əşyaların üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | Müxtəlif materialdan olan sadə formalı əşyalar üzərində müxtəlif üsul və vasitələrlə bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | Dekorativ əşyalar, naxış, forma, məzmun, ornament, dekorativ kompozisiya, bədii tərtibat, dizayn, alətlər, materiallar. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.** | | |
| 3.1.1. | Bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik imkanlarına görə izah edir. | Təsviri və dekorativ sənətin müxtəlif növlərində yaradılmış bədii sənət əsərlərini milli-üslubi (forma, məzmun, kolorit, material, kompozisiya və s.) cəhətlərinə görə fərqləndirir və izah edir. | Milli və ümumbəşəri dəyər, təsviri və dekorativ sənətlər, üslub, naxış, kolorit, material, ornament, forma, məzmun, kompozisiya. |
| 3.1.2. | Təsviri sənət növlərini ayıraraq emosional təsir xüsusiyyətlərini izah edir. | Təsviri sənətin qrafika, rəngkarlıq və heykəltəraşlıq növlərində verilmiş nümunələri janrlara, istifadə olunan təsvir alət və materiallara, bədii | Qrafika, rəngkarlıq, heykəltəraşlıq, növlər, monumental, dəzgah, dekora- |

| | | | |
|---|---|---|---|
| | | ifadə vasitələrinə, forma, məzmun, kompozisiya həllinə əsasən seçərək ayırır. | tiv sənət nümunələri, təsvir materialları, bədii ifadə vasitələri |

| | STANDART | MƏZMUN | AÇAR SÖZLƏR |
|---|---|---|---|
| № | **VI SİNİF** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1. | **Təsviri incəsənətin cəmiyyət həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.1.1. | Təsviri incəsənətin cəmiyyət həyatındakı rolunu şərh edir. | Qədim dövr antik incəsənət və mədəniyyət nümunələri (Qədim Misir, Yunan, Roma və Alban memarlıq, heykəltəraşlıq, dekorativ sənət nümunələri və s.) əsasında cəmiyyətin inkişafını izah edir. | Antik incəsənət, Qədim Misir, Yunan, Roma incəsənəti, Alban memarlığı, ehramlar, məbədlər, saraylar, qalalar, memarlıq, heykəltəraşlıq, rəngkarlıq, monumental, monumental-dekorativ, dekorativ sənətlər, freska, mozaika |
| 1.2. | **Təsviri və dekorativ sənətin növ və janrlarına aid bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.2.1. | Təsviri sənətin növ və janrlarını (natürmort, mənzərə, portret) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Təsviri incəsənəitin - rəngkarlıq, heykəltəraşlıq, qrafika növlərində natürmort, mənzərə, portret janrında verilmiş nümunələri xarakterik xüsusiyyətlərinə (bədii ifadə və təsvir vasitələri, istifadə olunan alətlər materiallar və s.) görə şərh edir. | Qrafika, rəngkarlıq, heykəltəraşlıq, növləri, natürmort, mənzərə, portret janrları, bədii ifadə vasitələri, kompozisiya və perspektiv qanunlar, qaydalar, üsullar, vasitələr. |
| 1.2.2. | Dekorativ sənət növlərini (metal üzərində döymə, keramika, zərgərlik) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Dekoratv sənətin (metal üzərində döymə, keramika, zərgərlik) növlərinin forma, məzmun, dekorativ kompoziiya həlli, istifadə olunan alət və materiallar, milli naxış növləri, kolorit və s. əsasında fərqləndirərək şərh edir. | Dekorativ sənətlər, dekorativ kompozisiya, milli naxışlar, metal üzərində döymə, keramika, zərgərlik, alətlər, materiallar, üsullar, vasitələr. |
| 1.3. | **Azərbaycan və dünya incəsənətinin görkəmli nümayəndələri, onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.3.1. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Əcəmi Əbubəkir oğlu | Azərbaycanın təsviri incəsənət nümayəndələrindən memar Əcəmi Əbubəkir oğlu Naxçıvani, | Əcəmi Əbubəkir oğlu Naxçıvani, Sadiq bəy Əfşar, Vəcihə Səmədova, |

| | | | |
|---|---|---|---|
| | Naxçıvani, Sadiq bəy Əfşar, Vəcihə Səmədova, Lətif Kərimov, Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürer, Memar Sinan) və onların əsərləri haqqında məlumatları şərh edir. | Sadiq bəy Əfşar, Vəcihə Səmədova, Lətif Kərimov, Memar Sinan, Qərbi Avropada İntibah dövrünün dahi sənətkarları Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürerin əsərlərini tanıyır və haqqında məlumatları nümunələr əsasında şərh edir. | Lətif Kərimov, Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürer, Memar Sinan Təsviri və dekorativ sənətlər, boyakarlıq, qrafika, heykəltəraşlıq, növlər, janrlar, memar, memarlıq, miniatür, miniatürçü-rəssam, illüstrasiya, intibah (renessans), xalçaçı rəssam, heykəltəraş. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.** | | |
| 2.1.1. | Həyati görüntüləri natürmort, mənzərə, portret janrlarında real və abstrakt tərzdə təsvir edir. | Ətraf aləmdə - təbiətdə, adi gündəlik həyatdan olan görüntüləri natürmort, mənzərə və portret janrlarında, qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərində, real və abstrakt forma və məzmun vasitəsi ilə sadə və mücərrəd kompozisiyalarda təsvir edir. | Həyati görüntülər, təbiət və cəmiyyət hadisələri, növlər, janrlar, natürmort, mənzərə, portret, qrafika, boyakarlıq, heykəltəraşlıq, real, abstrakt, forma, ideya, məzmun, kompozisiya. |
| 2.1.2. | Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (pastel təbaşirləri, sulu boyalar, plastilin və ya gil) istifadə edir. | Sadə həyat, təbiət və cəmiyyət hadisələrini, müxtəlif əşyaları pastel tabaşirləri, sulu boyalar (akvarel və quaş), gil və ya plastilin vasitəsi ilə real və ya abstrakt forma və məzmunda sadə və mücərrəd kompozisiyalarda təsvir edir. | Təbiət, məişət, cəmiyyət hadisələri, real, abstrakt təsvir, forma, ideya, məzmun, kompozisiya, alətlər, materiallar, pastel tabaşirləri, akvarel, quaş, gil, plastilin, təsvir vasitələri. |
| **2.2.** | **Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.** | | |
| 2.2.1. | Məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | Sadə formalı müxtəlif materiallardan olan məişət əşyaları üzərində müxtəlif vasitələrlə bədii tərtibat, milli üslub, estetik zövq və dizayn bacarıqları nümayiş etdirir | Dekorativ sənət, məişət əşyaları, naxış, forma, məzmun, ornament, kompozisiya, bədii tərtibat, dizayn, növ, milli üslub, material, vasitə. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.** | | |

| | | | |
|---|---|---|---|
| 3.1.1. | Bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | Təsviri incəsənətin müxtəlif növlərində yaradılmış bədii sənət əsərlərini milli üslubi cəhətlərinə, forma və məzmun, kompozisiya, milli naxışlar, kolorit, material və s. xüsusiyyətlərinə görə izah edir. | Təsviri və dekrativ sənətlər, milli üslub, milli naxışlar, kolorit, material, forma, məzmun, kompozisiya. |
| 3.1.2. | Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir. | Təsviri sənətin qrafika, rəngkarlıq və heykəltəraşlıq növlərində verilmiş natürmort, mənzərə, portret janrlarında olunan əsərləri bir-birindən fərqləndirərək ayırır. | Növlər – qrafika, rəngkarlıq, heykəltəraşlıq, janrlar – natürmort, mənzərə, portret, forma, məzmun, kompozisiya, material, bədii-ifadə vasitələri. |

| | **STANDART** | **MƏZMUN** | **AÇAR SÖZLƏR** |
|---|---|---|---|
| № | **VII SİNİF** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1. | **Təsviri incəsənətin cəmiyyət həyatındakı əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.1.1. | Təsviri incəsənətin cəmiyyətin həyatında rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir. | Orta əsrlərdə Azərbaycanda və Qərbi Avropada (İntibah dövründə) yaradılmış memarlıq abidələri, təsviri və dekorativ sənət nümunələri və s. əsasında təsviri incəsənətin cəmiyyətin həyatında, məişətində, inkişafındakı başlıca rolunu və əhəmiyyətini izah edir. | Orta əsrlər incəsənəti, intibah dövrü, antik mədəniyyət ənənələri, təsviri və dekorativ sənətlər, memarlıq abidələri, növ və janrlar, freska, mozaika, vitraj, monumental, monumental-dekorativ, dəzgah, xüsusiyyətlər. |
| 1.2. | **Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.2.1. | Təsviri sənətin növ və janrlarını (məişət və əsatir) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Təsviri sənəıtin – rəngkarlıq, heykəltəraşlıq, qrafika növlərində, məişət və əsatir janrlarında yaradılmış əsərləri fərqləndirir, istifadə olunan forma, məzmun və kompozisiya həllini, bədii ifadə və təsvir vasitələrini, materialları, nümunələr əsasında şərh edir. | Təsviri sənətin növləri – qrafika, rəngkarlıq, heykəltəraşlıq, janrları – məişət, əsatir, ideya, forma, məzmun, bədii ifadə vasitələri, alətlər, materiallar, üsullar, xüsusiyyətlər . |

| | | | |
|---|---|---|---|
| 1.2.2. | Dekorativ sənət növlərini (milli geyimlər, bədii hörmə) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Dekoratv sənətin milli geyimlər, bədii hörmə və s. növlərində xarakterik xüsusiyyətləri (istifadə olunan alətləri və materialları, sadə formalı milli naxış növlərini, bədii ifadə vasitələrini) verilmiş nümunələr əsasında fərqləndirərək şərh edir. | Dekorativ sənətlər, milli geyimlər, bədii tikmə, hörmə, toxuma, alətlər, materiallar, üsullar, vasitələr, milli naxış növləri, parçalar, iplіklər. |
| 1.3. | **Azərbaycan, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.3.1. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Müzəffər Əli, Kamil Əliyev, Mirəli Mirqasımov, Rasim Babayev, İlya Repin, Rembrandt, Velaskes, Karavacco) və onların əsərləri haqqında məlumatları şərh edir. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələrindən heykəltəraş Müzəffər Əli, Kamil Əliyev, Mirəli Mirqasımov, Rasim Babayev, İlya Repin, Rembrandt, Velaskes, Karavacco əsərlərni tanıyır, yaradıcılıq sahələrinə görə fərqləndirir və haqqında məlumatları şərh edir. | Müzəffər Əli, Kamil Əliyev, Mirəli Mirqasımov, Rasim Babayev, İlya Repin, Rembrandt, Velaskes, Karavacco, bədii sənət nümunələri, heykəltəraşlıq, monumental, dəzgah, dekorativ, xalçaçı-rəssam, növ və janrlar, memar, rəssam, heykəltəraş. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Həyati görüntüləri real və abstrakt** tərzdə **təsvir edir.** | | |
| 2.1.1. | Həyati görüntüləri məişət, əsatir janrlarında real və abstrakt tərzdə təsvir edir. | Ətraf aləmdəki adi həyati görüntüləri təsviri sənətin qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərində, məişət və əsatir janrlarında, real və abstrakt (gerçək və mücərrəd) forma, məzmun, kompozisiya vasitəsi ilə təsvir edir. | Həyati görüntülər, təbiət və cəmiyyət hadisələri, qrafika, boyakarlıq, heykəltəraşlıq növləri, məişət, əsatir janrları, real, abstrakt, kompozisiya, perspektiv. |
| 2.1.2. | Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (tuş, sulu boya və ya qarışıq texnika, plastilin və ya gil) istifadə edir. | Təbiət, məişət və cəmiyyətdə baş verən müxtəlif hadisələri, canlı və cansız əşyaları kömür, sulu boya, gil və ya plastilin vasitəsi ilə real və abstrakt forma, ideya və məzmunda gerçək və mücərrəd kompozisiyalarda tuş, akvarel, quaş, yaxud qarışıq texnikada, plastilin və ya gildən istifadə etməklə təsvir edir. | Təbiət, məişət və cəmiyyət hadisələri, real və abstrakt təsvir, forma, məzmun, kompozisiya, alətlər və materiallar, tuş, akvarel, quaş, gil, plastilin, təsvir vasitələri. |
| **2.2.** | **Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.** | | |
| 2.2.1. | Müxtəlif texniki avadanlıqlar üzərində tərtibat və | Sadə formalı müxtəlif materialdan olan texniki | Dekorativ əşyalar, texniki avadanlıq- |

| | | | |
|---|---|---|---|
| | dizayn bacarıqları nümayiş etdirir. | avadanlıqlar, əşyalar, üzərində müxtəlif vasitələrlə bədii tərtibat və dizayn bacarıqlarnı nümayiş etdirir. | lar, naxış, forma, məzmun, ornament, eskiz, model (maket), kompozisiya, bədii tərtibat, dizayn, üsullar, vasitələr, alətlər, materiallar. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.** | | |
| 3.1.1. | Bədii sənət əsərlərində milli üslubi cəhətləri (forma, ritm, rəng çalarları) estetik xüsusiyyətlərinə görə fərqləndirir. | Bədii sənət əsərlərini milli-üslubi cəhətlərinə (növ və janrlarına, milli naxış növlərinə, forma, məzmun, kolorit, kompozisiya, material və s.) görə fərqləndirir. | Bədii sənət əsərləri, növ və janrlar, milli üslub və vasitələr, milli naxışlar, ideya, forma, məzmun, kompozisiya, kolorit, material. |
| 3.1.2. | Təsviri sənətin növ və janrlarını xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. | Verilmiş qrafika, rəngkarlıq və heykəltəraşlıq nümunələrini növ və janrlarına, forma, məzmun, kompozisya həllinə, bədii ifadə vasitələrinə estetik xüsusiyyətlərinə görə seçərək fərqləndirir. | Növ və janrlar, qrafika, rəngkarlıq, heykəltəraşlıq, ideya, forma, məzmun, kompozisiya materiallar, bədii ifadə vasitələri. |

| | STANDART | MƏZMUN | AÇAR SÖZLƏR |
|---|---|---|---|
| № | **VIII S İ N İ F** | | |
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1. | **Təsviri incəsənətin cəmiyyətin həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.1.1. | Azərbaycan təsviri incəsənətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təqdim edir. | Qədim və müasir dövrlərdə Azərbaycan və dünya mədəniyyətində yaradılmış müxtəlif təsviri incəsənət nümunələri əsasında insanların həyatını, məişətini, cəmiyyətin inkişafını şərh etməklə təqdimatlar edir. | Milli və ümumbəşəri dəyərlər, təsviri və dekorativ sənətlər, növlər, janrlar, memarlıq abidələri, xüsusiyyətlər, üsullar, vasitələr, alətlər, materiallar. |
| 1.2. | **Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.2.1. | Təsviri sənətin növ və janrlarını (tarixi, batal) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Təsviri sənəıtin qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərini və tarixi batal janrlarını, və janrlarını, xarakterik xüsusiyyətlərinə (ideya, forma, məz- | Təsviri sənətin qrafika, rəngkarlıq, heykəltəraşlıq növləri, tarixi və batal janrlar, ideya, forma, məzmun, kom- |

| | | | |
|---|---|---|---|
| | | mun, kompozisiya və perspektiv qanunlar, qaydalar, üsullar, vasitələr, istifadə olunan materialları, bədii ifadə və təsvir vasitələrini nümunələr əsasında şərh edir. | pozisiya və perspektiv qanunlar, qaydalar, üsullar, vasitələr, bədii-ifadə vasitələri, xüsusiyyətlər. |
| 1.2.2. | Dekorativ sənət növlərini (misgərlik, şəbəkə, qarışıq texnika) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Dekoratv sənətin növlərini (misgərlik, şəbəkə, qarışıq texnika) xarakterik xüsusiyyətlərinə (forma, məzmun, dekorativ kompozisiya, kolorit, milli naxış növləri, üsullar, vasitələr, alətlər, materiallar və s.) görə fərqləndirərək şərh edir. | Dekorativ-tətbiqi sənətlər, misgərlik, şəbəkə, qarışıq texnika, növlər, forma, məzmun, dekorativ kompozisiya, kolorit, milli naxış növləri, üsullar, vasitələr, alətlər, materiallar, xüsusiyyətlər |
| 1.3. | **Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.3.1. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, Eldar Mikayılov, Fuad Əbdürrəhmanov, Tokay Məmmədov, Sadıq Dadaşov, Jan Ogüst Dominik Enqr, Ejen Delakrua, Fransisko Qoyya, Van Qoq, Jak Lui David, Eduard Mane, Klod Mone, Ogüst Renuar, Pol Qogen, Anri Matis, Ogüst Roden) və onların əsərləri haqqında təqdimat edir | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələrindən Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, Eldar Mikayılov, Fuad Əbdürrəhanov, Tokay Məmmədov, Sadıq Dadaşov, Jan Ogüst Dominik Enqr, Ejen Delakrua, Fransisko Qoyya, Van Qoq, Jak Lui David, Eduard Mane, Klod Mone, Ogüst Renuar, Pol Qogen, Anri Matis, Ogüst Rodenyaradıcılığına dair məlumatlar toplayır, ən məşhur əsərlərini şərh etməklə haqqında təqdimatlar edir | Toğrul Nərimanbəyov, Böyükağa Mirzəzadə, Eldar Mikayılov, Fuad Əbdürrəhmanov, Tokay Məmmədov, Sadıq Dadaşov, Jan Ogüst Dominik Enqr, Ejen Delakrua, Fransisko Qoyya, Van Qoq, Jak Lui David, Eduard Mane, Klod Mone, Ogüst Renuar, Pol Qogen, Anri Matis, Ogüst Roden, təsviri və dekorativ sənət nümunələri, memarlıq abidələri, növ və janrlar, üsullar, vasitələr, memar, rəssam, heykəltəraş. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir** | | |
| 2.1.1. | Həyati görüntüləri tarix, batal janrlarda real və abstrakt tərzdə təsvir edir. | Tarixi obraz və hadisələri, döyüş və qəhrəmanlıq mövzularını qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərində, real və abstrakt (gerçək və mücərrəd) | Tarixi obraz və hadisələr, qrafika, boyakarlıq, heykəltəraşlıq növləri, tarixi, bataliya (döyüş) janrlar, real, |

| | | | |
|---|---|---|---|
| | | kompozisiyalarda, müxtəlif forma, üsul və vasitələrlə təsvir edir. | abstrakt, kompozisiya, forma, üsullar, vasitələr |
| 2.1.2. | Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vastələrdən (tuş, sulu boyalar, qarışıq texnika və yağlı boya, plastilin, gil və ya gips) istifadə edir. | Ətraf aləmdəki adi həyat və təbiət görüntülərini, hadisələri, canlı və cansız əşyaları müxtəlif vasitələrlə (tuş, sulu boyalar, qarışıq texnika və yağlı boya, plastilin, gil və ya gips) real və abstrakt (gerçək və mücərrəd) forma, məzmun və kompozisiyalarda təsvir edir. | Təbiət və cəmiyyət hadisələri, canlı və cansız əşyalar, real, abstrakt təsvir, ideya, forma, məzmun, kompozisiya, alətlər, materiallar, təsvir vasitələri - tuş, sulu boyalar, qarışıq texnika və yağlı boya, plastilin, gil və ya gips. |
| **2.2.** | **Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.** | | |
| 2.2.1. | Geyim əşyaları və nəqliyyat vasitələri üzərində tərtibat və dizayn bacarıqları nümayiş et-dirir. | Müxtəlif geyim əşyaları və nəqliyyat vasitələri üzərində müxtəlif materialdan, forma və üsullardan, vasitələrdən istifadə etməklə, bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | Dekorativ bəzəklər, ornament, naxışlar, müxtəlif geyim əşyaları, nəqliyyat vasitələri, forma, məzmun, bədii tərtibat, dizayn, komfort, kompozisiya, növlər, üsullar, materiallar, vasitələr. |
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.** | | |
| 3.1.1. | Bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərinə görə müqaisə edir. | Təsviri incəsənətin müxtəlif növlərində yaradılmış bədii sənət əsərlərini milli-üslubi cəhətlərinə (ideya, forma, məzmun, kompozisiya, kolorit, material və s.) görə fərqləndirərək müqayisə edir. | Milli və ümumbəşəri dəyər, bədii sənət əsərləri, növlər, janrlar, üslublar, forma, məzmun, kompozisiya, milli naxışlar, kolorit, alətlər, materiallar. |
| 3.1.2. | Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsir imkanlarını şərh edir. | Təsviri sənətin müxtəlif növ və janrlarında istifadə olunan xarakterik xüsusiyyətləri (ideya, forma, məzmun, kompozisiya, üslub və vasitələri) nümunələr göstərməklə izah edir. | Növlər - qrafika, rəngkarlıq, heykəltəraşlıq, janrlar – tarixi, batal, forma, məzmun, kompozisiya, üslub və vasitələr. |

| | STANDART | MƏZMUN | AÇAR SÖZLƏR |
|---|---|---|---|
| № | **IX SİNİF** | | |

| | | | |
|---|---|---|---|
| 1. | **Cəmiyyət və təsviri incəsənət** | | |
| 1.1 | **Təsviri incəsənətin cəmiyyətin həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.1.1. | Müasir Azərbaycan və dünya incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir. | Müxtəlif dövrlərdə Azərbaycanda və dünyada yaradılmış təsviri sənət nümunələrinin cəmiyyətin və mədəniyyətin inkişafındakı rolunu və əhəmiyyətini nümunələr əsaında şərh etməklə təqdimatlar edir. | Təsviri və dekorativ sənət nümunləri, milli və ümumbəşəri dəyərlər, növ və janrlar, üslublar, xüsusiyyətlər, memarlıq abidələri, milli naxışlar, ornamentlər, kalorit, üsullar, vasitələr, materiallar. |
| 1.2. | **Təsviri və dekorativ sənətin növ və janrlarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.2.1. | Təsviri sənətin növ və janrlarını (karikatura, şarj, tematik) xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Təsviri sənəıtin qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərini, karikatura, şarj və tematik janrlarını xarakterik xüsusiyyətlərini (ideya, forma, məzmun, kompozisiya, üsullar, istifadə olunan materiallar, bədii ifadə vasitələri) nümunələr əsasında şərh edir. | Təsviri sənətin növləri, qrafika, rəngkarlıq, heykəltəraşlıq, janrlar, karikatura, şarj, tematik, ideya, forma, məzmun, kompozisiya, bədii ifadə vasitələri, obrazlar, xüsusiyyətlər. |
| 1.2.2. | Dekorativ sənət növlərini və kompyuter qrafikasına aid təsvirləri xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Dekoratv sənətin növləri xalçaçılıq, bədii tikmə, ağac üzərində oyma növlərini, kompüter qrafikasında yaradılmış təsvirləri nümunələr əsasında xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir, istifadə olunan materialları və alətləri, sadə formalı milli naxış növlərini, bədii ifadə vasitələrini bir-birindən fərqləndirərək xarakterik xüsusiyyətlərinə görə şərh edir. | Dekorativ-tətbiqi sənət növləri, xalçaçılıq, bədii tikmə, ağac üzərində oyma, kompüter qrafikası, alətlər, materiallar, milli naxış növləri, dekorativ sənət nümunələri, xüsusiyyətlər. |
| 1.3. | **Azərbaycanın,dünyanın görkəmli təsviri incəsənət nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 1.3.1. | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Tahir Salahov, Ömər Eldarov, Cavad Mircavadov, Mikayıl Hüseynov, Fərhad Xəlilov, Arif Hüseynov, Sakit Məmmədov, Fazil Nəcəfov, Pol Sezann, Pablo Pikasso, | Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələrindən Tahir Salahov, Ömər Eldarov, Cavad Mircavadov, Mikayıl Hüseynov, Fərhad Xəlilov, Arif Hüseynov, Sakit Məmmədov, Fazil Nəcəfov, Pol Sezann, Pablo Pikasso, | Tahir Salahov, Ömər Eldarov, Cavad Mircavadov, Mikayıl Hüseynov, Fərhad Xəlilov, Arif Hüseynov, Sakit Məmmədov, Fazil Nəcəfov, Pol Sezann, Pablo Pikasso, Salvador |

| | | | |
|---|---|---|---|
| | Salvador Dali, Vasili Kandinski, Naum Qabo, Paul Klee, Joan Miro, Henri Spenser Mur, Alberto Djakometti) və onların əsərləri haqqında təqdimatlar edir. | Salvador Dali, Vasili Kandinski, Naum Qabo, Paul Klee, Joan Miro, Henri Spenser Mur, Alberto Djakometti yaradıcılığına dair məlumatlar toplayır ən məşhur əsərlərini şərh etməklə təqdimatlar edir. | Dali, Vasili Kandinski, Naum Qabo, Paul Klee, Joan Miro, Henri Spenser Mur, Alberto Djakometti, təsviri və dekorativ sənət nümunələri, memarlıq abidələri, kompozisiya və perspektiv qanunlar, qaydalar, üsullar, vasitələr, növ və janrlar, memar, rəssam, heykəltəraş. |
| 2. | **Təsviri və dekorativ yaradıcılıq** | | |
| **2.1.** | **Həyati görüntüləri real və abstrakt tərzdə təsvir edir.** | | |
| 2.1.1. | Həyati görüntüləri karikatura, şarj, tematik janrlarda, yaxud qrafik redaktor vasitəsilə real və abstrakt tərzdə təsvir edir. | Müxtəlif obraz və hadisələri qrafika, rəngkarlıq, heykəltəraşlıq növlərində karikatura, şarj və tematik janrlarda, yaxud kompüterdə qrafik redaktor vasitəsilə real və abstrakt (gerçək və mücərrəd) tərzdə forma, məzmun, kompozisiya, bədii ifadə vasitələri ilə təsvir edir. | Təsviri sənətin növləri - qrafika, rəngkarlıq, heykəltəraşlıq, janrları – karikatura, şarj və tematik, müxtəlif obraz və hadisələr, real, abstrakt təsvirlər, qrafik redaktor, kompozisiya, forma, məzmun, üsullar, vasitələr. |
| 2.1.2. | Həyati görüntülərin real və abstrakt tərzdə təsvirində müxtəlif vasitələrdən (tuş, kömür, sulu boya, qarı-şıq texnika və ya yağlı boya, plastilin, gil, ağac), yaxud qrafik redaktordan istifadə edir. | Ətraf aləmdəki adi həyat, təbiət və məişət görüntülərini müxtəlif vasitələrlə (tuş, kömür, suluboya, qarışıq texnika və ya yağlı boya, plastilin, gil yaxud ağac), yaxud kompüterdə qrafik redaktor vasitəsilə, real və abstrakt (gerçək və mücərrəd) kompozisiyalarda ideya, məzmun və formaları təsvir edir. | Təbiət, cəmiyyət, məişət hadisələri, obrazlar, real və abstrakt təsvirlər, ideya, forma, məzmun, kompozisiya, alətlər, materiallar, təsvir vasitələri - tuş, sulu boyalar, qarışıq texnika, yağlı boya, plastilin, gil, ağac, qrafik redaktor. |
| **2.2.** | **Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.** | | |
| 2.2.1. | Memarlıq və inşaat tikililəri üzərində bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | Müxtəlif formalı memarlıq və inşaat tikililəri üzərində. müxtəlif materialdan, forma və üsullardan, vasitələrdən istifadə etməklə, bədii tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | Dekorativ bəzəklər, ornament, naxışlar, memarlıq və inşaat tikililəri, forma, məzmun, bədii tərtibat, dizayn, komfort, kompozisiya, növlər, üsullar, vasitələr, materiallar. |

| | | | |
|---|---|---|---|
| **3.** | **Estetik reaksiya** | | |
| **3.1.** | **Təsviri və dekorativ sənət nümunələrinə estetik-emosional münasibət bildirir.** | | |
| 3.1.1. | Bədii sənət əsərlərində milli-üslubi cəhətləri estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. | Təsviri incəsənətin müxtəlif növlərində yaradılmış bədii sənət əsərlərini milli-üslubi cəhətlərinə (ideya, forma, məzmun, kompozisiya, kolorit, üsullar, vasitələr, milli naxışlar, materiallar və s.) görə şərh edərək estetik münasibət bildirir və təqdimatlar edir. | Milli və ümumbəşəri dəyər, bədii sənət əsərləri, növlər, janrlar, üslublar, forma, məzmun, kompozisiya, milli naxışlar, kolorit, üsullar, vasitələr, materiallar. |
| 3.1.2. | Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir. | Təsviri sənətin müxtəlif növ və janrlarında istifadə olunan xarakterik xüsusiyyətləri (ideya, forma, məzmun, kompozisiya, üslub, kalorit, material, bədii ifadə vasitələri) estetik münasibət bildirərək təqdimatlar edir. | Növlər - qrafika, rəngkarlıq, heykəltəraşlıq, janrlar – karikatura, şarj, tematik, ideya, forma, məzmun, kompozisiya, kalorit, bədii ifadə vasitələri. |

## Resurslar

Təsviri incəsənət fənninin tədrisinin təşkilində xüsusi fənn otaqların olması vacib şərtlərdəndir. Fənnin tədrisinin müasir tələblərə uyğun lazımi maddi-texniki baza ilə təmin olunması təlim prosesinin səmərəli təşkilinə möhkəm bünövrə yarada bilər.

Təsviri incəsənət üzrə fənn kabinetləri aşağıdakı resurslarla təmin olunmalıdır:

1. Xüsusi şagird masası (lazım gəldikdə ondan rəsm çəkmək üçün molbert kimi də istifadə olunur) və ya molbert
2. Fırlanan dəyirmi dəzgah (yapma və heykəltəraşlıq işləri üçün)
3. Kompüter (qrafik redaktor)
4. Proyektor
5. Printer
6. Əşya fondu (həndəsi fiqurlar – kub, konus, piramida, prizma, silindr, kürə; milli və müasir formalı məişət əşyaları; sadə formalı gips portret və fiqur; müxtəlif heyvan və quş fiqurları, süni meyvələr).
7. Marker, pastel tabaşirləri, tuş, pero, sulu boyalar (akvarel və quaş), yağlı boya, fırça, plastilin
8. Planşet
9. Əşya müstəvisi

## Tezaurus

***Təlimin məzmunu*** – şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.

***Təlim nəticəsi*** – müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

***Məzmun xətti*** – fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir.

***Məzmun standartı*** – təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir.

***Qiymətləndirmə standartı*** – təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

***Təlim strategiyası*** – təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

***Kurikulum*** – təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir.

***Dərslik*** – dövlət təhsil standartları əsasında hazırlanmış kurikulumlara uyğun olan, şagirdlərdə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişlərinin aşılanmasına, demokratik dünyagörüşün formalaşmasına imkan yaradan, onları düşünməyə sövq edən, məntiqi təfəkkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətə malik əsas dərs vəsaitidir.

***Inteqrasiya*** – müəyyən təhsil sistemi çərcivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində şaquli və üfüqi olmaqla onun iki növündən istifadə edilir.

***Milli kurikulum*** – ölkə miqyasında təhsilin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir.

***Fənn kurikulumu*** – fənn üzrə fəaliyyətləri istiqamətləndirən konseptual

sənəddir.

***Pedaqoji innovasiya*** – təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumən, pedaqoji sistemdə baş verən yeniliklərdir. Onlar müəyyən dövr ərzində sabit qalaraq ənənəvi qaydada davam etdirilir, həmin dövrün səciyyəvi pedaqoji hadisəsinə cevrilir.

***Nəticəyönümlülük*** – yeni kurikulumların hazırlanmasında nəzərə alınmış əsas prinsiplərdən biridir. Bu pirinsipə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir.

***Taksonomiya*** – yanan sözüdür (taxus-qayda ilə yerləşmə+qanun deməkdir), təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatıdır. Elmi termin kimi ilk dəfə botanika və zoologiyada əmələ gəlmiş, heyvanların və bitki orqanizmilərinin qruplara görə bölgüsü anlamında işlənmişdir. 30-cu illərdə psixologiyada istifadə olunmağa başlanmışdır.

***Şəxsiyyətyönümlülük*** – Milli Kurikulumun hazırlanması zamanı nəzərə alınmış didaktik prinsiplərdən biridir. Onun tələbinə görə, kurikulumların tərkibində olan təlim standartları, strategiyaları və qiymətləndirmə mexanizmləri şagird şəxsiyyətində idraki, hissi və psixomotor bacarıqlar əsasında yaranan keyfiy-yətlərin formalaşmasına yönəlir. Çox vaxt bu keyfiyyətlər kompetensiyalar (səriştələr, qabiliyyətlər), dəyərlər və ya mədəniyyətlər terminləri ilə ifadə edilir. Şəxsiyyətyönümlü təhsilin keyfiyyət göstəricisi sadəcə bilik və ya bacarıqlar deyil, milli səviyyədə müəyyən olunmuş ümumi nəticələrə uyğun səviyyənin (kompetensiya, keyfiyyət və ya mədəniyyət göstəricilərinə uyğun səviyyənin) əldə edilməsidir.

***Təhsildə qiymətləndirmə sistemi*** – beynəlxalq milli və məktəb səviyyələrində aparılan qiymətləndirməni əhatə edir. Zəruri məzmunun (qiymətləndirmə stan-dartlarının), vasitələrin (test, sual və s.), formaların, üsulların müəyyənləşdiril-məsi və onların reallaşdırılmasına aid prosedurları özündə birləşdirir.

***Fəal (interaktiv) təlim*** – şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

***İdrak fəaliyyəti* –** idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, idrak fəaliyyətində bilmək, anlamaq, tətbiq etmək, sintez etmək və dəyərləndirmək əsas mərhələlər hesab olunur. Müasir təhsil konsepsiyasına görə, şagirdin təlim fəaliyyətinin psixopedaqoji əsasını məhz həmin parametrlər təşkil edir. Ona görə də "hafizə məktəbi"ndən fərqli olaraq "təfəkkür məktəbi"ndə təlim standartları hazırlanarkən onlar əsas götürülür.

***Дekorativ-tətbiqi sənət*** – ən geniş yayılmış sənət sahəsidir, əsasən, məişətdə işlətmək üçün bədii məmulatlar hazırlayan yaradıcılıq sahəsini əhatə edir.

***Monumental-dekorativ*** – təsviri sənətin əsasən ibtidai formasına xas olan rəssamlığa deyilir.

***Landşaft*** – memarlıqda səki, bulvar, park, fəvvarə və s. obyektlərin planlaşdırılması deməkdir.

***Konstruksiya*** – latın sözü olub "quraşdırmaq, tərtib etmək, yerləşdirmək" mənasında işlənir.

***Janr*** – xüsusiyyət, tərz, üslub deməkdir. Məzmunundan asılı olaraq təsviri sənət nümunələri müxtəlif janrlara ayrılır.

***Batal janr*** – əsasən müharibə, döyüş səhnələri təsvir edilən tarixi janrdır.

***Animalist*** – latın sözü olub, heyvan və quş təsvirlərinə aiddir.

***Tematik janr*** – mövzusu əsasən dini rəvayətlərdən, yaxud tarixi hadisələrdən, məişət səhnələrindən götürülərək yaradılır.

***Miniatür*** – keçmişdə əsasən, qədim əlyazmaların, dini süjet və obrazların bəzədilməsində istifadə olunan, həcminin kiçikliyi ilə fərqlənən təsviri sənət əsəridir.

***İllüstrasiya*** – latın sözü olub, mövzunu tamamlayan və yaxud mənasını aydınlaşdıran təsvirlərə deyilir.

***Molbert* –** alman sözü olub "boya taxtası" deməkdir. Rəssamlıqda işlədilən üçayaqlı, yaxud üfüqi özül üzərində bərkidilmiş şaquli dayaqan ibarət xüsusi dəzgahdır.

***Palitra* –** rəssamın iş prosesində üzərində rəngləri qarışdırdığı nazik taxta parçasıdır.

***“Керамiка”*** – yunan sözüdür, gil və onun qarışığından alınan materialdır.

***“Natürmort”*** – fransız sözü olub, mənası “cansız təbiət” deməkdir.

***“Kompozisiya”*** – latın dilində “compositio” sözündən götrülüb, mənası «birləşdirmək», «tərtib etmək», «yerləşdirmək» deməkdir.

***Kompozisiya*** – rəssam əsərlərini təşkil edən elementlərin bir-biri ilə uyğunluğu və əlaqəsidir.

***“Perspektiv”*** – latın və fransız dilində olan “ məsafədən aydın görürəm” deməkdir. Həcmli cisimlərin fəza quruluşunun, ayrı-ayrı hissələrinin müşahidə nöqtəsindən uzaqlığını nəzərə almaqla müstəvi, yaxud hər hansı səth üzərində təsviri sisytemidir.

***Siluet*** - (fransızca “silhouette” – kölgə) – başqa müstəvi üzərində kölgəni xatırladan birrəngli təsvirdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. «Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları». Bakı, "Təhsil " nəşriyyatı, 2008.

2. Y,Ş.Kərimov. Pedaqoji tədqiqat metodları. Bakı, 2009.

3. Y,Ş.Kərimov. Təlim metodları. Bakı, 2007.

4. Z.Veysova. «Fəal/interaktiv təlim». Müəllimlər üçün vəsait, UNİCEF, Bakı 2007.

5. Z.Veysova. «Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Təlimçilər üçün metodik vəsait.», UNİCEF, Bakı 2004.

6. Təsviri incəsənət proqramı. Ümumtəhsil məktəblərinin I-VII sinifləri üçün. Bakı, "Kövsər" nəşriyyatı, 2007.

7. Şagirdlərin təlim müvəffəqiyyətlərinin 9 bal sistemi ilə qiymətləndirməsi normaları. Bakı, 1998.

8. S. Atayev. «İbtidai siniflərdə təsviri sənətin tədrisi metodikası». Bakı, "Nurlan" nəşriyyatı, 2001.

9. A.Z.Zak. "8 yaşlı uşaqların intellekt qabiliyyətinin inkişaf etdirilməsi." Bakı, "Elm və həyat"nəşriyyatı, 1999.

10. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007.

11. C.Həsənzadə, E.Hacınski. İncəsənət bəşəriyyətin misilsiz sərvətidir.Ayna Uşaq Ensiklopediyası, Bakı 1999.

12. Azərbaycan dilinin izahlı lüğəti, 4 cild, « Şərq–Qərb» nəşriyyatı, Bakı, 2006.

13. N.Rzayev, Q.Həbibullayev, Ş.Rzayev. «Rusca–Azərbaycanca memarlıq-inşaat lüğəti», Bakı, «Elm» nəşriyyatı, 1998

14. R.Əfəndi. «Azərbaycan incəsənəti». Bакı, 2007.

15. R.Əfəndi. «Azərbaycanın daş plastikası». Bакı, «İşıq» nəşriyyatı, 1986.

16. R.Əfəndi. «Azərbaycanın xalq sənəti». Bакı, «İşıq» nəşriyyatı, 1984.

17. R.Əfəndi. «Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində». Bакı, «İşıq» nəşriyyatı, 1980.

18. Ə.Verdiyev. "Dəzgah rəngkarlığı", Bakı, 1988.

19. L.Kərimov. "Azərbaycan xalçası", Bакı, «Yazıçı» nəşriyyatı, 1985.

20. K.Kərimov. «Azərbaycan miniatürləri». Bakı, «İşıq» nəşriyyatı, 1980.

21. Y.Cəlilova, K.Cəfərzadə.Təsviri incəsənət 2-ci sinif üçün dərslik. “Bakı” nəşriyyatı, Bakı, 2009.

22. Y.Cəlilova, K.Cəfərzadə. Təsviri incəsənət. 3-cü sinif üçün dərslik. “Bakı” nəşriyyatı, Bakı, 2010.

23. Y.Cəlilova, K.Cəfərzadə. Təsviri incəsənət. 4-cü sinif üçün dərslik. “Bakı” nəşriyyatı, Bakı, 2011.

24. V.Xəlilov, M.Məmmədova, Ş.Vəliyeva. 4-cü sinif üçün dərslik. Bakı, “Elnicat” nəşriyyatı, 2007.

25. F.Zeynalov, M.Məmmədova, İ.Abbasova. Təsviri incəsənət. 5-ci sinif üçün dərslik. “Təhsil” nəşriyyatı, Bakı, 2008.

26. Ziyadxan Əliyev. «Sənətin Məcnunu». “Aspoliqraf” nəşriyyatı, Вакı, 2009.

27. «Böyükağa Mirzəzadə». “Tutu” nəşriyyatı, Вакı, 2010.

28. “Ömər Eldarov”. Вакı, 2005.

29. “Tahir Salahov”. Mosкva, 1986.

30.“Tahir Salahov”. Leninqrad, 1980.

31. Müasir Azərbaycan təsviri sənət sərgisi. «Каtaloq», Вакı, 2006.

32. Б.М.Неменский Программа «Изобразительное искусство и художественный труд» , 2002.

33. «Энциклопедический словарь юного художника». «Педагогика» 1983.

34. Б.С.Кузмин, Э.И.Кубишкина «Изобразительное искусство», 1999.

35. Г.Б.Никодеми «Техника живописи» издательство, 2002.

36.Андрей Лунев «Современное пособие по рисованию для юного художника», 2007.

37. «Краткое история изобразительного искусства». М., 1992.

38. Алехин А.Д. «Изобразительное искусство». М., 1984.